# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

08-09 (126-127) 09 may 2019-cu il XÜSUSİ BURAXILIŞ İctimai-siyasi qəzet




*Veteranlar bizim qızıl fondumuzdur.
Onlar hər cür qayğıya və hörmətə layiqdirlər.
Azərbaycanın bütün ictimaiyyəti, bütün
Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya
müharibəsinin veteranları bizim ən əziz,
ən mötəbər insanlarımızdır.
Onlara qayğı göstərmək, hörmət etmək,onların
bütün problemlərini həll etmək bizim dövlətimizin
və hər bir dövlət orqanının, hər bir Azərbaycan
vətəndaşının borcudur.*

*Heydər Əliyev*




## ƏZİZ VETERANLAR,
## 9 MAY
## QƏLƏBƏ BAYRAMINIZ MÜBARƏK

1941 - 1945 AZƏRBAYCAN VETERANI

# *Heydər Əliyev təcrübəsi tükənməz həyat məktəbidir*

***Əsrlərin təcrübəsi birmənalı şəkildə təsdiq edib ki, tarix həqiqətin təhrifi, faktların saxtalaşdırılması ilə heç vaxt barışmayıb. Həqiqətin gec-tez üzə çıxacağını yaxşı bilənlər əməllərini sözlərinin, sözlərini isə əməllərinin təsdiq etməsinə xüsusi diqqət yetirirlər.***

Mənalı ömrünü sözü və əməlinin bütövlüyü ilə yaşayan və adı tarixə sağlığından əbədi həkk olunan dahi şəxsiyyətlərdən biri ulu öndər Heydər Əliyevdir. Ümummilli lider Heydər Əliyev həqiqəti bütün təhrif və saxtalaşdırma cəhdlərini puça çıxardıb. Heydər Əliyev həqiqəti görünən həqiqətdir və zamanın sınağından çıxdığı üçün əbədiliyinə tarix təminat verib.

XX əsrdə etnik mövcudluğumuzun qorunub saxlanılması və milli azadlığımızın qazanılması tarixini məqsədyönlü əməlləri ilə yazan ulu öndər Heydər Əliyevin həyatının hər günü həyat dərsliyidir, təcrübə məktəbidir. Bu milli sərvəti hərtərəfli və əsaslı öyrənməklə biz gələcəyimizin daimi sahibi ola bilərik.

Vətənini, xalqını sevən, milli ideallara xidməti özünün ən ümdə vətəndaşlıq vəzifəsi və borcu sayan hər bir şəxs Heydər Əliyevi Prezident, Ali Baş Komandan, ümummilli lider, diplomat, siyasi xadim, iqtisadçı, sıravi vətəndaş, ailə başçısı kimi öyrənməlidir. Dövlət quruculuğunu və dövlət idarəetməsini, müharibə vəziyyətində sərkərdəliklə incə diplomatiyanı birləşdirməyi, yeni ictimai-siyasi, sosial-iqtisadi münasibətlər dövründə cəmiyyətin demokratikləşdirilməsini, iqtisadi potensialın gücləndirilməsini əlaqələndirməyi, Vətənə, xalqa təmənnasız xidməti öyrənməlidir.

Azərbaycan Prezidentini tarixi dövlətçilik ənənəsi olan bir çox ölkə rəhbərlərindən fərqləndirən əsas cəhət milli azadlıq hərəkatını formalaşdırmaqla respublikanı əsarətdən qurtarması və müstəqil dövlət qurmasıdır. Qurulu dövləti idarə etmək yeni bir dövlət quraraq onu idarə etməkdən asandır. Tale isə Heydər Əliyevi sanki Azərbaycan xalqının qarşısına çıxan problemləri həll etmək üçün gətirmişdi.

Prezident və dövlət xadimi kimi Heydər Əliyevin fəaliyyətini şərti olaraq milli müstəqilliyədək və milli müstəqillikdən sonraki dövr olmaqla iki dövrə ayırmaq olar. Hər iki dövr üçün xarakterik cəhət Heydər Əliyevin özü üçün həyatının mənası kimi seçdiyi Azərbaycana xidmət etmək kimi müqəddəs amalına sonsuz sədaqətidir. Amalsa dəyişməyib, dəyişən amalı gerçəkləşdirmə yolları və vasitələridir. Onun fəaliyyətinin birinci dövründə əsas məqsəd milli ruhun şüurlu oyanışına nail olmaqla milli potensialı qoruyub saxlamaq və gələcək müstəqil Azərbaycan üçün sosial-iqtisadi, mənəvi-psixoloji, hərbi və elmi-mədəni baza yaratmaq idisə, ikinci dövrdə artıq müstəqil, suveren dövlətin azadlığına dönməz xarakter vermək, demokratik, dünyəvi, hüquqi dövlət qurmaq, nizami ordu yaratmaq, iqtisadiyyatı, mədəni-elmi həyatı dirçəltmək, sosial məsələləri nizamlamaq əsas vəzifələr idi.

Hər əsgər general ola bilməz, amma pis əsgər odur ki, general olmaq istəmir. Bizim hər birimiz, o cümlədən sərhəddə torpaq keşiyini çəkən sıravi bir əsgər də məhz ulu öndər Heydər Əliyev kimi şəxsiyyət olmağa cəhd göstərməlidir. Cəmiyyətdə belə bir cəhdin ənənəyə çevrilməsi əldə edilən uğurları daha da inkişaf etdirməyə qadir vətəndaşların yetişməsinə etibarlı təminat ola bilər.

Azərbaycanda müasir tipli ordunun həm nəzəri, həm də praktiki baxımdan yaradılması məhz Heydər Əliyevin tarixi xidmətidir. Hələ sovet dövründə milli hərbçi kadrların yetişdirilməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılmasına nail oldu. Gənclər arasında hərb sənətinə mənfi münasibəti kökündən dəyişdirdi, təhlükəsizlik və hüquq-mühafizə orqanlarının milliləşdirilməsi prosesinə başladı. Azərbaycanlı hərbçilərin etirafları sübut edir ki, məhz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra sovet rejimində azərbaycanlı hərbçilərə yüksək rütbələr və məsul vəzifələr verilməyə başlanıldı. Keçmiş SSRİ-də xidmət edən hər bir azərbaycanlı əsgər, xüsusən də zabit Heydər Əliyevin simasında özünün karyerasına, bacarıq və istedadının qiymətləndirilməsinə qarant görürdü. Elə o vaxtdan hərbçilər arasında Heydər Əliyev ordu quruculuğunu peşəkarcasına bilən, milli zabit kadrların yeganə himayədarı imicini qazanmışdı.

Heydər Əliyevin xarakterini, ideologiyasını və strategiyasını hələ 60-cı illərdən formalaşdırmağa başladığı milli azadlıq hərəkatı qələbə qazanandan sonra səriştəsiz adamların rəhbərliyə gəlişi ilə məqsədyönlü dövlət və ordu quruculuğunda anarxiyaya rəvac verildi. Nəticədə cəbhəyə toplaşmalı olan silahlar təsadüfi əllərə düşdü, Bakıda cəbhə xəttindən daha çox və sürəkli atəş səsləri eşidilməyə başladı. Başıpozuq reket dəstələri hərbi birləşmələr adı altında “siyasi liderlər”in sözlə, əməli işlə gerçəkləşdirə bilmədikləri ambisiyalarını zorla reallaşdırmaq istəyirdilər.



Bir çox müxalifət liderləri silahlı dəstələrinin əhatəsində siyasi imic qazanmaq üçün canfəşanlıqla “Vətəndən” danışdıqları vaxtlar Heydər Əliyev əməli iş görür - Milli Ordunu yaradırdı. Dəmir intizamlı, müasir texnika ilə təchiz edilmiş, həqiqi peşəkarlarla gücləndirilmiş milli ordunun varlığı ilk növbədə özünün xarici havadarlarına arxalanan və “qələbə eyforiyası” yaşayan erməni işğalçılarını atəşkəslə razılaşmağa vadar etdi. Ordunun sosial-məişət qayğıları, əsgər və zabit heyətinin döyüş hazırlığının təkmilləşdirilərək yüksəldilməsi, siyasi-ideoloji və tərbiyəvi işin müstəqil respublikamızın marağına uyğun qurulması Ulu Öndərin diqqət mərkəzində idi.

İnamsız əsgərin əlində silah əslində ya dəmir parçasıdır, ya da hara tuşlanması dəqiq bilinməyən ölüm mənbəyidir. Heydər Əliyev şərəfli xilaskarlıq missiyasına başlayanda müqəddəs amal naminə silaha sarılan vətənpərvər gənclər də bütün xalq kimi inamını itirmək təhlükəsi ilə qarşılaşmışdı. “Siyasi xadimlərin”, “cəfakeş millət liderlərinin” sayı artdıqca çaşqınlıq da güclənirdi, hərbi-siyasi vəziyyət mürəkkəbləşdikcə, torpaqlarımız, şəhər və kəndlərimiz əldən getdikcə xalqın, o cümlədən silahlı vətənpərvər gənclərin əsil sərkərdəyə ehtiyacı artırdı. Müharibəyə cəlb olunmuş Azərbaycanda isə qanlı döyüşləri, ərazi işğalını, azğın düşməni nizami ordunun gücünə dayandırmaq fədakarlıq tələb edirdi. Bu fədakarlığı ilk dəfə məhz Ali Baş Komandan kimi Heydər Əliyev öhdəsinə götürdüyü gündən xalq həsrətlə gözlədiyi sərkərdəni tapdığını anladı. Heydər Əliyev Silahlı Qüvvələr üçün qanuni yolla seçilmiş və ümumxalq sevgisi qazanmış xilaskar sərkərdə idi.



Heydər Əliyevin fitri istedada malik fenomenal şəxsiyyət olduğu hətta dünyada da təsdiq olunmuş həqiqətdir. Onu sələflərindən və müasirlərindən fərqləndirən başlıca cəhət xalqa istinad etməsi və açıq fəaliyyət göstərməsi idi. Heydər Əliyev dünya miqyasında yeganə şəxsiyyətdir ki, xalqın yekdil istəyi ilə hakimiyyətə gəldi və prezidentliyini rəsmiləşdirərkən xalqın inamını, etibarını əsas götürdü. Bununla da Heydər Əliyevin yalnız prezidentliyi deyil, ümummilli liderliyi də təsdiq olundu.

Xalq Heydər Əliyevə sonsuz inam bəslədiyi kimi, o da xalqa inanırdı. Heydər Əliyev açıq fəaliyyət göstərən şəxsiyyət idi. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişinə cəhdlər vaxtı Heydər Əliyev, ilk növbədə, xalqa müraciət edərək xəyanət haqqında ona açıq, dolğun məlumat verdi. Ən ağır məqamda da Bakını, ona inanan xalqını tərk etmədi. Onun cəsarəti, obyektivliyi bütün xalqı ayağa qaldırdı. Xalq, o cümlədən ordu qanuni Prezidentinin, xilaskarının, liderinin müdafiəsinə qalxdı. Heydər Əliyev ümummilli lider olduğunu əməli işlə təsdiq etdi. O, bu fəxri və şərəfli ada Prezident olmamışdan əvvəl layiq görüldü. Heydər Əliyev SSRİ dövründə respublikanın rəhbəri işləsə də, milli maraqları dövlət maraqlarından üstün tutub, milli ideologiyanı formalaşaraq onun təsiredici gücünün qorunub saxlanmasına çalışıb. Naxçıvan Ali Məclisinin sədri işləyərkən Azərbaycanın əvvəlki rəhbərliyinin görmədiyi işləri həyata keçirib. Bütün dövrlərdə Heydər Əliyev həm də tarixi xilaskarlıq missiyası kimi ona etibar olunmuş ümummilli liderliyini şərəflə doğruldub.

Heydər Əliyev diplomat, siyasi xadim, iqtisadçı, elm-sənət himayədarı, sıravi vətəndaş kimi nümunəvi təcrübə məktəbi yaradıb. BMT qərargahının qarşısından bayrağın asılması hələ respublikamızın dünyada tanınması demək deyildi. Dünya diplomatiyası tarixində Heydər Əliyev bəlkə də yeganə ölkə başçısıdır ki, əlində xəritə Azərbaycanın coğrafiyasını əyani nümayiş etdirməklə informasiya blokadasını dağıtmağı, düşmən tərəfinin saxtakarlığını üzə çıxarmağı özünə rəva bilib. Bu qeyri-adi faktın özü də Heydər Əliyev məktəbinin əvəzsiz dərsidir.

1993-cü ilədək Azərbaycanda vahid xarici siyasət kursu yox idi. Xarici ölkələrlə əlaqələrdə emosiyalar, utopik nəzəri mülahizələr mühüm rol oynayırdı. Heydər Əliyev xarici siyasət konsepsiyasını beynəlxalq normalara əsasən qurdu, prioritet istiqamətləri müəyyənləşdirərkən yaxın və uzaq strateji hədəfləri, dövlət və milli maraqları əsas götürdü. Diplomatik əlaqələrdə iqtisadi amilə xüsusi diqqət yetirməsinin sayəsində respublikamıza investisiya qoyuluşu geniş vüsət aldı. Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində, daxildəki iqtisadi-sosial vəziyyətin sabitliyində marağı olan ölkələrin sayının artmasına nail oldu. Heydər Əliyev təcrübəsi tükənməz həyat məktəbidir. Bu məktəbi öyrənərək başa vurmaq mümkün deyil.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev bu gün siyasi arenada, beynəlxalq aləmdə qəti addımlarını atır. O, özünü peşəkar siyasətçi, iqtisadçı, mahir diplomat kimi tanıdaraq böyük hörmət qazanıb. Dövlətimizin başçısı İlham Əliyevin uğurları yalnız ata Heydər Əliyevin deyil, eyni zamanda, Prezident, ümummilli lider Heydər Əliyevin həyat təcrübəsinin və məktəbinin təsdiqidir. Biz belə bir milli sərvətimiz olduğu üçün xoşbəxtik və bu sərvətin qədrini bilərək öyrənib mənimsəsək daha böyük nailiyyətlər qazanarıq.

***Cəlil Xəlilov***
***Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik***

AZƏRBAYCAN VETERANI 1941 - 1945



08-09 (126-127) 09 may 2019-cu il

***"Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 fevral tarixli 992 nömrəli Sərəncamının icrası ilə əlaqədar qərara alıram:

1. "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilsin və onun aylıq məbləği 80 manat müəyyən olunsun.

2. Müəyyən edilsin ki:

2.1. bu Fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü:

2.1.1. 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir;

2.1.2. dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik tərəfindən ödənilir;

2.2. bu Fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünü və müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə, ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən I qrup əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünü almaq hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin qeyd olunan təqaüdlərindən yalnız biri – ən yüksəyi verilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Fərmanın 1-ci və 2-ci hissələri 2019-cu il aprelin 1-dən tətbiq edilir.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 aprel 2019-cu il.***

# Azərbaycanda veteranlar etibarlı sosial müdafiə sistemi ilə əhatə olunublar

1941-1945-ci illərdə İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin əldə olunmasında yaxından iştirak edərək, müstəsna xidmətləri ilə seçilən Azərbaycan bu gün eyni zamanda bu müharibənin iştirakçılarının etibarlı sosial müdafiəsinin təmin olunması istiqamətində fəal dövlət siyasətinə malikdir.

Ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk vaxtlarda bu təbəqədən olan insanlara biganə münasibət özünü göstərsə də, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə xalqımızın iradəsi ilə yenidən respublikaya qayıdışından sonra bu ədalətsiz yanaşmaya son qoyulub. İkinci Dünya müharibəsi iştirakçılarını cəmiyyətimizin ən hörmətli insanları kimi dəyərləndirən Ulu öndərimiz 9 May - Qələbə gününün yenidən dövlət bayramları sırasına daxil edilməsini, həmin müharibənin iştirakçılarının sosial müdafiəsi sahəsində mühüm addımların atılmasını təmin edib. 1994-cü ildə "Veteranlar haqqında" Qanun qəbul olunmaqla, İkinci Dünya müharibəsi iştirakçılarına dövlət qayğısının ildən-ilə artırılması istiqamətində müvafiq işlər aparılıb.

2003-cü ildən etibarən Ulu öndərimizin layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilməklə, bu istiqamətdəki xətti müvəffəqiyyətlə həyata keçirir. Yaxın bir neçə ildə İkinci Dünya müharibəsi iştirakçılarına qayğı daha da artırılıb, onların sosial müdafiəsinin gücləndirilməsi sahəsində hörmətli Prezidentimizin çoxsaylı fərman və sərəncamları olub. Hər il 9 May - Qələbə günü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardımların verilməsi barədə sərəncamların imzalanması da həmin insanlara yüksək diqqət və qayğıdan xəbər verir.

Ümumilikdə Azərbaycan MDB-yə üzv ölkələr arasında hər il Qələbə günü ərəfəsində İkinci Dünya müharibəsi iştirakçılarına ən yüksək məbləğdə birdəfəlik maddi yardımın verildiyi ölkədir.

02 iyul 2012-ci il tarixdə 1941-1945- cil illər Böyük Vətən Müharibəsi iştirakçılarının sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə ( müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikasının Prezidentinin təqaüdü təsis edilərək onun aylıq məbləği 55 manat müəyyən edilmişdir.

23 aprel 2013-cü il tarixdə Respublika Prezidentinin fərmanı ilə 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 68-ci ildönümü və 30 aprel 2014-cü il tarixli sərəncamı ilə Qələbənin 69-cu ildönümü ilə əlaqədar ilə əlaqədar Böyük Vətən müharibəsi iştirakçılarına birdəfəlik maddi yardımlar verilmişdir. 11 avqust 2014-cü il tarixli fərman ilə Əfqanıstanda Sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında olmuş elan edilən hərbi qulluqçuların ailələrinə (valideynləri, dul arvadları) üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilmişdir.

Qeyd olunan şəxslərə birdəfəlik yardım verilməsi barədə dövlət başçısı tərəfindən 24 aprel 2017-ci il tarixli Sərəncam imzalanıb və bu məqsədlə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 7,2 milyon manat vəsait ayrılıb.



İkinci Dünya Müharibəsi iştirakçılarına dövlət qayğısı ildən-ilə artırılmaqdadır, belə ki, bu il cənab Prezident "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Fərman imzaladı. Təqaüd 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir.

Ölkə başçısı cənab İlham Əliyev prezident seçildiyi dövrdən etibarən hər zaman veteranlara, müharibə əlillərinə, arxa cəbhədə fədakar əməyi ilə fərqlənən insanlara qayğı ilə yanaşıb. 2019-cu ilin 23 aprelində cənab Prezident İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzaladı. Sərəncamda Böyük Vətən müharibəsi iştirakçılarına 1000 manat, onların dul qadınlarına, arxa cəbhə iştirakçılarına, Leninqrad blokadasının müdafiəsində iştirak edən şəxslərə 500 manat məbləğində vəsaitin ödənilməsi nəzərdə tutulur.

Azərbaycan dövlətinin hər zaman öz vətəndaşlarına sahib çıxması, xüsusən veteranların, ölkənin ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirməsi bu fəaliyyətin bariz və qürur doğuran nəticəsidir.

İkinci Dünya müharibəsi əlilləri və iştirakçıları əmək pensiyaları ilə təmin olunurlar və onların yaşa görə əmək pensiyalarının baza hissəsinin üzərinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada əlavələr də hesablanır. Bundan əlavə, qeyd edilən şəxslərin, eləcə də şəhid ailələrinin mənzil və fərdi evlərlə, müharibə əlillərinin isə minik avtomobilləri ilə təmin edilməsi üzrə mühüm sosial proqramlar da icra edilir. Həmin vətəndaşların dövlət hesabına bərpa-müalicə xidməti, sanator-kurort putyovkaları və s. ilə təminatı sahəsində də məqsədyönlü işlər görülür. Eyni zamanda sosial xidmətlərə ehtiyac duyan İkinci Dünya müharibəsi iştirakçılarının müraciətlərinə uyğun olaraq, sosial işçilər tərəfindən evlərində sosial xidmətlər göstərilir.

Həyata keçirilmiş sosial proqramlar Vətənə canı bahasına xidmət etmiş və bu gün də layiqincə xidmət edən insanlara, onların ailə üzvlərinə nə qədər önəm verildiyini bir daha sübut edir. Ali Baş Komandanın bu istiqamətdə verdiyi Fərman və sərəncamlar Azərbaycanın veteranlarımıza və onların yaxınlarına, eləcə də sabah torpaqlarımızın düşmən işğalından azad olunması yolunda fədakarlıq göstərəcək əsgər və zabitlərimizə ünvanlanmış aydın və birmənalı mesajıdır. Vətən, xalq, dövlət öz müdafiəçilərini daim qiymətləndirir, onların xidmətlərini heç vaxt yaddan çıxarmır.

Qeyd olunanlar ölkəmizdə İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin daim dövlət qayğısı ilə əhatə olunduqlarını göstərir. Bu qayğıya layiqli cavab olaraq, İkinci Dünya müharibəsi iştirakçıları da respublikamızın inkişafı proseslərində, xüsusən də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində fəal iştirak edirlər.

Müharibə veteranları ilə bağlı dövlətin sosial proqramlar çərçivəsində həyata keçirilən tədbirlərin təminatının yerinə yetirilməsində Respublika Veteranlar Təşkilatı yaxından iştirak edir. Təşkilatın sosial müdafiəsi şöbəsi sosial proqramların genişlənməsi üçün aidiyyatı təşkilatlar qarşısında vəsadətlər qaldırır, eləcə də hər il RVT-yə veteranlar tərəfindən yazılı olaraq müxtəlif məzmunlu ərizə və müraciətlər daxil olur ki, onların hər birinə bu şöbə tərəfindən baxılaraq icra olunur. 2018 və 2019-cu il ərzində orta hesabla təşkilata 72 rəsmi sənəd daxil olub. Daxil olan ərizələr araşdırılmış və veteranlara lazımi köməklik göstərilmişdir.

Veteranlarımıza göstərilən diqqət və qayğıya görə cənab Prezident İlham Əliyevə, eləcə də I vitse-prezident Mehriban Əliyevaya Respublika Veteranlar Təşkilatının rəhbərliyi, eyni zamanda veteranlarımız adından öz xüsusi minnətdarlığımızı bildiririk.

1941 - 1945
AZƏRBAYCAN VETERANI

# Azərbaycanda Veteran hərəkatı dünyaya nümunə olacaq səviyyədədir



Respublika Veteranlar Təşkilatı ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli rola malik olan təşkilatlardan biridir. Təşkilat ərtafında birləşdirdiyi veteranlarla hər zaman Azərbaycan xalqına və dövlətinə dəstək olmuş, dövlətçiliyimizin möhkəmlənməsində əlindən gələni əsirgəməmişdir. Çoxsaylı və müxtəlif kateqoriyadan olan veteranların təcrübəsini, vətənpərvərliyini gənclərə aşılamaq Təşkilatın qarşısında duran əsas məsələlərdəndir. Bu gün biz fəxrlə deyə bilərik ki, Respublika Veteranlar Təşkilatı üzərinə düşən işin məsuliyyətini dərk edərək onu layiqli formada gənc nəslə çatdırmağı bacarır.

Prezident İlham Əliveyin 2015-ci ildə açılışını etdiyi Respublika Veteranlar Təşkilatının inzibati binası hər cür maddi-texniki baza ilə təmin edilmiş, ən müasir tələblərə cavab verən iş otaqları, tədbirlərin həyata keçirilməsi üçün geniş toplantı zalı, eləcə də, veteranların istirahəti və sağlamlığı üçün yaradılmış şərait hər bir veteranda qürür hissi doğurur. Bütün bunlar veteranlara və onların üzvü olduğu təşkilata dövlət qayğısından xəbər verir. Hər il ölkə prezidenti İlham Əliyevin və birinci vitse-prezident Mehriban Əliyevanın veteranlarla görüş keçirməsi, onların problemləri ilə yaxından maraqlanması respublikamızda veteranlara göstərilən diqqət və qayğıdan xəbər verir. Veteranların maddi durumlarının və məişət şəraitinin yaxşılaşdırılması, mənzil və avtomobillə təmin edilməsi bunun əyani sübutdur.

Son dövrlərdə Təşkilat bir sıra daha əlamətdar tədbirlərin həyata keçirilməsinə imza atmışdır. Dövlət qurumları və digər orqanlarla birgə həyata keçirilən tədbirlər Təşkilatın fəaliyyətinin uğurundan və kollektivin məsuliyyətindən xəbər verir. Bu toplantılarda İkinci Dünya, Əfqanıstan, Qarabağ müharibələri, Silahlı Qüvvələr, Hüquq-mühafizə orqanları və əmək veteranları, müxtəlif ictimai birlik və təşkilatların nümayəndələri, ziyalılar, gənclər iştirak edirlər.

Gənclərin vətənpərvər ruhda tərbiyə edilməsi veteranların fəaliyyətinin əsas istiqamətidir. Bu məqsədlə Azərbaycanın hər bir bölgəsində olan hərbi hissələrdə, ali təhsil ocaqlarında, məktəblərdə gənclərlə görüşlər keçirilir, onlara vətən sevgisi aşılanır. Vətənpərvərliyin təbliği istiqamətində veteranların məqalə və yazıları kütləvi informasiya vasitələrində müntəzəm olaraq işıqlandırılır.

Təşkilat həm də, beynəlxalq əlaqələrini günü-gündən gücləndirir, beynəlxalq səviyyəli tədbirlər həyata keçirir, xaricdən gələn qonaqları qəbul edir, ölkəmiz və veteranların bu günki həyat səviyyəsi haqqında informasiyalar verir. Azərbaycan haqqında məlumat, Ermənistanın təcavüzkarlıq siyasəti, işğal altında olan torpaqlarımızın sülh yolu ilə qaytarılması və digər bu kimi məsələlərdə belə tədbirlərin rolu əvəzedilməzdir.

Təşkilat tərəfindən "Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağrışlar" mövzusunda hazırlanıb həyata keçirilən beynəlxalq konfrans xalqımızın insanlığa, terror əleyhinə olan bütün ölkələrə ünvanlanmış sülh mesajı oldu. "Dünya Veteranları Federasiyası"nın sədri Dan-Viggo Bergtunun və digər qonaqların ölkəmiz və təşkilatımız haqqında yüksək təəssüratları göstərdi ki, Azərbaycanda Veteran hərəkatı bütün ölkələrə nümunə olacaq səviyyədədir.

Tariximizin qorunub saxlanılması, qəhrəmanlarımızın, ürəyi vətən və xalq üçün döyünən şəxslərin tanıdılması, xatirələrinin yaşadılması istiqamətində Respublika Veteranlar Təşkilatı səylərini əsirgəmir. Cumhuriyyətimizin 100 illiyi və dövlət orqanlarının yaradılmasının yubileyləri təşkilat tərəfindən yüksək səviyyədə qeyd edilir.

2018-ci ildə Respublika Veteranlar Təşkilatının 30 illik yubileyini qeyd etdik. Bu illər ərzində Təşkilatın səmərəli həyata keçirdiyi fəaliyyət Ulu Öndər Heydər Əliyevin prinsiplərinə əsaslanır. Bu gün Təşkilat Azərbaycan Silahlı Qüvvələri və digər güc strukturları, Təhsil nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyi, Gənclər və idman nazirliyi, eləcə də, digər dövlət orqanları ilə yaxından əməkdaşlıq edir. 30 illik fəaliyyəti dövründə Respublika Veteranlar Təşkilatı üzərinə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gələrək nəinki Azərbaycanın, eləcə də, Avropa və MDB ölkələri içərisində ən aparıcı və güclü nüfuza malik təşkilat olmuşudur.

Sonda əminliklə ifadə edirəm ki, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı ölkə rəhbərliyinin göstərdiyi etimadı hər zaman doğrultmuşdur və bundan sonra da Təşkilat üzərinə düşən şərəfli məsuliyyətin öhdəsindən layiqincə gələcək, ölkəmizin daha da inkişafı naminə fəaliyyətini əzmlə davam etdirəcəkdir.

Faşizm üzərində Qələbənin əldə edilməsində Azərbaycan xalqı əzm və rəşadət göstərmişdir. Həm ön cəbhədə qəhrəmancasına döyüşmüş, həmdə arxa cəbhədə qələbənin təminatçısı olmuşuq. Yorulmamışıq, döyüşlərdə inadla çarpışmışıq. Qələbəyə gedən yolu fədakarlığımızla işıqlandırmışıq. Dünyada sülhün, əminamanlığın təmin edilməsi, xalqların dinc yaşamı, faşizm taunundan insanlığın xilas edilməsi, dostluq, birlik üçün qanımızı, canımızı və həyatımızı fəda etdik. Bu bizim timsalımızda insanlığın və sülh üçün doğan günəşin bayramıdır.

Əziz Veteranlar, 9 May Qələbə bayramınız mübarək olsun, hər birinizi təbrik edir, Sizlərə cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram. Qarşıdan gələn növbəti Qələbə bayramını işğal altında olan torpaqlarımızda keçirəcəyik.

***Tofiq Ağahüseynov***
***Respublika Veteranlar Təşkilatının sədri, general-polkovnik***

# Vətən qarşısında xidməti olan şəxslər hər zaman diqqət mərkəzindədir

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla reallaşdırılan siyasi kurs beynəlxalq aləmdə Azərbaycanın yeni imicini formalaşdırıb. Bu gün Azərbaycan dünyada yüksək iqtisadi göstəriciləri, tolerantlıq, humanizm prinsiplərinə əsaslanan siyasi kursu və tarixi ənənələrə sadiq, milli kimliyinə, mədəni irsinə sahib çıxan ölkə kimi tanınır. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu bu siyasət, azərbaycançılıq ideologiyası dövlət və vətəndaş birliyinin sarsılmazlığına söykənir. Bu siyasətin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar bütün sahələrdə, eləcə də xalqımızın bütün təbəqələrinin yaşayışına müsbət təsir edir. Qürurla deyə bilərik ki, Azərbaycan digər dövlətlər üçün nümunədir.

Cənubi Qafqaz regionunun ən güclü dövləti olan Azərbaycan məkrli qüvvələrin haqsız siyasi təzyiqləri, qarayaxma cəhdlərinə məruz qalıb. Bu gün Azərbaycanın iqtisadi, sosial və hərbi qüdrəti, qətiyyətli daxili və xarici siyasəti dünya dövlətlərini və onların təmsil etdikləri qurumları açıq sözlü olmağa, həqiqəti təhrifsiz göstərməyə vadar edir. Sevindirici haldır ki, biz bütün bunları görür, günü-gündən çiçəklənən Azərbaycanımızın inkişafı üçün Prezident İlham Əliyevin ətrafında daha sıx birləşirik.

Prezident İlham Əliyevin müxtəlif kateqoriyalar üzrə vətəndaşların sosial müavinətlərinin artırılması, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, sosial rifahının yüksəldilməsi ilə bağlı imzaladığı Sərəncam cəmiyyətdə böyük minnətdarlıq hissi ilə qarşılanır. Dövlətimizin başçısının 2019-cu il 25 fevral tarixli Sərəncamına uyğun olaraq, aprelin 1-dən 14 kateqoriya üzrə sosial müavinətlər və 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz artırılır.

Dövlətimizin başçısı Böyük Vətən müharibəsi iştirakçıları, Qarabağ müharibəsi veteranları və əlilləri, Çernobıl hadisəsi, Əfqanıstan müharibəsi iştirakçıları ilə bağlı bir neçə Sərəncam imzalayıb. Bu sərəncamlarda veteranların sosial şəraitinin yaxşılaşdırılması, onların ev, avtomobillə təmini, sosial müdafiəsinin gücləndirilməsi və sair məsələlər əksini tapıb.

Dövlətimizin başçısının "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Fərmanı bu istiqamətdə mühüm addımlardandır. Prezident İlham Əliyev bununla Vətənə canı bahasına xidmət etmiş və bu gün də layiqincə xidmət edən insanlara, onların ailə üzvlərinə nə qədər önəm verdiyini bir daha sübut etdi. Bu Fərman Ali Baş Komandanın Azərbaycanın veteranlarımıza və onların yaxınlarına, eləcə də sabah torpaqlarımızı düşmən işğalından azad olunması yolunda fədakarlıq göstərəcək əsgər və zabitlərimizə ünvanlanmış aydın və birmənalı mesajıdır. Vətən, xalq, dövlət öz müdafiəçilərini daim qiymətləndirir, onların xidmətlərini heç vaxt yaddan çıxarmır.

Bütün bu addımlar insanların sosial rifahının yüksəldilməsinə hesablanıb. Həmin addımlar cəmiyyət, eləcə də respublikamızda fəaliyyət göstərən bütün qurumlar, o cümlədən Respublika Veteranlar Təşkilatı tərəfindən də rəğbətlə qarşılanır. Təşkilatın Rəyasət Heyəti bununla bağlı Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb.

Veteranlara, əlillərə qayğı hər zaman dövlətimizin diqqət mərkəzində olub. Bu məsələyə indi də xüsusi diqqət yetirilir. Bu yöndə silsilə addımların atılması bir daha onu göstərir ki, dövlətimizin başçısının yürütdüyü sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Dövlət veteranların sosial təminatına başlıca məsələ kimi yanaşır, onların rifahının yaxşılaşması üçün ardıcıl tədbirlər həyata keçirir. Bu günədək müharibə əlilləri üçün çoxlu sanatoriyalar, reabilitasiya, protez mərkəzləri və sair inşa edilib. Bu müəssisələr müasir avadanlıqla təchiz olunub. Veteranların və əlillərin mənzil-məişət şəraitinin yaxşılaşması, sosial rifahının yüksəlməsi, müalicə və reabilitasiya prosesinin daha səmərəli olması üçün dövlət bütün imkanlarından istifadə edir. Ümumiyyətlə, dövlətimizin sosialyönümlü çoxsaylı layihələri, qəbul olunan yeni qərarlar bu istiqamətdə atılan addımların davamlı olduğunu göstərir.

Azərbaycanda veteranlara göstərilən yüksək diqqət və qayğı digər dövlətlərə nümunədir. Veteran ailələrinə də dövlət tərəfindən yardımlar edilir. Müxtəlif ölkələrin nümayəndələri ölkəmizə, Respublika



Veteranlar Təşkilatına təşrif buyuranda və veteranlara göstərilən qayğını, yaradılan şəraiti görəndə bizə qibtə edirlər. Ölkəmizin hər yerində veteranlar üçün yüksək şərait yaradılıb. Bütün bunlar veteranlara dövlət qayğısının bariz nümunəsidir.

Gənclərimiz, ordumuzda xidmət edən zabitlər, hərbi məktəblərdə təhsil alan kursantlar da dövlətimizin başçısının veteranlara qayğısını görürlər. Onlar bilirlər ki, Vətən uğrunda sağlamlığını itirən şəxslərə dövlət tərəfindən ən yüksək səviyyədə diqqət göstərilir. Həmin şəxslərin dövlət qarşısındakı xidmətləri həm dövlət təltifləri ilə qiymətləndirilir, həm də sosial yardımlarla təqdir edilir. Onların ailə üzvləri də müəyyən imtiyaz və yardımlardan istifadə edirlər. Bütün bunlar gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinə müsbət təsir edir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə mütəmadi görüşürlər. Müharibə veteranlarının arzu və istəklərinə, onları narahat edən problemlərin həllinə xüsusi diqqət və həssaslıqla yanaşırlar. Bütün bunları görən gənclər anlayırlar ki, dövlət qarşısında xidməti olan şəxslər heç vaxt diqqətdən kənarda qalmırlar. Odur ki, hər bir Azərbaycan vətəndaşı Prezidentimizin ətrafında sıx birləşməli, yeni uğurların qazanılmasına əməli işi ilə töhfə verməlidir.

# Veteranlar Heydər Əliyev Mərkəzini ziyarət ediblər

Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar vaxtilə onun rəhbərliyi ilə çalışan yaşlı nəslin nümayəndələri, Ümummilli Liderin idarəçilik məktəbində yetişmiş dövlət orqanlarının keçmiş yüksək vəzifəli



əməkdaşları, həmçinin veteranlar aprelin 25-də Fəxri xiyabana gələrək Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə güllər qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb. Tədbir Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən təşkil olunub.

Sonra Respublika Veteranlar Təşkilatının üzvləri Heydər Əliyev Mərkəzində olublar. Burada veteranlara dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verilib.

Bildirilib ki, burada fəaliyyət göstərən Heydər Əliyev Muzeyində ümummilli lider Heydər Əliyevin həyat yolu haqqında maraqlı faktlar foto və videomateriallar vasitəsilə təqdim olunur. Muzeydə toplanan məlumatlar ziyarətçilərə interaktiv formada çatdırılır. Hər bir mövzuya aid materiallar səsli formada həm Azərbaycan, həm də ingilis dilində verilir.

Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyi veteranların böyük marağına səbəb olub. Onlar muzeyin "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs və nailiyyətlər", "Fotolarda əks olunmuş həyat" bölmələrində Ulu Öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri ilə virtual şəkildə məlumatlandırılıblar.

Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov jurnalistlərə müsahibəsində bildirib ki, veteranlar Heydər Əliyev Mərkəzində Ümummilli Liderin qurub-yaratdığı müasir müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış oldular. Onlar Ulu Öndərin ölkəmizin müstəqilliyinin gücləndirilməsində, iqtisadiyyatının yaxşılaşdırılmasında, ordu quruculuğunda fəaliyyətinə xüsusi qiymət verirlər. Bu gün veteranlar Mərkəzdə Heydər Əliyev Muzeyi ilə tanış oldular. Onlar bir daha dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə xidmət etdiklərinə görə fəxr etdiklərini bildirdilər, bugünkü inkişaf etmiş Azərbaycana görə onu minnətdarlıq hissi ilə xatırladılar. Çünki ümummilli lider





Heydər Əliyevin gördüyü böyük işlər öz nəticələrini verir. Hazırda ölkəmiz dünyanın aparıcı dövlətləri ilə siyasi, iqtisadi, hərbi və digər sahələrdə əlaqələr qurub. Azərbaycanın Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasındadır. Azərbaycanın iqtisadiyyatı inkişaf edir. Xalqımız bunun bəhrəsini hiss edir. Azərbaycan bu gün bütün sahələrdə böyük uğurlar qazanır. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionun qüdrətli dövlətinə çevrilib, dünyanın sürətlə inkişaf edən ölkələri sırasına yüksəlib. Ölkəmizin sosial, iqtisadi tərəqqisi istiqamətində də mühüm addımlar atılır.

"Bu gün Prezident İlham Əliyev veteranlara yüksək diqqət və qayğı göstərir, hər il 9 May - Qələbə bayramı ərəfəsində onlarla görüşür. Bu gün veteranların sosial müdafiəsi ilə bağlı məsələlər həllini tapır. Son dövrlərdə bu istiqamətdə müvafiq fərmanlar və sərəncamlar imzalanıb. Bu da Azərbaycan veteranlarının və geniş ictimaiyyətin böyük sevincinə səbəb olub. Çünki həmin sənədlər bütün kateqoriyadan olan veteranlara və əlillərə şamil olunub. Veteranlarımız da əzmlə çalışaraq Azərbaycan ictimai-siyasi həyatında fəal şəkildə iştirak edir, Prezidentin apardığı daxili və xarici siyasəti daim dəstəkləyirlər", - deyə Cəlil Xəlilov vurğulayıb.

# Ərəstun Mehdiyev: Tarixi yenidən yazmaq cəhdlərini qəti şəkildə pisləməliyik




Sankt-Peterburqdakı B.Yeltsin adına Prezident Kitabxanasında Böyük Vətən müharibəsində Leninqradın blokadadan tam azad edilməsinin 75-ci ildönümünə həsr olunmuş "Birlikdə qazanılan böyük qələbə" mövzusunda beynəlxalq forum keçirilib.

"Avrasiya Tədqiqatları Fondu, "Şimal-Cənub" Politologiya Mərkəzinin MDB ölkələri Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun (DHƏF) dəstəyi ilə təşkil etdikləri foruma 250-dən çox iştirakçı, o cümlədən Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyevin rəhbərliyi ilə ölkəmizdən geniş tərkibli nümayəndə heyəti qatılıb.

Tədbirin açılışında Rusiya Prezidenti Vladimir Putinin forum iştirakçılarına ünvanladığı təbrik məktubu oxunub. Forumun plenar iclasında Sankt-Peterburqun qubernatoru vəzifəsini icra edən Aleksandr Beqlov, Rusiya Prezidentinin beynəlxalq humanitar əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və başqaları çıxış edərək keçmiş sovet respublikaları xalqlarının Böyük Vətən müharibəsində nümayiş etdirdikləri birlik və şücaətdən danışıblar.

Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev çıxışında qeyd edib ki, Leninqradın müdafiəsi Böyük Vətən müharibəsinin qəhrəmanlıq səhifələrindən biridir. Leninqradın müdafiəçiləri dünyaya görünməmiş yenilməzlik və fədakarlıq nümayiş etdiriblər. Ərəstun Mehdiyev Azərbaycanın alman faşizminin darmadağın edilməsinə layiqli töhfə verdiyini, 700 minə yaxın azərbaycanlının düşmənə qarşı mərdliklə vuruşduğunu, cəbhə üçün lazım olan yanacağın 80 faizinin Bakı neftçiləri tərəfindən təmin edildiyini vurğulayıb. Diqqətə çatdırıb ki, azərbaycanlı əsgər və zabitlər bütün cəbhələrdə, o cümlədən Leninqrad cəbhəsində rəşadətlə vuruşublar. "Həlak olmuş həmvətənlərimizin xatirəsi əbədiləşdirilib, Piskaryov məzarlığında onların xatirə lövhəsi qoyulub. Leninqradın blokadası dövründə baş vermiş bir hadisəni də xatırlamaya bilmirəm. Müharibənin ən qızğın dövründə, 1941-ci ildə Leninqradda, Ermitajda dahi Azərbaycan şairi Nizami Gəncəvinin 800 illik yubileyi qeyd olunmuşdu. Bu, peterburqluların zəngin daxili aləminin və nəcibliyi-



nin daha bir nümunəsidir", - deyə Ərəstun Mehdiyev bildirib. O xatırladıb ki, bu gün Leninqrad blokadasının şahidləri dünyanın müxtəlif ölkələrində yaşayırlar. Onların arasında taleyini Azərbaycana bağlayanlar da var. Lakin zaman durmadan irəliləyir və təəssüf ki, indi Azərbaycanda blokadanın cəmi 9 şahidi qalıb. Ölkəmizdə müharibə veteranlarına daim xüsusi qayğı ilə yanaşılır. Qələbə bayramı ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə müharibə veteranlarına, blokada dövrünü yaşamış Leninqrad müdafiəçilərinə birdəfəlik müavinətlər ödənilir, "Əbədi alay" aksiyası və digər tədbirlər keçirilir.

Ərəstun Mehdiyev təəssüflə qeyd edib ki, son illər müxtəlif ölkələrdə Böyük Vətən müharibəsində sovet xalqının fədakarlığı haqqında həqiqətləri təhrif etmək, nasizmə, faşist cəlladlarının havadarlarına bəraət qazandırmaq meyilləri ilə üzləşirik. O deyib: "Bu, yolverilməzdir. Biz səylərimizi birləşdirib, tarixin saxtalaşdırılması halları ilə mübarizə aparmalı, Qələbənin əhəmiyyətini kiçiltmək, tarixi yenidən yazmaq cəhdlərini qəti şəkildə pisləməliyik".

***Fəridə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Sankt-Peterburq***

# Sovet İttifaqı Qəhrəmanlarımız

Abbas Şahbaz oğlu Quliyev
Adil Hüseyn oğlu Quliyev
Ağaşirin Ağaməmməd oğlu Cəfərov
Aslan Vəzirov Aslan Fərhad oğlu Vəzirov
Bahəddin Şahvələd oğlu Mirzəyev
Bəkir Dursun oğlu Mustafayev
Cəmil Məhəmməd oğlu Əhmədov
Əlif Turxan oğlu Piriyev
Əmi Ağa oğlu Məmmədov
Əvəz Həşim oğlu Verdiyev
Fariz Məcid oğlu Səfərov
Gəray Lətif oğlu Əsədov
Həbibulla Eynulla oğlu Hüseynov
Həzi Əhəd oğlu Aslanov
İdris Həsən oğlu Süleymanov
İsmayıl Xəlil oğlu Bayramov
İsrafil Məhərrəm oğlu Məmmədov
Mehdi Hənifə oğlu Hüseynzadə
Mehdi Nadir oğlu Quliyev
Məhərrəm Əkbər oğlu Dadaşov
Məlik Məlik oğlu Məhərrəmov



Məmiş Şahbaz oğlu Abdullayev
Məmməd Əli oğlu Məhərrəmov
Məmməd Cəbrayıl oğlu Məmmədov
Mərdan Məmməd oğlu Musayev
Məstan Aslan oğlu Əliyev
Mikayıl Məhəmməd oğlu Əkbərov
Mirzə Ağamurad oğlu Cəbiyev
Mirzə Dövlət oğlu Vəliyev
Müseyib Abdulla oğlu Allahverdiyev
Müseyib Bağır oğlu Bağırov
Nəcəfqulu Rəcəbəli oğlu Rəfiyev
Qafur Nəsir oğlu Məmmədov
Qəzənfər Qulam oğlu Əkbərov
Səlahəddin Həsən oğlu Kazımov
Səməd Həmid oğlu Abdullayev
Şəmsulla Feyzulla oğlu Əliyev
Şirin Ağabala oğlu Şükürov
Xəlil Məmməd oğlu Məmmədov
Xıdır Həsən oğlu Mustafayev
Yusif Mədət oğlu Sadıxov
Ziya Musa oğlu Bünyadov

***İkinci Dünya müharibəsi illərində döyüş qəhrəmanlığına görə Aleksandr Nevski ordeni ilə Sovet Ordusunun 40692 zabiti təltif olunmuşdur. Rusiya mənbələrinə görə, onlardan 100-ə yaxın zabiti bu ordenlə iki dəfə təltif edilmişdir. Aparılan tətqiqatlar zamanı Aleksandr Nevski ordeninin kavaleri olan 92 azərbaycanlı zabit haqqında material aşkar olunmuş və toplanmışdır. A.A.Hüseynov və H.İ.Mirzəyevin müəllifi olduğu "Aleksandr Nevski ordenli cəngavərlərimiz" kitabında onlar haqqında ətraflı məlumat əldə edə bilərsiniz.***

*Aleksandr Nevski ordeninə layiq görülmüş Sovet İttifaqı Qəhrəmanları*

Aslanov Həzi Əhəd oğlu
Əhmədov Cəmil Məmməd oğlu
Quliyev Abbas Şahbaz oğlu
Quliyev Adil Hüseyn oğlu
Kazımov Səlahəddin İsa oğlu
Məmmədov Xəlil Məmməd oğlu

*Aleksandr Nevski ordeninə iki dəfə layiq görülmüş zabitlər*

Axundov Rəşid Xəlil oğlu
Cəfərov Hidayət Qavil oğlu
Əliyev Abbas Hüseyn oğlu
Quliyev Məhərrəm Müseyib oğlu

*Aleksandr Nevski ordeninə layiq görülmüş zabitlər:*

Abakarov Məhəmməd- Saleh İsmayıl oğlu
Abbasov İslam Əli oğlu
Abbasov Yusif Muxtar oğlu
Ağakişiyev Yusif Seyfulla oğlu
Ağasıyev Mirzəcan Canmirzə oğlu
Ağayev Nəsrəddin Nasir oğlu
Axundov Rasim Əbdülhüseyn oğlu
Axverdiyev Allahyar Kərim oğlu
Babakişiyev Şıxəhməd Babakişi oğlu
Babayev Mail Hüseyn oğlu
Bağırov Fəxrad Azad oğlu
Baxışov Yusif Əhməd oğlu
Baxşəliyev Adil Hüseyn oğlu
Balayev Mövsüm Nasir oğlu
Bayramov Məmməd Qasım oğlu
Beşirov Kərim Fateh oğlu
Behbudov Hüseyn Həsən oğlu
Cəfəroğlu Müzəffər
Cəfərli Qəzənfər Musa oğlu
Cəfərli Tələt Zülfüqar oğlu
Cəfərov Məhəmməd Yusif oğlu
Dadaşov Ağa-Rza Mir-Qəni oğlu
Eynullayev Allahqulu Bayram oğlu
Əliyev Abdulla İsfəndiyar oğlu
Əliyev Cəfər Səməd oğlu
Əliyev Hüseynqulu Xankişi oğlu
Əliyev Zakir Hilal oğlu
Əmirov Mövsüm Həmzə oğlu
Əziz-zadə Murtuz Əsəd oğlu
Hacıyev Hacı Rza oğlu
Hacıyev Hacıağa İsa oğlu
Hacıyev Hüseyn Ələkbər oğlu
Hacıyev Niyaz Məmmədəli oğlu
Hacıyev Novruz Əliheydər oğlu
Həsənağa Abil Həsən oğlu
Hüseynov Arif Möhnət oğlu
Hüseynov Əliseyran Əbdülhüseyn oğlu
Hüseynov Hüseyn Yusif oğlu
Hüseynov İdris Baba oğlu
İbadov Hüseyn Fərəc oğlu
İbrahimov Əliheydər Əliqulu oğlu
İskəndərov İskəndər Qəzənfər oğlu
İsmayılov Miriş Qasım oğlu
Kazımov Ənvər İbrahim oğlu
Kazımov Sədulla İbrahim oğlu
Qafarov Teymur Ələkbər oğlu
Qasımov Pakəddin İsmixan oğlu
Quliyev Əbülfəz Kazım oğlu
Quliyev Əliağa Səməd oğlu
Quliyev Mansur Alı oğlu
Mehbalıyev Paşa Hüseyn oğlu
Mehdiyev Cəfər Səftar oğlu
Mehrəliyev Tahir Mehrəli oğlu
Məmmədov Absəddin Ağabala oğlu
Məmmədov Əşrəf Gəncalı oğlu
Məmmədov Məhərrəm Mehdi oğlu
Məmmədov Məmməd Mayil oğlu
Məmmədov Mustafa Zeynal oğlu
Məmmədov Tofiq Musa oğlu




Məmmədov Şirəli Məmməd oğlu
Mirzəyev Vəliş Xudamurad oğlu
Muradov İsa Buloviç
Nağıyev Nadir Abutalıb oğlu
Nağıyev Nağı Əli oğlu
Rəhimov Raqil Əbdülrəhim oğlu
Rəsulov Sahib Sam-Mirzə oğlu
Rzayev Mirzə Nuru oğlu
Sadıxov Bolşevik Həsənxan oğlu
Səfərov Yusif Hüseyn oğlu
Sərxanov Sələt Kələntər oğlu
Süleymanov Çərçəz Qoçaq oğlu
Süleymanov Muxtar İsmayıl oğlu
Tağıyev Ənvər Cəfər oğlu
Şahbazov Fətulla Xeyirbəy oğlu
Şahbazov Xeybər Əli oğlu
Vəlibəyov Gəray İldırım oğlu
Vəliyev Abutalıb Mirzəcan oğlu
Vəliyev Sayad Həsən oğlu
Yusifzadə Cəfər Cəfər oğlu
Zeynalov Bahadır Qasım oğlu
Zeynalov İbrahim Ağalar oğlu
Zülalov Bəşir Nəcəf oğlu

## *31-ci Haribaldi briqadasında döyüşmüş, İtaliya hökuməti və hərbi komandanlığı tərəfindən "Vətənpərvərin sertifikatı" ilə təltif edilmiş azərbaycanlı partizanlar*


N. 451225
Certificato al Patriota

İbrahimov İbrahim
Babayev Ramazan
Mamedov Əli
Allahverdiyev Abbas
Eminov Koçari
Verdiyev Mahir
Mamedov Famil
Abiyev Cahangir
Paşayev Kərim
Həsənov Həsən
Əsədullayev İbrahim
Həmidov Qurban
Həsənov Mamed
Quliyev Balaqardaş
İsmayılov Həsən
Tağıyev Ağakişi
Abasov Müzəfər
Əhmədov Əhməd
Vəliyev Veysəl
Sadıqov Bayram
Mamedov Yəhya
Rəhimov Şəfi
Həsənov İsmixan
Hacıyev Teymur
Şəfiyev Tapdıq
Quliyev İskəndər
Şıxalıyev Həmid
Söhbətov Eynal
Balayev İsrafil
Kərəmov Aslan
İsmayılov Feyzulla
Mamedov Əli
Əliyev Əhməd

# QƏHRƏMANLIQ TƏCƏSSÜMÜ-MİLLİ DİVİZİYALARIMIZ

1941-ci ilin iyun ayının 23-də SSRİ Ali Soveti Rəyasət Heyətinin "Leninqrad, Baltik yanı xüsusi, Qərb xüsusi, Kiyev xüsusi, Odessa, Xarkov, Oryol, Moskva, Arxangelsk, Ural, Sibir, Volqa ətrafı, Şimali Qafqaz və Zaqafqaziya Hərbi dairələri üzrə hərbi vəzifəlilərin səfərbərliyi haqqında" Fərman imzalandı, SSRİ Konstitusiyasının 49-cu maddəsinə əsasən səfərbərlik elan edildi.

Azərbaycan SSRİ-dən səfərbərliyin ilk aylarında 187 min nəfərdən çox şəxs döyüşən ordu sıralarına göndərildi.

Düşmənin Mozdok qruplaşmasının məhv edilməsi üçün general-leytenant N.Y.Kiriçenkonun başçılığı ilə 4-cü Qvardiya Kuban kazak süvari Korpusu, general-mayor A.Q.Selivanovun başçılığı 5-ci Qvardiya Don kazan süvari Korpusu və 44-cü Ordunun zərbə qrupu cəlb olunmalı idi. Qafqaz cəbhəsində olan ağır vəziyyət nəzərə alınaraq Zaqafqaziya Cəbhəsinin komandanı ordu generalı İ.V.Tyulenevin qərarına müvafiq olaraq Milli diviziyaların formalaşdırılmasına başlanmışdı. Zaqafqaziya cəbhəsinin komandanının qərarı, Azərbaycan xalqının fəal iştirakı, Azərbaycan Respublikasının Partiya təşkilatı və hökumətinin bilavasitə başçılığı ilə 1941-ci il avqustun 26-dan etibarən milli diviziyaların formalaşdırılmasına başlanıldı.

İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq komandanlığın 1941-ci ilin 18 oktyabr tarixli əmrinə əsasən azərbaycanlılardan ibarət 77-ci dağ-atıcı diviziyası,



223-cü milli atıcı, 396-cı milli atıcı, 402-ci və 416-cı milli atıcı diviziyaları yaradıldı və onlar Zaqafqaziya hərbi dairəsində yerləşdirilmiş 44-cü, 45-ci və 46-cı orduların tərkibinə daxil edildilər. Azərbaycanlılardan ibarət diviziyalar İranda SSRİ-nin maraqlarını qorumaq və Almanların Sovet hakimiyyətinə qarşı pozuculuq fəaliyyətinin qarşısını almaq tapşırılmışdı. Vəzifələrinin öhdəsindən layiqincə gələn diviziyalar hərbi vəziyyətlə əlaqədar olaraq qısa müddət ərzində döyüşlərin getdiyi cəbhələrə göndərildilər.

Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci və s. milli diviziyalar Simferopolun, Odessanın və digər şəhərlərin, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad olunmasında fəal iştirak etmiş, 416-cı diviziya Qafqazdan Berlinə qədər böyük döyüş yolu keçmiş,



Berlinin süquta yetirilməsində xüsusi fəallıq göstərmişdir. Polşa və Çexoslovakiyanın faşistlərdən azad edilməsi uğrundakı döyüşlərdə göstərdikləri qəhrəmanlıqlara görə Ziya Bünyadov və digər 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

77-ci Azərbaycan milli diviziyası AXC ordusunun bazası əsasında formalaşdırılmışdır. AXC-nin işğalından sonra bu diviziyanın zabitləri, generalları güllələnmiş, sıravi hissələri isə saxlanmışdı. Sonradan bu diviziya yenidən təşkil edildi və 227-ci diviziyanın tərkibində döyüşlərdə iştirak edirdi. 77-ci milli atıcı diviziya müharibəyə 1941-ci ilin dekabrında 51-ci ordunun tərkibində Kerç Feodosiya desant əməliyyatı ilə başladı. Diviziya Kerç, Taman, Novorossiysk, Mozdok, Mineralni vodı uğrunda gedən döyüşlərdə fərqlənmiş, Simferopolun azad edilməsində göstərdiyi qəhramanlığa görə Suvorov ordeni ilə təltif edilmişdi.

Sevastopolun azad edilməsi uğrunda Sapun-qaradan başlanan döyüşlər 10 gün davam etdi, qələbə bayrağını 1943 -cü ilin 7 mayında serjant Əbdüləziz Qurbanov sancdı. Simferopol şəhəri düşməndən azad edildikdən sonra döyüşlərdə ən fəal iştirak edən 77-ci diviziyaya Simferopol diviziyası" fəxri adı verildi. Bütövlükdə Krımın azad edilməsinə görə diviziyanın 3140 əsgər və zabiti orden, medallara layiq görüldülər. Həmin əməliyyatlarda 77-ci milli diviziyanın rabitə batalyonunun komandiri kapitan İsmayıl İbrahimov xüsusilə fərqləndi. 77-ci diviziya 1944-cü ilin iyul ayından başlayaraq Pribaltikada və Rusiyada gedən döyüşlərdə fəal iştirak etdiyinə görə, onun yüzlərlə əsgər və zabiti orden, medallarla təltif edildi, 8 döyüşçü Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Ümumilikdə 77-ci Simferopol dağatıcı Azərbaycan milli diviziyası döyüş əməliyyatlarına Krımdan başlamış və 11000 kilometrə yaxın məsafəni qət edərək, müharibəni Berlində qurtarmışdı. Diviziyanın döyüş yollarında Heybət Heybətov, Tərlan Əliyarbəyov, Mahmud Əbilov, Məmmədbağır Bağırov, Hacıbaba Zeynalov, Hüseyn Məmmədov kimi generallar yetişmiş və onların hər biri böyük sərkərdəlik məharəti göstərmişlər.

396-cı atıcı diviziya 1941-ci ilin avqustunda İranda 44-cü ordunun tərkibində olmuşdur. Həmin ilin sonunda diviziya respublikanın Quba bölgəsinə gətirilmiş və Şimali Qafqaza göndərilmək üçün hazırlanırdı. Diviziyanın ilk komandiri Q.Korçakov, komandir müavini polkovnik Əsədullayev: komissarı polkovnik Xavər Vəliyev olmuşdur. Diviziyanın şəxsi heyətinin əksəriyyəti azərbaycanlılardan ibarət idi. 1941-ci ilin son günlərində diviziya Krım yarımadasına desant yolu ilə göndərildi və 51-ci Ordunun tərkibinə daxil edildi. 396-cı diviziyanın tərkibində 803-cü, 816-cı, 819-cu atıcı alayları və 957-ci artilleriya alayı (komandir Musa Heybətov)olmuşdur. Digər alayların komandirləri isə polkovnik Abdullayev və polkovnik Əsədullayev idi.

1942-ci ilin may döyüşləri ərəfəsində Krımda 44-cü, 47-ci və 51-ci Sovet Orduları yerləşdirilmişdi. Mayın 7-də, faşist ordusunun geniş miqyaslı hücumları nəticəsində 44-cü Sovet Ordusu hissələri böyük itki ilə geri çəkilməyə məcbur oldular. Bu döyüşdə 396-cı diviziya böyük itki verdi. Gərgin döyüşlərdə 396-cı milli diviziyanın alay və batalyon komandirləri və komissarlarından X.Vəliyev, Y.İsmayılov, Əmirulla Dadaşov (həlak olmuşdur), Ə.Hüseynov, A.Abbasov, K.Ağayev, N.Aslanov, Mehdi Muxtarov, T.Axundov, İ.Əsgərov, Q.Süleymanov döyüşlərdə xüsusilə fərqlənmişdilər. Həmin döyüşdən sonra Sovet hərbi hissələri Krımdan Taman yarımadasına köçürüldülər.



396-cı diviziyanın şəxsi heyəti isə Armavirdən keçərək Tiflisə, oradan da Qubaya (Azərbaycana) göndərilərək, tərtib edilən yeni (223-cü) diviziyanın tərkibinə qatıldı.

223-cü milli atıcı diviziyanın döyüş yolu 1942 -ci ilin yayından Şimali Qafqazdan başlayaraq, Ukrayna və Moldaviyadan, Bolqarıstan, Yuqoslaviya və Macarıstandan Avstriyanın paytaxtı Vyanaya qədər uzanmışdı. Diviziya 1945-ci il mayın 9-da Çexoslovakiyaya daxil olmuş və mayın 12-də Çeski Budlvitse şəhərində Amerika ordusunun hərbi hissələri ilə görüşmüşdü. Diviziyanın əsgər və zabitlərindən 3483 nəfər orden, medallara təltif edilmişdi. 1942-ci ilin fevral ayından 1943-cü ilin iyun ayına qədər Heybət Heybətov diviziyanın komandiri olmuşdu. Onun komandanlığı altında diviziya Mozdokdan Millerova şəhərinə qədər döyüş yolu keçmişdi. General Heybət Heybətov müharibə illərində general rütbəsi almış Həzi Aslanov və Yaqub Quliyev ilə yanaşı üçüncü azərbaycanlı generalıdır. Müharibə illərində həmin diviziyada komandan olmuş 6 nəfərin arasında general Heybət Heybətovun 17 ay komandirlik fəaliyyəti daha zəngindir. Diviziyanın bütün alayları: 1037-ci alay Suvorov ordeninə, 1039-cu alay Kutuzov ordeninə, 1041-ci alay Suvorov və Kutuzov ordenlərinə, 818-ci alay Boqdan Xmelintski ordeninə layiq görülmüşdü. Diviziyanın döyüşçülərindən 2 nəfərinə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.

Tərkibi 90% azərbaycanlılardan ibarət olan 402-ci milli atıcı diviziya 44-cü ordu tərkibində Şimali Qafqazda Terek çayının sağ sahilində Qroznı - Mozdok istiqamətində ağır döyüşlərdə iştirak etmiş və bu döyüşlərdə fərqlənmişdi. Həmin döyüşlərdə 833-cü alayın komandiri mayor Akim Abbasov və 840-cı alayın döyüşçüləri qəhrəmanlıq nümunələri göstərmişdilər.

Komanda heyətinin milli tərkibini gücləndirmək məqsədilə diviziyaya azərbaycanlı komandirlər heyəti göndərildi. Diviziyada siyasi tərbiyə işlərinə respublikadan 300 nəfərdən çox partiya işçisi göndərilmişdi. Görkəmli yaradıcı ziyalılardan Üzeyir Hacıbəyov, Səməd Vurğun, Rəsul Rza, Bülbül, Niyazi Hacıbəyov, Mustafa Topçubaşov, Heydər Hüseynov və digərləri dəfələrlə həmin diviziyada olmuşlar.

416-cı milli atıcı diviziyanın tərkibinin, xüsusi ilə də komanda heyətinin 92%-i azərbaycanlılardan ibarət idi. 1942-ci ilin payızında diviziya Şimali Qafqazda 44-cü ordu, az sonra 58-ci ordu tərkibində Mozdok istiqamətində döyüşlərə başladı. Taqanroq şəhərinin azad edilməsində fəal iştirakına görə, "Taqanroq diviziyası" adına layiq görüldü. 1943-cü ilin iyulundan sonra diviziyaya general mayor Heybət Heybətov komandanlıq etmişdir. Azərbaycan hökumətinin ardıcıl köməyi nəticəsində diviziya müharibənin sonuna qədər öz milli tərkibini saxlaya bildi. Diviziyanın 1368-ci atıcı alayı Qırmızı Bayraq ordeni, 1054-cü topçu alayı Suvorov ordeni, 444-cü əlahiddə topçu divizionu Boqdan Xmelnitski ordeni, 348-ci əlahiddə sanitar batalyonu Qırmızı Bayraq ordeni ilə təltif edilmişdi. Diviziya Qafqazdan Berlinə kimi 2500 km müzəffər döyüş yolu keçmiş, düşmənin 23 minə yaxın əsgər və zabitini məhv etmiş, 5474 nəfər əsir götürmüş, onların istifadəsində olan çoxlu döyüş texnikasını işlək vəziyyətdə qənimət kimi ələ keçirmişdi. Diviziyanın 14396 nəfər əsgər və komandiri SSRİ-nin orden, medalları ilə təltif edilmişdi. Komandir və əsgərlərin bir çoxuna xarici ölkələrin orden və medalları verilmişdi.

416-cı diviziyanın 1945-ci ildəki döyüş fəaliyyəti xüsusilə diqqətəlayiqdir.



Diviziya 1945-ci ilin fevral ayının 3-də Oder çayını keçərək Kyustrin şəhərinin alınmasında iştirak etmişdir. Berlin üzərinə həlledici hücuma başlayan diviziyanın 1373-cü alayı Berlinin müdafiə xəttini yararaq, aprelin 21-də şəhərin kənarına daxil oldu. May ayının 3-də marşal Georgi Jukov başda olmaqla birinci Belarusiya cəbhəsinin hərbi şurasının üzvləri, 416-cı diviziyanın Berlində keçirdiyi döyüş əməliyyatlarının şahidi olmuş, onun xidmətlərinə yüksək qiymət vermişdilər.1945-ci il mayın 2-də diviziyanın bölmələri Brandenburq darvazasına qələbə bayrağı sancdılar.

416-cı milli diviziya İkinci dünya müharibəsi cəbhələrində 30 ay fasiləsiz döyüşlər aparmış, Bakıdan Praqaya qədər 5000 km yol qət etmiş, 6 Avropa ölkəsindən - Rumıniyadan, Bolqarıstandan, Yuqoslaviyadan, Macarıstandan, Avstriyadan, Çexoslovakiyadan və 50-dən çox böyük və orta çaydan keçərək düşmənin 28 hərbi təyyarəsini, 113 tankını və zirehli maşınını, 549 səhra topu-




nu, 311 minomyotunu, 1152 pulemyotunu, 200 avtomaşınını, 219 parovozunu, 7400 vaqonunu, 70 anbarını məhv etmiş, küllü miqdarda qənimət ələ keçirmişdi. 416-cı diviziyanın döyüşçülərindən 8 nəfər Sovet İttifaqı Qəhrəmanı, 11 nəfər "Lenin" ordeni, 358 nəfər əsgər və zabit "Qırmızı Əmək Bayrağı" ordeni, 3 nəfər 2-ci dərəcəli "Kutuzov" ordeni, 47 nəfər "Aleksandr Nevski" ordeni, 540 nəfər 1-ci dərəcəli "Vətən müharibəsi" ordeni, 1.756 nəfər 2-ci dərəcəli "Vətən müharibəsi" ordeni, 5.205 nəfər "Qızıl Ulduz" nişanı, 5.666 nəfər isə "İgidliyə görə" və "Hərbi xidmətlərinə görə" medalı ilə təltif olunur. Ümumiyyətlə, diviziyanın təşkil olunduğu gündən Qələbə günündək 14.369 nəfər müxtəlif orden və medallara layiq görülmüşdür.

Diviziyanın özü Qırmızı Bayraq və II dərəcəli Suvorov ordeni ilə təltif edilmişdir, onun qələbələri şərəfinə Taqonroq şəhərinin yaxınlığındakı Sanbek yüksəkliyində xatirə ansamblı yaradılmışdır, Taqonroqda, Kiyevdə, Nikolayev və Odessa şəhərlərində və Moskvada diviziyaya həsr olunmuş şöhrət muzeyləri təşkil edilmişdir.

# Qələbənin zəhmətkeş qəhrəmanları

İkinci Dünya müharibəsi illəri bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr idi. Azərbaycan xalqının bu müharibədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqları sadalamaqla bitməz.

Azərbaycanın bütün maddi və mənəvi sərvətləri, insan qüvvəsi faşizmə qarşı müharibəyə cəlb olundu. İkinci Dünya müharibəsində həlak olan 57 milyon adamdan 27 milyonu sovet vətəndaşları, onların da 300 min nəfərindən çoxu azərbaycanlılar idi.

Böyük Vətən müharibəsi illərində Azərbaycan xalqı həm cəbhə bölmələrində, həm də arxa cəbhədə böyük qəhrəmanlıq və igidlik nümunələri göstərmişlər. Qısa bir müddətdə respublikada 87 qırıcı təyyarə batalyonu və 1124 özünü müdafiə dəstələri təşkil olundu.

Vətən övladları öz qəhrəmanlığı ilə bizim xalqın şərəfli tarixinə



yeni sətirlər yazdılar. Respublika iqtisadiyyatının cəbhə yoluna keçirilməsi məqsədilə böyük işlər görüldü. Yüngül və yeyinti sənayeləri cəbhə üçün işləməyə başladı. Kiçik bir vaxtda Bakı döyüşən ordunun ən mühüm cəbhəxanasına çevrildi.

Alman komandanlığı Bakı neftinə xüsusi önəm verirdi və Qafqaz uğrunda vuruşlarda əsas məqsəd Bakıda nəzarəti ələ keçirmək idi. Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də, müharibənin əvvəlindən axırınadək fəal iştirak etdi. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev xatırladırdı: “Çoxları indi də deyir ki, əgər Azərbaycan nefti olmasaydı, İkinci Dünya müharibəsində SSRİ-nin İngiltərə-Amerika koaliyasiyası ilə birlikdə alman faşizminə qalib gəlməsi mümkün olmazdı”.

Azərbaycan xalqı Böyük Vətən müharibəsi illərində verdiyi qurbanlara, çəkdiyi iztirab və qarşılaşdığı məhrumiyyətlərə baxmayaraq, düşmən üzərində qələbəni təmin etmək üçün arxa cəhbədə də əzmkarlıq nümayiş etdirmiş, fədakar əmək nümunəsi göstərmiş, cəbhənin hərbi, eləcə də, mülki məhsullarla təminatı işində mühüm rol oynamışdılar. Azərbaycan iqtisadiyyatının az bir vaxt ərzində hərbin tələb etdiyi qaydada yenidən qurulmasının müstəsna əhəmiyyəti var idi. Bunu Ordunun ərzaq məhsulları ilə fasiləsiz təchiz etmək vəzifəsi tələb edirdi. Həmin işin yerinə yetirilməsində respublika sənayesi mühüm rol oynaya bilərdi. Böyük Vətən müharibəsi illərində respublika sənayesi qarşısında duran ən mühüm problemlərdən biri onun ixtisaslı fəhlə kadrları və ümumiyyətlə, əmək resursları ilə təmin edilməsi idi.

İkinci Dünya müharibəsi illərində Baltik dənizindən Qara dənizə qədər uzanmış cəbhənin tələb etdiyi bütün benzinin 80 faizini, sürtkü yağlarının 90 faizini Azərbaycan təmin edirdi.

Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz fədakarlıqla çalışaraq cəbhəni yanacaqla təmin edirdilər. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə hava flotu (aviasiya) benzini almaq üçün yeni texnologiya yarandı. 1941-ci ildə neftçilərimizin fədakar əməyi nəticəsində Azərbaycanın tarixində ən çox 23,5 milyon ton istehsal olundu ki, bu da SSRİ-də istehsal olunan neftin 71.4%-ni təşkil edirdi. Ümumiyyətlə müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 miliyon ton neft, 22 miliyon ton benzin və başqa neft məhsulları vermişlər. Qətiyyətlə demək olar ki, faşizm üzərində qələbənin qazanmasında Bakı nefti əsas amillərdən biri oldu. Bunu demək kifayətdir ki, hər beş təyyarənin, hər beş tankın, hər beş avtomobilin - dördü Bakı benzinilə işləyirdi. Hitler Qafqaza hücuma başlayanda feldmarşal Manşteynə demişdi: “Biz mütləq Bakını tutmalıyıq. Əgər biz Bakı neftini ələ keçirməsək, müharibəni uduzacağıq”.

Müharibə dövründə respublikamızın sənaye müəssisələri qələbə naminə cəbhəni lazımi məhsullarla aramsız olaraq təmin edirdilər. Azərbaycanın yüngül sənayesi cəbhənin ehtiyacları üçün təxminən 30, yeyinti sənayesi 50, yerli sənayesi isə 200 növə qədər məhsul istehsal edirdi. Müharibə illərində yüngül sənaye müəssisələri cəbhə üçün 1419 min şinel, 4.227 min komplekt yay paltarı, 3097 min cüt alt köynəyi, 1977 min cüt ayaqqabı, 1417 cüt komplekt pambıq köynək, 1417 min patron sumkası və s. göndərmişdi. Ümumilikdə, cəbhəyə respublikamızdan 125 vaqon isti paltar yollanılmışdı. Eyni zamanda, ordu üçün respublikamızdan dava-dərman, tibb preparatları və lazımi başqa dərmanlar da göndərilmişdi. Azərbaycan vətəndaşları 1941-1943-cü illərdə müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 311 milyon manatlıq istiqraz vermişdilər.

Böyük Vətən müharibəsi illərində Azərbaycan əməkçiləri ölkə rəhbərliyinin “Hər şey cəbhə üçün, hər şey qələbə üçün!” çağırışına birincilər sırasında qoşulmuşdular. Kənd əməkçiləri gecəni gündüzə qatıb yüngül və yeyinti sənayesini xammalla, cəbhəni və ölkə əhalisini fasiləsiz olaraq ərzaqla təmin edirdilər.

Müharibəyə getmiş kişiləri əmək cəbhəsində əvəz edən qadınlar və qızlar, hətta öz fiziki imkanlarına uyğun olmayan çox ağır peşələrdə də çalışırdılar. Belə bir faktı göstərmək kifayətdir ki, əgər 1941-ci ildə neft sənayesində qadın üçün çox ağır peşə olan qazmaçı peşəsində cəmi 13 nəfər çalışırdısa, 1943-1944-cü illərdə onların sayı 270 nəfərə çatmışdı. Əmək resurslarına yaranmış ehtiyacın ödənilməsi mənbələrindən biri də pensiyaçılar və müharibədə şikəst olmuş əsgərlər idi. Müharibənin ilk iki ilində respublikaya 6300-dən çox, müharibə dövründə isə 36 min nəfər şikəst döyüşçü qayıtmış və iqtisadiyyatın müxtəlif sahələrində çalışmağa başlamışdılar. 1941-1945-ci illər ərzində 19 min nəfərə yaxın əmək veteranı yenidən istehsalata qayıtmış və əmək növbəsində dayanmışdı. Sənaye müəssisələrində işləmək üçün fəhlə kadrların hazırlanması prosesi müharibə illərində bir gün də olsun dayandırılmamışdı. Müharibənin elə ilk ilində peşə və fabrik-zavod məktəblərində oxumaq üçün respublikanın şəhər və kəndlərindən 10 min nəfər yeniyetmə səfərbər olunmuşdu. Həmin məktəblər 1941-1945-ci illərdə respublikanın sənaye sahələrində işləmək üçün 7 min 300 nəfər ixtisaslı fəhlə hazırlamışdı. Hazırlıq kursu keçənlərin içərisində qadınların da sayı az deyildi. Sənaye sahələri içərisində cəbhə üçün ən əhəmiyyətlisi, əlbəttə, neft sənayesi idi. Daxiliyanma mühərrikləri əsasında işləyən bütün hərbi texnika - təyyarə, tank, avtomobil üçün yeganə enerji növü kimi, habelə bir sıra başqa hərbi sursat istehsalı üçün yanacaq kimi neftin və onun məhsullarının çox böyük strateji əhəmiyyəti var idi; qələbəni təmin edə biləcək həlledici amillərdən birinə çevrilmişdi. O, cəbhə üçün hərbi texnikanın özü qədər vacib idi. Çünki müharibə “motorlar müharibəsi” idi. Yanacaqsız hərbi texnika, obrazlı deyilərsə, “metal yığımı”ndan başqa bir şey ola bilməzdi. Aparılmış hesablamalar göstərmişdir ki, ikinci dünya müharibəsi zamanı arxa cəbhədən bilavasitə döyüş meydanlarına göndərilən hərbi təyinatlı sursatın yarısı neft məhsulları olmuşdu. Böyük Vətən müharibəsi ərəfəsində təyyarə benzininin 80 faizi, ağ neft və liqroinin 90 faizi, müxtəlif sürtkü yağlarının 95 faizi Azərbaycanın payına düşürdü.

1941-ci ildə Rostovdan gətirilən avadanlıq əsasında Bakıda rezin məmulatları fabriki işə düşdü. Neft sənayesi



müəssisələri üçün mallar, habelə Zaqafqaziya cəbhəsi komandanlığının tapşırığı ilə yandırıcı şüşələr üçün halqa istehsalına başlandı.

Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq Azərbaycanın maşınqayırma zavodları neft avadanlığı ilə yanaşı, müxtəlif döyüş sursatı, silah, habelə hərbi texnika üçün ehtiyat hissələri istehsal etməyə başladı; maşınqayırma zavodları cəbhənin tələblərinə müvafiq olaraq öz işlərini tamamilə yenidən qurmalı oldular. Çox çətin bir şəraitdə maşınqayıranlar əsl əmək rəşadəti göstərir, yüksək vətənpərvərlik nümayiş etdirirdilər. Zavodlarda bir tərəfdən neft sənayesi üçün zəruri olan neft-mədən avadanlıqları, digər tərəfdən isə cəbhə üçün hərbi ləvazimat istehsal olunurdu. Müharibə illərində yüngül sənaye müəssisələri tərəfindən tibbi təyinatlı tənzif, ipək parçanın xüsusi növləri, rəsmi geyimlər (əsgərlər üçün), cərrahiyyə əməliyyatlarında işlədilən ipək saplar, əsgər şinelləri tikmək üçün xüsusi növ mahud parça və s. istehsalı xeyli genişləndirilmişdi. Respublikanın yerli sənaye müəssisələri əhali üçün çox işlənən mallar istehsalı ilə bərabər, cəbhənin ehtiyaclarını ödəmək üçün də məhsullar hazırlayırdı. Belə məhsullardan hərbi xəstəxanalar üçün mebel və əsgərlər üçün alt paltarı, yanğınsöndürən vasitələr, hava hücumundan müdafiə sığınacaqları üçün ləvazimat istehsal edir, əsgərlər üçün üst paltarı tikirdilər. Yerli sənaye müəssisələri tərəfindən yerli xammaldan və istehsal tullantılarından istifadə etməklə əhalinin və əsgərlərin ehtiyacını ödəyən məhsullar da istehsal olunurdu. 1941-1945-ci illərdə respublika sənayesinin normal işinin təmin edilməsində elektroenergetika sənayesinin də xüsusi rolu olmuşdur.

Müharibə illərində ABŞ və İngiltərədən, sonralar isə Kanadadan SSRİ-yə 400 min avtomobil, 2,6 mln ton neft və neft məhsulları, 9,6 min top, 10,8 min tank və 18,7 min təyyarə göndərmişdilər ki, bunlar da Azərbaycan dəmir yolu nəqliyyatı vasitəsilə təyinat yerlərinə çatdırılmışdı.

Görkəmli dövlət xadimi N.Voznesenski yazırdı: "Sovet Bakısı arasıkəsilmədən cəbhəni və SSRİ xalq təsərrüfatını neft məhsulları ilə təmin edirdi və yüzlərlə motoru havada və yerdə hərəkətə gətirirdi".

Marşal G.K.Jukov yazırdı: "Bakı neftçiləri cəbhəyə və ölkəyə vətənimizin müdafiəsi üçün, düşmən üzərində tezliklə qələbə üçün nə qədər lazım idi, o qədər də yanacaq vermişdilər".

İkinci Dünya müharibəsində Azərbaycanın xidmətlərini yüksək qiymətləndirən siyasi xadim Nikolay Baybakov deyirdi: “Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməyib. 40-cı illərdə SSRİ-də çıxarılan 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü”.

Dünya müharibəsi başlananadan 22 ay sonra - 22 iyun 1941-ci ildə - SSRİ-nin cəlb olunduğu və 1418 gün davam edən Böyük Vətən müharibəsi keçmiş sovetlər ölkəsi xalqlarının Vətənə məhəbbət və güclü beynəlmiləlçilik hissinin nümayişinə çevrildi. Bu müharibədə qazanılmış Böyük Qələbə isə insanların həm ön, həm də arxa cəbhədəki kütləvi qəhrəmanlıqlarının məntiqi nəticəsi idi. Bir sözlə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində Azərbaycan xalqı daha çox itkilərə və hədsiz məhrumiyyətlərə məruz qalmış, düşmən üzərində qələbə qazanılması üçün özünün var qüvvəsini əsirgəməmişdir.

Azərbaycan xalqı faşistlərlə ölüm-dirim müharibəsi aparan ölkədə ön və arxa cəbhənin yanacaq, silah, sursat, ərzaq, geyim, tibb ləvazimatı və s. strateji mallarla təmin olunmasına öz layiqli töhfəsini vermişdi. Neft Bakısının Sovet ordusunun alman faşizmi üzərində qələbə çalmasında müstəsna, həlledici rolu olmuşdur.

# AZƏRBAYCAN ELMİ VƏ İNCƏSƏNƏTİ - QƏLƏBƏNİN TƏMİNATÇISI

Azərbaycan ziyalıları müharibənin ilk günlərindən bütün səy və yaradıcılıq fəaliyyətlərini qəsbkar faşist Almaniyasına qarşı mübarizəyə, azadlığın, humanizmin, tərəqqinin, sivil cəmiyyətin qorunmasına yönəltdilər. SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı, respublikanın elmi-tədqiqat müəssisələri, yaradıcı cəmiyyətlər, ali məktəblərin kafedraları öz işlərini müharibənin tələblərinə uyğun qurmağa başladılar. Kompleks elmi tədqiqatlar aparılması, istehsalatla canlı və sıx əlaqə cəbhəyə, hərbi təsərrüfata xidmət edən proseslərin təkmilləşdirilməsinə, yerli xammal əsasında müdafiə əhəmiyyətli strateji məhsullar, yüksək keyfiyyətli yanacaq növləri yaradılmasını sürətləndirməyə kömək edən yeni elmi istiqamətlərin, mövzuların işlənməsi elmi kollektivlərin fəaliyyətinin əsasını təşkil edirdi. Azərbaycan alimləri zirehli texnikaya qarşı top gülləsi, özüidarəolunan bombalar, tanka qarşı elektrik minaları, çoxpilləli minalar, silahı və hərbi sursatı pas atmaqdan qoruyan vasitələr hazırlamış, əl bombaları səthinin sinkləndirilməsi və elektrik qalaylanması haqqında təkliflər irəli sürmüşdülər. Poladı, çuqunu duru yanacaqda əritməyə imkan verən texnologiya hazırlanmış və bunun nəticəsində kənardan əla növ daş kömür, koks və termoantrasit gətirməyə ehtiyac qalmamışdı.



Azərbaycan alimlərinin qabaqcıl üsulları Zaqafqaziyanın poladəritmə zavodlarında da tətbiq edilirdi. Respublikanın kimyaçı alimləri Bakı sulfat turşusu zavodunda yerli xammal və materiallardan akkumulyator turşusu, həmçinin xlorlu sulfat, azot turşusu almışdılar. Yerli material və xammaldan istifadə edərək hidrogen, perozin, reaktiv toluol, bərk partlayıcı material, odadavamlı rəng və qara lak, odsöndürən vasitə, tüstü briketi və başqa məhsullar istehsalı texnologiyası istehsalata tətbiq olunmuşdu.

1941-ci ilin yayında Bakıda ilk hidrogen birləşmələri qrupu hazırlandı. Y.H.Məmmədəliyevin başçılığı altında bir qrup alim 28 gün laboratoriyadan çıxmayaraq, neft-kimya elmində böyük hadisə olan yüksək oktanlı aviasiya yanacağı əldə etdi. Akademik Y.H.Məmmədəliyevin sədrliyi ilə EA-nın Azərbaycan filialında görkəmli Azərbaycan alimləri R.H.İsmayılov, H.X.Əfəndiyev, Ə.M.Quliyev, H.B.Şahtaxtinski, V.S.Qutırya, M.A.Dalin, S.C.Mehdiyev, Ş.A.Məmmədov, V.F.Neqreyevdən ibarət SSRİ Mərkəzi Elmi-Texniki Şurasının kimya problemləri üzrə bölməsi yaradıldı. Neft emalı müəssisələrində yeni texnoloji proseslər hazırlayan 75 laboratoriya fəaliyyət göstərirdi.

Akademik Ə.M.Quliyev kəşf etdiyi partlayıcı maddəni sınaqdan keçirərkən baş vermiş partlayış nəticəsində bir qolunu itirmişdi. Akademik İ.A.Orucovanın başçılığı altında Azərbaycan kimyaçıları təyyarə, tank və müxtəlif hərbi maşınlar üçün sürtkü yağları istehsalı texnologiyasını hazırlayıb istehsalata tətbiq etmişdilər. Azərbaycan alim və mühəndisləri yeni metalkəsən dəzgahlar hazırlamışdılar. Neft maşınqayırma zavodunda K.Əliverdizadə soyuq ştamplama üsulu hazırlamış və onu istehsalata tətbiq etmişdi. Bu, silah istehsal edən müəssisələrdə fəhlələrin əməyini yüngülləşdirmiş, əmək məhsuldarlığını artırmışdı. İ.Mehdiyevanın hazırladığı avtomat qurğu silah istehsalı prosesini xeyli sadələşdirmiş, məhsulun keyfiyyətini yaxşılaşdırmışdı. Azərbaycanın geoloq alimləri Mirəli Qaşqayın və Şamil Əzizbəyovun rəhbərliyi ilə strateji xammal - odadavamlı gil, fosforit və s. yataqları aşkar edilmişdi. "Azneft" geoloqları tərəfindən aparılmış kəşfiyyat işləri sayəsində daha 850 yüksək debitli neft mənbəyi müəyyənləşdirilmiş, 6 neft yatağı - "Qala", "Bulla-dəniz", "Buzovna", "Maştağa", "Naftalan", "Əmirxanlı" neft yataqları kəşf olunmuş, onlardan dördünün işlənməsinə başlanmışdı. "Qobustan" neft rayonunda "Duvannı" qaz yatağı aşkar edilmişdi. Utalgi yatağında yeni neft və qaz ehtiyatları müəyyən olunmuşdu.

Stratiqrafik yataqların aşkar olunması Azərbaycan geologiya elminin böyük uğuru idi. Şərqi Abşeronda, Qala stansiyası sahəsində "Qala lay dəstəsi" adlanan yeni zəngin neft yatağı kəşf edilmişdi. "Suraxanı" və "Qaraçuxur" yataqlarında da belə laylar aşkar olunmuşdu. Kürətrafı ovalıqdakı "Pirsaat", "Xıdırlı", "Bəndovan", "Babazənən", "Xıllı", "Neftçala" və digər strukturlarda neft yataqlarının yaranması üçün əlverişli olan dördqırışlı geoloji sistem kəşf edilmişdi. Geoloqların təklifi ilə sement, həmçinin xüsusi istiburaxmayan materiallar istehsalında vulkan külü işlənilməyə başlanmış, kəşf edilmiş mineral rəngləyicilərdən hərbi və yerli sənayedə geniş istifadə olunmuşdu.

Respublikanın fizika alimləri hərbi təşkilatların bir sıra vacib sifarişlərini müvəffəqiyyətlə yerinə yetirmişdilər: neft koksundan elektrik avadanlığı üçün material və fosforlu rənglər alınmış, neft, neft məhsulları üçün xüsusi analiz, neft kəşfiyyatında termik üsul təklif və tətbiq edilmişdi. Fiziklərin iştirakı ilə respublikada şüşə izolyatorlar təşkil olunmuş, fosforlu rəngləri gecə iş vaxtı neft sənayesinə tətbiq etməyin texnologiyası hazırlanmışdı. Soyuducu qurğularda istifadə edilən ammiaklı qaz respublikada istehsal olunan propanla əvəzlənmişdi. Neft quyularının ikinci istismarı və neft hasilatını artırmaq, təmizləyici aparatları hərəkətə gətirən və borularda sürtünməni aşkar edən alətlərin tətbiq olunması sahəsində energetiklərin irəli sürdüyü təkliflər böyük hərbi və təsərrüfat əhəmiyyəti kəsb edirdi. Energetiklərin səmərələşdirici təklifləri duru yanacaq istehsalında itkini xeyli azaltmışdı.

Bioloq alimlər Azərbaycan ərazisində bitən dərman bitkilərinin, vitaminlə zəngin təbii çöl meyvələrinin aşkar olunmasında fəal iştirak edirdilər. Onların köməyi ilə Göyçayın yağ zavodunda ardıc kolundan efir yağı alınırdı.

Həmin illərdə Mustafa bəy birbirinin ardınca ağır cərrahiyyə əməliyyatları aparıb və minlərlə yaralı döyüşçünü ölümdən xilas edərək həyata qaytarıb. Onun başçılıq etdiyi klinikada müasir cərrahlıq problemləri - öd yolları xəstəliklərinin, xərçəngin cərrahi müalicəsi, travmatologiya məsələləri, bərpa cərrahlığı və s. xəstəliklər üzrə daimi axtarışlar aparılıb, yeni təkliflər irəli sürülüb.

Mirəsədulla Mirqasımovda həmçinin II Dünya müharibəsi vaxtı xeyli insanı ölümdən xilas edən və xüsusi üsullarla tibbi kəşflərə imza atan, bununla da müharibənin taleyinə təsir edənlərdən biri də akademiyanın ilk prezidenti və Azərbaycanın ilk cərrahı Mirəsədulla Mirqasımovdur. O, müharibə illərində arxa cəbhə hospitallar şəbəkəsini yaradır və ona rəhbərlik edir. Bu şəbəkənin səyi nəticəsində bir çox insan xilas edilir və yenidən cəbhəyə yollanılır. Akademik həkim bu xidmətlərinə görə "Qırmızı ulduz" nişanına layiq görülür.

İctimai və humanitar elmlər sahəsində çalışan alimlər xalqın qəhrəmanlıq tarixindən, döyüş ənənələrindən bəhs edən əsərlər yaratdılar. 1943-cü ildə H.Hüseynov və M.Dadaşzadənin redaktəsi ilə "Azərbaycan ədəbiyyatının qısa tarixi" nəşr edildi.



Müəllimlərin əlli faizi orduya səfərbər olunmuşdu. Məktəb binalarının əksəriyyəti, xüsusən Bakıda, hospitallara və müdafiə müəssisələrinə verilmişdi. Məktəblər iki-üç növbəli iş rejiminə keçirilmişdi. Ali məktəb və texnikum tələbələrinin yarıdan çoxu ordu sıralarına çağırılmışdı. İxtisaslı kadrlar qısaldılmış proqramla hazırlanmağa başlanmış, ali məktəblərdə təhsil müddəti azaldılmışdı. Ali məktəb tələbələrinin, yuxarı sinif şagirdlərinin hərbi-fiziki hazırlığı, tələbələrin kənd təsərrüfatı işlərində iştirakı kütləvi xarakter almışdı.

Xalq artisti Bülbül, bəstəkarlar C.Cahangirov, Səid Rüstəmov, Niyazi və b. ardıcıl olaraq cəbhəyə gedirdilər. 1942-ci ilin iyununda S.Vurğun, O.Sarıvəlli, M.Rahim, R.Rza, Ə.Vəliyev, Z.Xəlil və İ.Əfəndiyev 416-cı, 402-ci və 223-cü Azərbaycan diviziyaları ilə görüşə getmişdilər. M.İbrahimov və M.C.Paşayev 1942-ci ilin sentyabrında Uzaq Şərqdəki qızıl ordu hissələrinə yollanan nümayəndəliyin tərkibinə daxil edilmişdilər. 1942-ci ilin payızında Qafqaz uğrunda gərgin döyüşlər getdiyi günlərdə də S.Vurğun, S.Rüstəm, M.Rahim, R.Rza, M.Hüseyn, Z.Xəlil, M.Əkbər, Ə.Məmmədxanlı ön cəbhələrdə, əsgərlərin yanında idilər. M.Rahim, S.Rüstəm, O.Sarıvəlli, Z.Xəlil, T.Əyyubov və başqaları uzun müddət Sevastopol və Kerçdə cənub cəbhəsi döyüşçüləri arasında səngərlərdə olmuşdular. 1941-ci il iyunun 23-dən 1943-cü ilin əvvəllərinədək incəsənət işçiləri hərbi hissələrdə 19261 konsertlə çıxış etmişdilər. Müharibə illərində Azərbaycan artistləri hərbi hissələrdə ümumilikdə 35 min konsert vermiş, Bakı teatrları və konsert təşkilatları təşviqat məntəqələrində, hospitallarda və kənd rayonlarında 15 min dəfədən artıq çıxış etmişdilər.

Bu dövrdə "Vətən oğlu", "Bəxtiyar", "T-9 sualtı qayığı" filmləri daha populyar idi. Cəbhəyə xidmət üçün 67 səyyar kino qurğusu, 42 kino dəzgahı göndərilmişdi. Azərbaycan teatrlarında S.Vurğunun "Fərhad və Şirin", M.Hüseynin "Nizami", M.İbrahimovun "Məhəbbət", Z.Xəlilin "İntiqam", R.Təhmasibin "Aslan yatağı", S.Axundovun "Çətin dərə", K.Simonovun "Rus adamları", A.Korneyçukun "Cəbhə" pyesləri, gənc bəstəkarlar Q.Qarayev və C.Hacıyevin "Vətən" operası tamaşaya qoyulmuşdu.

Müharibənin ilk günlərindən rəssam briqadaları yaradılmışdı. İ.Axundovun rəhbərliyi ilə Q.Xalıqov, M.Nəcəfov, S.Salamzadədən ibarət rəssam briqadası 1941-ci il iyunun 25-dən iyulun 12-dək 13 siyasi plakat hazırlamışdı. "Döyüşkən karandaş" məcmuəsi buraxılırdı.

Böyük Vətən müharibəsində cəbhəyə və ölkə iqtisadiyyatına xidmət və qayğı göstərməklə Azərbaycan xalqı, öncə onun ziyalıları sovet ordusunun alman faşizmi üzərində qələbəsinə mühüm töhfə vermişlər.

Qeyd edək ki, AMEA-nın Prezidenti akademik Akif Əlizadənin və Georgi Zapletinin yazdığı "Vətənə və elmə xidmət etdilər " adlı kitabında müharibə vaxtı xüsusi fəaliyyət göstərən Azərbaycan alimlərinin adları çəkilir. Həmin alimlər arasında Azərbaycanın görkəmli şəxsiyyətləri - Səməd Vurğun, Üzeyir Hacıbəyli, Ziya Bünyadov, Həsən Əliyev, Yusif Məmmədəliyev, Mustafa Topçubaşov və digərləri barədə məlumatlar yer alıb.

Kitabda qeyd edilir ki, Azərbaycanın 100-dən çox alimi SSRİ-nin orden və medalları ilə təltif edilib. 7 Azərbaycan alimi dövlət mükafatına, 50 elmi işçi "Azərbaycanın əməkdar elm və texnika xadimi" fəxri adına layiq görülüb.

1941 - 1945
AZƏRBAYCAN VETERANI

***Döyüş də bir sənətdir. Tamaşanın müvəffəqiyyəti səhnədə hər kəsin öz rolunu vaxtında ifa etməsindən asılı olduğu kimi, döyüşün də müvəffəqiyyəti hər hissənin öz vəzifəsini vaxtında "ifa"etməsindən asılıdır. Bu işi də təşkil etmək başlıca olaraq komandirin öhdəsinə düşür.***

***general-leytenant Əliağa Şıxlınski***









### *Əliyarbəyov Tərlan Abdulla oğlu (1)*

1895-ci ildə Şamaxıda anadan olan Tərlan Əliyarbəyov 1988-ci ildə səkkiz illik şəhər məktəbini bitirdikdən sonra 1911-ci ildə Tiflisə gedib Mixaylovski hərbi məktəbinə daxil olur. 1911-ci ildə Qafqaz alayının əlaçı əsgəri T.A.Əliyarbəyovu Tiflisdəki piyada hərbi məktəbinə oxumağa göndərirlər. Dörd illik kursu müvəffəqiyyətlə keçən istedadlı həmyerlimiz hərbi məktəbi birinci dərəcəli diplomla bitirir və Şamaxıdakı 205-ci piyada alayında xidmət etməyə başlayır. 1914-cü ilin yayında I Dünya Müharibəsi başlandı. T.A.Əliyarbəyovun xidmət etdiyi 205-ci alayı da Qərb cəbhəsinə göndərildi. Od-alov yağan səngərlərdə gənc zabitin çətin sınaq günləri başlandı. Komandirinin verdiyi tapşırıqları yerinə yetirən bölük komandiri olan T.A.Əliyarbəyovu tabor komandiri kimi məsul vəzifəyə təyin etdilər.

1918-ci ilin avqustunda AXC Ordusuna çağırılan T.A.Əliyarbəyov 2-ci alay komandirinin köməkçisi təyin edildi. 1927-ci ildə Frunze adına Hərbi Akademiyada Ali Komanda kursunu bitirdikdən sonra Bakıya qayıdan T.A.Əliyarbəyov hərbi istedadını milli hərbi kadrların yetişdirilməsinə sərf etmişdi.

Böyük Vətən Müharibəsi başlananda polkovnik Tərlan Əliyarbəyov 416-cı atıcı diviziyanın komandir müavini, 3 ay sonra isə komandiri təyin edildi.

Sonra 79-cu, 88-ci alaylara, 402-ci atıcı diviziyaya başçılıq edən və 58-ci Korpusun komandir müavini kimi məsul vəzifələrdə çalışan Tərlan Əliyarbəyov özünün komandirlik bacarığı sayəsində hissələrdə böyük nüfuza və hörmətə malik idi.

Müharibə illərində Əliyarbəyovun döyüş xidmətlərini yüksək qiymətləndirən Sovet hökuməti onu 1944-cü il fevralın 9-da general-mayor rütbəsi ilə təltif etmişdir.

1955-ci ildə vəfat edən generalın xidmətləri "Qırmızı Bayraq", "Qırmızı Ulduz" ordenləri və çoxlu medallarla təltif olunub.

### *Zeynalov Hacıbaba Məmməd oğlu (2)*

Hacıbaba Məmməd oğlu Zeynalov 1906-cı ildə qədim Gəncədə dünyaya gəlib. 1923-cü ildə hərbçi olmaq arzusu ilə Bakıya gəlir, gənc komandirlər məktəbinə qəbul olunmuşdur. Təhsilini başa vurduqdan sonra Serqo Orconikidze adına Azərbaycan atıcı diviziyasının ikinci dağ nişançı alayına taqım komandiri təyin edilir. Az bir vaxtda rəhbərlik onu alayın rabitə rəisi vəzifəsinə təyin edir.

1939-cu ildə M.V.Frunze adına hərbi akademiyanı əla qiymətlərlə başa vuran Hacıbaba məşhur general leytenant Əliağa Şıxlınskinin mühazirələrini dinləmişdir.

1942-ci ilin payızında Bakı neftinə can atan hitlerçilər Şimali Qafqazın şəhər və kəndlərini müharibə alovlarına bürümüşdülər. Polkovnik Hacıbaba Zeynalov 416-cı diviziyanın qərargah rəisi idi. O burada özünü hərbi təcrübəyə, yüksək döyüş qabiliyyətinə, gözəl təkilatçılıq məharətinə malik sərkərdə kimi göstərdi. Zaqafqaziya Cəbhəsini 396-cı



atıcı diviziyasında xüsusi şöbə rəisi, 402-ci Azərbaycan Atıcı Diviziyasında komandir kimi məsul vəzifələrdə çalışan polkovnik Hacıbala Zeynalov Azərbaycan xalqının adına layiq olduğunu bir daha təsdiq etdi. Mozdok uğrunda döyüşlərdə göstərdiyi qəhrəmanlıq və hərbi bacarığına görə o, " Qırmızı Bayraq" ordeni ilə təltif olunmuşdur.

Müharibədən sonra general Zeynalov korpus komandirinin müavini, sonralar 402-ci Azərbaycan Atıcı Diviziyasının komandiri olmuşdur.

1956-ci ildə onun misilsiz xidmətləri nəzərə alınaraq ona general-mayor rütbəsi verilib. Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəisi işləyən istedadlı komandir bacarıqlı, yüksək ixtisaslı, vətənin keşiyində ayıq-sayıq dayanan zabitlər yetişdirirdi.

### *Mahmud Əbdülrza oğlu Əbilov (3)*

Mahmud Ədülrza oğlu Əbilov 1898-ci ildə Qusar rayonunun Uxur kəndində anadan olub. O, 1920-ci ildən Qızıl Ordu sıralarında qulluq edib. 1921-ci ildə "Vistrel" kursunu bitirdikdən sonra Nijni Novqorod şəhərində yerləşən 17-ci Nijni Novqorod Diviziyasının 49-cu atıcı alayına taqım komandiri vəzifəsinə təyin olunub. 1924-cü ildə isə Bakı şəhərində yerləşən 77-ci atıcı diviziyasının divizion məktəbinə taqım komandiri təyin olunub. 1938-ci ildə Uzaq Şərqin Xasan gölü ətrafındakı hadisələrdə iştirak edən Mahmud Əbilov 1941-ci ilə qədər orada xidmətini davam etdirir və bu xidmətlərinə görə polkovnik rütbəsinə layiq görülür.

1945-ci ilin mart ayında ona general-mayor rütbəsi verilir. Əbilov müharibədə göstərdiyi şücaətlərə görə "Lenin", 5 dəfə "Qırmızı Bayraq", Polşa Respublikasının "5-ci dərəcəli Virtuti-Militari" ordenləri ilə təltif edilib.

Müharibə qurtardıqdan sonra o, Belarusiya Hərbi dairəsinin Borisov şəhərində yerləşən 41-ci Atıcı Korpusun komandir müavini vəzifəsinə təyin edilir. Əbilov 2 dəfə Naxçıvan MR Ali Sovetinin deputatı seçilib. Ehtiyatda olan general-mayor Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur.

### *Yusif Mirzə oğlu Abdullayev (4)*

Yusif Mirzə oğlu Abdullayevin həyatı vətənə və hərbi vəzifəyə sadiqliyin parlaq nümunəsidir. 1920-ci ildə o, gənc yaşlarında Sovet Ordusunda xidmətə başlayıb. İki ildən sonra hərbi məktəbi bitirib və 77-ci Azərbaycan atıcı diviziya-



sında – birinci Milli hərbi birləşmədə xidmət etməyə başlamışdır. Taqım komandirliyindən təlim taborunun komandirinə kimi yüksəldi.

1933-cü ildə Abdullayev M.V.Frunze adına Hərbi Akademiyanı bitirir. Sonra Orta Asiyada hərbi xidmətdə olur, daha sonra yenidən Silahlı Qüvvələrin Baş Qərargah Akademiyasında təhsil alır. Axırıncı kurs da olduğu vaxt Böyük Vətən müharibəsi başlayır. Akademik hərbi təhsilə və uzunmüddətli komandaqərargah xidməti təcrübəsinə malik olan Abdullayev artıq 1941-ci ilin iyununda Şimal Qərb Cəbhəsi komandanının sərəncamında idi. Vətən Yusif Abdullayevin hərbi şücaətini və xidmətini layiqincə qiymətləndirmişdir. O, "Lenin", üç "Qırmızı Bayraq", II dərəcəli Suvorov , II dərəcəli Kutuzov ordenləri və bir sıra döyüş medalları ilə təltif olundu.

### *Heybət Heybətov (5)*

Böyük Vətən müharibəsi qəhrəmanı Heybət Heybətov 1898-ci ildə anadan olmuşdur.

1920-ci ilin oktyabr ayında orduya çağırılan gənc Heybət Heybətov nümunəvi əsgər kimi xidmət edir. O, Bakıdakı Birləşmiş Azərbaycan Hərbi Məktəbinə təhsil almağa göndərilir. 1922-ci il yanvarın 1-də məktəbi bitirir və atıcı diviziyasına vzvod komandiri təyin olunan gənc Heybət Heybətov üç il burada, birinci atıcı "Dəmir alayı"nda xidmət edir və hərbi biliyi, bacarığı sayəsində rota komandiri vəzifəsinə qədər yüksəlir. 1929-cu ilin oktyabr ayında təhsilini artırmaq üçün Moskvaya, M.Frunze adına Hərbi Akademiyaya təkmilləşdirmə kursuna oxumağa göndərilir. Təhsilini müvəffəqiyyətlə başa vuran Heybət Heybətov Azərbaycana qayıdır. Birinci atıcı "Dəmir alayı"nda qərargah rəisi, alay hərbi məktəbinin rəisi, Dağ-atıcı diviziyasının komandiri kimi məsul vəzifələrdə çalışır. 1939-cu ilin avqust ayında bacarıqlı komandir Heybətov Orlov Hərbi Dairəsində hərbi nəzarət qrupunun rəisi təyin olunur. Az müddət bu vəzifədə müvəffəqiyyətlə çalışan Heybət Heybətov həmin dairədə yerləşən 641-ci atıcı alayının komandiri olur. Böyük Vətən müharibəsi başlayanda isə o, Cənub cəbhəsindəki 347-ci atıcı diviziyanın komandir müavini təyin olunur. 1942-ci ilin fevral ayında Zaqafqaziya Hərbi Şurasının çağırışı ilə Azərbaycana qayıdır. 223-cü Azərbaycan atıcı diviziyasının komandiri olur.

1943-cü ilin yayında ona general-mayor rütbəsi verilir. Heybət Heybətov "Lenin" ordeni, II dərəcəli Suvorov ordeni, Qırmızı bayraq ordeni, II dərəcəli Boqdan Xmelinski ordeni, I dərəcəli Vətən Müharibəsi ordeni, II dərəcəli Kutuzov ordeni və bir çox medallarla təltif olunmuşdur.

### *Akim Əli oğlu Abbasov (6)*

Akim Abbasov 1911-ci ildə Zəngəzur qəzasının Ərikli kəndində anadan olmuşdur. 1927-ci ildə Zaqafqaziya hərbi hazırlıq məktəbinə daxil olmuşdur. 1932-ci ildə 77-ci dağ-atıcı diviziyada taqım komandiri təyin edilir. Bir müddətdən sonra isə 4-cü dağ-atıcı alayının komandiri olur. 1938-ci ilin əvvəllərində Naxçıvana qayıdır. 1940-cı ildə 76-cı atıcı diviziyaya göndərilir. 207-ci atıcı alayın komandiri vəfat etdikdən sonra alayın idarəsini öz üzərinə almış və alaya Şoloxov istiqamətində ki, əks-hücumda komandanlıq etmişdir. Hərbi əməliyyatı uğurla yerinə yetirdiyinə görə mayor hərbi rütbəsinə layiq görülmüşdür. 1942-ci ilin mart ayında Şimali-Qafqaz cəbhəsinin komandanlığına göndərilmişdir harada ki, 34-cü kursant briqadasının komandanlığını qəbul etmişdir. Bir aydan sonra isə Zaqafqaziya cəbhəsinin komandanlığına göndərilərək 402-ci Azərbaycan atıcı diviziyasında əməliyyat şöbəsinin rəisi təyin edilir. Qeyd edək ki, o, Respublika Avtomobil nazirinin müavini, Sülhü Müdafiə Şurası sədrinin müavini kimi məsul vəzifələrdə çalışmış, uzun müddət Müharibə Veteranları Komitəsinə rəhbərlik etmişdir.

### *Əli Nağı Məmmədhəsən oğlu Hüseynov*

1900-cü ilin mayın 5-də Salyan şəhərində anadan olub. AXC ordusunun tərkibində olan 6 aylıq yunker məktəbində təhsil alıb. 1918-ci ilin dekabrından 1919-cu ilin sonuna kimi AXC ordusunun 4-cü Quba alayında sıravi əsgər kimi xidmət edib. 1920-ci ilin aprelindən 1920-ci ilin sentyabrına kimi Bakıda Azərbaycan Birləşmiş Məktəbinin kursantı olub. 1920-cı ilin sentyabr ayından – 1921-ci ilə kimi Bakı şəhərində 2-ci Suvari Sərhəd Briqadasında eskadron komandiri olub.

Böyük Vətən Müharibəsi başladığı gündən döyüşmüş, müharibənin ilk ilində 2-ci "Qırmızı Bayraq" ordeninə layiq görülmüşdür. Müharibənin gedişində yaralanmış və hospitalda müalicəsi tam başa çatmamış milli diviziyaların təşkili məqsədi ilə SSRİ hərbi naziri tərəfindən 402-ci Azərbaycan Milli atıcı diviziyasına komandir təyin edilmişdir.

Şimali Qafqaz döyüşündən sonra polkovnik Ə.Hüseynov I Belarusiya Cəbhəsində döyüş yolunu davam etdirərək Almaniyaya daxil olmuş və orada cəbhənin hərbi şurası, general-leytenant K.F.Teleqin, qarnizon rəisi və Berlinin birinci hərbi komendantı, Sovet İttifaqı Qəhrəmanı general-polkovnik İ.E.Berzarinin əmrilə Şnaydeyn şəhərinə komendant təyin edilir. Hüseynov "Lenin", "Qırmızı Bayraq", "Qırmızı Ulduz" ordenləri və müxtəlif medallarla təltif edilmişdir. Onun təhsil aldığı Salyan məktəbinə və yaşadığı küçəyə adı verilmişdir.

# Ziya Bünyadov-əbədiyaşar qəhrəman

Ziya Bünyadovun hərbçi olmaq istəyi yox yerdən yaranmamışdı. Sonralar Azərbaycanın görkəmli şərqşünas alimi olacaq Ziya 1923-cü ildə Astarada hərbçi ailəsində dünyaya gəlmişdi.

Onun atası Musa Bünyadov ataman Lyaxovun rəhbərlik etdiyi kazak diviziyasında hərbi tərcüməçi olmuşdu. Buna görə Ziya uşaqlıqdan ərəb dilində danışa bilir, Quran oxuyurdu.Yəqin onilliklər sonra Quranı Azərbaycan dilinə çevirərkən bu da karına gəlmişdi.

Orta məktəbi bitirəndən sonra 16 yaşlı Ziya aviasiya məktəbinə daxil olmaq arzusu ilə Bakıya gəlir. Amma tibbi komissiyadan keçmədiyi üçün sənədlərdə yaşını artırıb (2 yaş) Orconikidze adına Hərbi Piyadalar Məktəbinə daxil olur. 1941-ci ilin mayında həmin məktəbi leytenant rütbəsində əla qiymətlərlə bitirir. Bundan sonra onu Bessarabiyaya hərbi xidmətə göndərirlər .

Dnestr çayı üzərindəki kiçik liman şəhəri olan Bəndərdə İkinci dünya müharibəsi başladıqdan cəmi bir saat sonra həyatında ilk döyüşünə girdi. Bütün müharibə boyu Ziya Bünyadov ön cəbhədə olub. Ukrayna, Moldova, Belorus, Polşa, eləcə də Mozdok uğrunda döyüşlərdə iştirak edib. Gənc leytenant rotadakıların hörmətini qazana bilib və tezliklə rota komandiri təyin edilib.

Düşdüyü mühasirədən döyüşərək çıxmış və polkun bayrağını xilas etməyi bacarmış və bununla da polkun əsgəri şərəfini qoruya bilmişdi. Bünyadov Şimali Qafqazda gedən döyüşlərin iştirakçısı olmuş, Saratovdan olan yarısına qədər volqa matroslarından təşkil olunmuş 120 nəfərlik rotaya başçılıq etmişdi.

Özünün haqlılığını sübut etməyə çalışarkən komandirlə kobud rəftarına görə, o, cərimə rotasına göndərilmiş və bir il orada qalmışdı. Gənc leytenant olmasına baxmayaraq orada yaşca və təcrübəcə özündən böyük olan cəzalıların hörmətini qazanmağa nail olmuşdu. Bunu diqqətdən qaçırmayan komandanlıq, artıq atıcı batalyonun komandiri olan Bünyadova cərimə rotasına başçılıq etməyi təklif etmişdi.

Visla-Oder əməliyyatı zamanı kapitan Bünyadovun komandanlığı altında 123-cü cərimə rotası Pilitsa çayı üzərindəki 80 metrlik minalanmış körpünü ələ keçirmiş və əsas qüvvələr gəlib çıxıncaya qədər bir neçə saat ərzində onu düşmənin aramsız hücumlarından qoruyub saxlaya bilmişdi. Bu müddət ərzində 670 nəfər döyüşçüsü olan rotasından cəmi 47 nəfər sağ qalmışdı. Rota düşmənin 160 əsgər və zabitini öldürmüş, 45 əsgərini əsir götürmüş, 5 ədəd altılüləli minamyot, 3 top, çoxlu sayda avtomat, tüfəng, sursat, ərzaq və başqa qənimətlər ələ keçirmişdir...

Ziya Bünyadov İkinci dünya müharibəsində cəbhədə Berlinədək vuruşaraq şərəfli döyüş yolu keçirmişdir. Müharibədə göstərdiyi şücaətlərə görə 1945-ci il fevralın 27-də Z.Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verilir.

Ziya Bünyadovun xidmətləri çoxdur və onun ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, 80-ci illərin axırlarında - 90-cı illərin əvvəllərində o, bir daha böyük alim kimi, tədqiqatçı kimi Azərbaycanın açılmamış arxivlərinə baş vurdu, o arxivlərdən Azərbaycan tarixinin XX əsrə aid səhifələrini açdı, tədqiq etdi, öz kitablarında, dövri mətbuatda yazılar verdi və beləliklə də, əgər əvvəllər Azərbaycan tarixinin orta əsrlərə aid çox mühüm dövrlərini elmi əsərlərində işıqlandırdısa, açdısa, göstərdisə, son illərdə özünü buna həsr etdi. O cümlədən, ilk Azərbaycan Demokratik Respublikasının yaranması ərəfəsində gedən prosesləri də, o dövrü də doğru-düzgün tədqiq edənlərdən biri də Ziya Bünyadovdur.



# “Naxçıvan teatrı Abbas Quliyevin şəxsində müvəqqəti də olsa səhnə xadimini itirsə də, Sovet Ordusu onun simasında bacarıqlı və fədakar zabit əldə etmişdi"

II Dünya müharibəsində qəhrəmanlıq zirvəsinə yüksələn həmyerlilərimizdən biri də müharibənin dəhşətləri içərisindən sağ-salamat çıxıb doğma yurduna qəhrəman kimi dönən Abbas Quliyevdir..

Kəngərli tayfasından – I Kalbalı xanın oğul varislərindən olan Abbas Şahbaz xan oğlu Quliyev 15 sentyabr 1916-cı ildə Babək rayonunun Şəkərabad kəndində anadan olub. O, Naxçıvan şəhərində yeddi illik təhsil aldıqdan sonra Bakıdakı pedaqoji məktəbə daxil olub. Təhsilini başa vurduqdan sonra Naxçıvana qayıdıb, Dövlət Musiqili Dram Teatrında işləməyə başlayıb. Müharibə başlayan zaman Abbas Quliyev də yüzlərlə igid oğlumuz kimi cəbhəyə yollanıb. Qərbi Dneprdən Visla çayına qədər döyüş yolu keçən Abbas Quliyev 1942-ci ildə Sumi (Ukrayna) topçuluq məktəbini bitirib və topçu komandiri kimi döyüş yolunu davam etdirib.

Faşistlər 1942-ci ilin axırlarından etibarən sovet ordusunun başladığı zəfərli hücumu Dnepr sahillərində dayandırmaq fikrində idilər. Lakin qəhrəman döyüşçülərin qarşısıalınmaz hücumu nəticəsində düşmənlər Dneprin sahillərindən qovuldular. Bu döyüşdə yüksək şücaəti ilə fərqlənənlər sırasında Abbas Quliyev də var idi. Hücum zamanı onun komandirlik etdiyi topçu dəstəsi düşmənə sarsıdıcı zərbələr endirərək qəhrəmanlıq nümayiş etdirib.

Cəsur komandir Poltava torpağında misilsiz döyüş rəşadəti, dönməz iradəsi və hərbi bacarığı ilə şöhrət qazanıb. 1944-cü ilin avqustunda o, vacib bir hərbi tapşırığı yerinə yetirir. Gecə ikən Visla çayının sağ sahilinə keçərək mövqe tutur. Və üç gün fasilələrlə gedən qeyri-bərabər döyüşdə sovet əsgərlərinin çayı maneəsiz keçib, düşməni darmadağın etmələri üçün əlverişli şərait yaradır. O, Poltava və Xarkov ətrafında gedən döyüşlərdə də igidlik və qəhrəmanlıq nümunəsi göstərir. Bütün bunlara görə Abbas Quliyev I dərəcəli “Vətən müharibəsi”, “Aleksandr Nevski”, “Qızıl Ulduz” və “Qırmızı Bayraq” orden və medallarla təltif edilir.



1945-ci ildə isə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Abbas Quliyev “Sovet İttifaqı Qəhrəmanı” kimi yüksək ada layiq görülüb. M.İ.Kalinin Abbas Quliyevə Lenin ordeni və Sovet İttifaqı Qəhrəmanının “Qırmızı Ulduz”unu təqdim edərkən onun teatr işçisi olduğunu bilib etiraf edir ki, ilk dəfədir, belə bir peşə sahibinin bu cür yüksək ada layiq görüldüyünə şahidlik edir. Həmin günlərdə “İzvestiya” qəzeti Abbas Quliyevə həsr etdiyi məqalədə yazırdı: “Naxçıvan teatrı Abbas Quliyevin şəxsində müvəqqəti də olsa, teatr xadimini itiribsə, sovet ordusu onun simasında gözəl, bacarıqlı, cəsur zabit qazanıb”.

Beləliklə, odlu-alovlu müharibə qələbə ilə başa çatır. 1945-ci ildə müharibə əlili kimi ordudan tərxis olunan Abbas Quliyev Naxçıvana qayıdıb. O, ömrünün sonuna qədər Azərbaycan üçün çalışıb. Mərd və polad iradəsi ilə düşmən önündə rəşadət nümunəsi göstərən Sovet İttifaqı Qəhrəmanı Abbas Quliyevin ömür yolu, fəaliyyəti gənc nəslə əsl örnəkdir.

***Nəzakət Əsədova***

# *Tarixi Qələbəni Berlində qeyd etdi*

Sovet İttifaqı Qəhrəmanı Şirin Ağabala oğlu Şükürov 1910-cu ildə Şirvan şəhərində anadan olmuşdur. 1941-ci ildə Ş. Şükurov orduya çağırılanda 31 yaşındaydı. İgid



eloğlumuz Şimali Qafqazın, Krımın, Rostovun, Belarusiyanın, Polşanın faşist işğalçılarından azad edilməsində yaxından iştirak edib. Misilsiz qəhrəmanlıq göstərmişdir.

Ş.Şükürovun döyüş yoluna nəzər saldıqda görürük ki, Mozdok ətrafında gedən qanlı döyüşlər Şirin Şükürov üçün sınaq meydanı oldu. Onun xidmət etdiyi hissə ilk aylardan düşmənə güclü zərbələr endirdi. Bu ağır döyüşlərdə topçu Şirin qolundan yaralanır. Onu müalicə üçün doğma Bakıya yola salırlar. Sağalandan sonra yenidən onu cəbhəyə göndərirlər. Kerçin, Krımın faşistlərdən azad olunmasında böyük igidlik göstərdiyinə görə "İgidliyə görə medalı" ilə təltif olundu. Qazanılmış qələbə döyüşçüləri daha da ruhlandırdı.

1944-cü ilin sonunda Sovet Ordusunun məqsədi işğal altında olan torpaqları düşməndən azad etdikdən sonra öz beynəlmiləlçilik borcunu yerinə yetirmək, Şərqi Avropa xalqlarını alman faşist işğalçılarından azad etməklə qələbə bayrağını Berlin üzərinə sancmaq idi. Bu tarixi döyüşdə Ş.Şükürov da iştirak edirdi. Visla çayının sol sahilində düşmənlə ölümdirim mübarizəsindəki gedən döyüşlərdə Şirin xüsusilə fərqlənir. Alman faşist işğalçılarına qarşı mübarizə cəbhəsində komandanlığın döyüş tapşırıqlarını nümunəvi yerinə yetirdiyinə, şəxsi igidlik, qəhrəmanlıq göstərdiyinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 27 fevral tarixli fərmanı ilə Şirin Ağabala oğlu Şükürova Sovet İttifaqı Qəhrəmanı adı verilib. Bu zaman Şirin Şükürov xəstəxanada idi. Bu şad xəbəri hərbi xəstəxanada aldıqdan sonra Ş.Şükürovu yenidən döyüşən orduya göndərdilər. Onun xidmət etdiyi polk Almaniyada vuruşurdu.

Sovet İttifaqı Qəhrəmanı Şirin Şükürov tarixi qələbəni 1945-ci ildə mayın 9-da Berlində qeyd edənlərdən biridir.

Ş.Şükürov müharibədən sonra Şəhər partiya komitəsinin üzvü, şəhər XDS-in deputatı kimi ictimai işlərdə fəallıq göstərib. Şəhərdə keçirilən bütün ictimai-siyasi tədbirlərdə yaxından iştirak edirdi. Şirin əmi 1987-ci ildə 77 yaşında dünyasını dəyişmişdir.

Hal-hazırda vaxti ilə yaşadığı Şirvan şəhərinin küçələrindən biri onun adını daşıyır. Kür sahilində onun əzəmətli büstü qoyulub.

***Əbil ƏHMƏDOV,***
***Şirvan şəhər Veteranlar Təşkilatının üzvü***

# O, böyük bir diviziyanı xilas etdi

Keçmiş SSRİ-nin elə bir ucqar məkanı olmayıb ki, bu vahiməli və dəhşətli müharibə həmin yerlərə aclıq, səfalət, müsibət, ölüm və göz yaşları gətirməsin. O dövrdə Vətən anlayışı milliyyətindən, dilindən, yaşadığı yerindən asılı olmayaraq hər bir insan üçün əziz və müqəddəs idi. Bir sözlə, İkinci Dünya müharibəsi tarixdə xüsusi iz buraxıb.

Azərbaycandan Böyük Vətən Müharibəsində iştirak edən yüz minlərlə döyüşçü faşistlərlə vuruşlarda rəşadət və qəhrəmanlıq nümunələri göstərdiklərinə görə SSRİ-nin yüksək adları, rütbələri, orden və medalları ilə təltif ediliblər.



Bunlardan biri də Sovet İttifaqı Qəhrəmanı Məmmədəli Cəbrayıl oğlu Məmmədovdur. O, 1920-ci ildə Qax rayonun Baydarlı kəndində anadan olub. Uşaqlığını, ilk gənclik illərini də elə bu kənddə keçirmişdi. Şəki Pedeqoji Texnikumunu bitirdikdən sonra bir müddət müəllim işləmişdi. 1940-cı il oktyabr ayının 10-da Sovet Ordusu sıralarına əsgəri xidmətə çağrılmış M.Məmmədov, 1235-ci atıcı alayında sanitar təlimatçı kimi fəaliyyət göstərir. O, yaralı döyüşçüləri xilas etməkdə xüsusi mərdlik və cəsurluq göstərir, buna görə də Məmmədəli Məmmədov 1943-cü il oktyabrın 24-də "İgidliyə görə" medalı ilə təltif olundu.

1945-ci ilin yanvar ayının 24-də Oder çayı sahillərindəki evlərdən birində baş serjant M.Məmmədov döyüş meydanında xilas etdiyi əsgər və zabitləri yerləşdirdikdən sonra faşistlər həmin yeri gülləbaran edirlər. Məmmədəli sərrast atəşləri ilə faşistlərin 40 əsgər və zabitini məhv edir.

M.C.Məmmədov SSRİ Ali Soveti Rəyasət Heyətinin 10 aprel 1945-ci il tarixli qərarına əsasən, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Qəhrəmanın məzarı Oder çayı yanındakı qəbiristanlıqda yerləşir.

1941 - 1945
AZƏRBAYCAN VETERANI

# Azərbaycan qadını həm ön, həm də arxa cəbhədə fədakarlıq nümayiş etdirib

Azərbaycan qadınları tarix boyu ölkənin ictimai-siyasi, mədəni həyatında fəal iştirak etmiş, Vətənin müdafiəsində qəhrəmanlıqlar göstəriblər. Azərbaycan qadını fədakarlıq, cəsarət və vətənpərvərlik nümunəsidir.

Tarixboyu Azərbaycan qadınları həyatımızın bütün sahələrində mühüm rol oynayıblar. Qadın hökmdarımız Tomris, Şərqdə ilk diplomat qadın Sara xatun, Koroğlunun Nigarı, Qaçaq Nəbinin Həcəri, Şah İsmayılın Aləmşahbəyimi xalqımızın tarix səhifələrinə öz adlarını şərəflə yazıblar. Təsadüfi deyil ki, oğuz türklərinin tarixindən xəbər verən "Kitabi-Dədə Qorqud" dastanlarında Azərbaycan qadını vətənpərvər, sədaqətli, qoçaq, kişilərlə birlikdə döyüşlərə atılan qeyrət nümunələri kimi göstərilib. Döyüş meydanına atılan Burla xatun, Banuçiçək və digər qadın obrazları həmişə qadınlarımız üçün bir örnək olublar.

Ötən əsrdə də Azərbaycan qadını tarixə adını şərəflə yazıb. 1941-45-ci illər müharibəsində Azərbaycan qadını səngərlərdə əsgər, həkim, tibb bacısı, açıq dənizlərdə gəmi kapitanı, səmalarda təyyarə pilotu, partizan, arxa cəbhədə qayğıkeş ana, neftçi, əkinçi bir sözlə qələbənin təminatçısı olmuşdurlar.

Müharibə illərində respublikamızdan cəbhəyə gedən 700 mindən çox döyüşçüdən 14 mindən çoxu qadın olub.

Onlar Azərbaycanın ilk qadın şahinləri idi: Zibeydə Əhmədova, Leyla Məmmədbəyova, Sona Nuriyeva, Züleyxa Seyidməmmədova. Qafqazda, Cənubi Avropada və Yaxın Şərqdə ilk qadın təyyarəçi kimi tanınan Leyla Məmmədbəyova aviasiya mayoru rütbəsinə yüksəlib. II Dünya Müharibəsində ön cəbhənin hava döyüşlərində, eləcə də arxa cəbhədə hərbi təyyarəçilərin hazırlanmasında onların xüsusi xidmətləri olmuşdur. Bu qadınların igidliyi dillərə dastan olmuşdur.

Eyni zamanda Azərbaycanlı qadınlar hava hücümundan müdafiə qüvvələrində də xidmət etmiş, xüsusən Bakı səmasının qoruyanların əksəriyyəti qadın idi. Onlardan Züleyxa Həsənova xüsusilə fərqlənirdi.

1942-ci ilin aprel ayının 8-də II kurs tələbəsi Raifə Həsənova azərbaycanlı rəfiqələrinə qoşulub könüllü olaraq cəbhəyə getdi. 339-cu zenit artilleriya alayında 2-ci dərəcəli radist oldu. Şimali Qafqaz uğrunda gedən döyüşlərdə rəşadət göstərib. Düşmənin məğlub edilməsi üçün əlindən gələni əsirgəməyib.

Qumru Teymurova: hərbi həkim. Böyük Vətən Müharibəsində könüllü olaraq xidmət etmişdir. O, bu alovlu müharibədə Xəzər dəniz donanmasının tibb xidmət rəisi olmuşdur. Belə bir məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gəlməyi bacarmışdır.

1942-ci ilin aprel ayının 7-sində Yevlaxdan 100 nəfər qadın vətənin keşiyində dayananların cərgəsinə göndərildi. Onlardan biri də Bilqeyiş Qasımova idi. O, xidmət etdiyi zenit artilleriya alayında komsomol təşkilatının katibi seçilmiş, yaxşı atıcı kimi tanınmışdır. 1943-cü ilin Şimali Qafqazın müdafiəsində iştirak etmiş, igidlik göstərmişdir.

Kübra Nuriyeva, Rəxşəndə Rzayeva, Ruqiyyə Hüseynova, Yaqut Əhmədova və digər qadınlar kimi Tamara Ələsgərova 1942-ci ilin yaz aylarında könüllü olaraq ön cəbhəyə yollandılar. Leytenant Tamara Ələsgərova rabitəçi kimi xidmət etmiş, öz işinin öhdəsindən məharətlə gəlmişdir.

Sərt əsgər həyatı, həyəcanlı günlər, kədər-qüssə qəlbini sıxa bilmədi, Hökümə Qasımovanın. O, müharibənin ilk günündən son gününə qədər zenit artilleriya qoşunlarında xidmət etdi, müharibə onun incəsənətə bağlılığını unutdura bilmədi.

Azərbaycanın tibb işçiləri Böyük Vətən müharibəsi cəbhələrində vuruşan döyüşçülərin qayğısına qalaraq onların sağlamlığının keşiyində durmuşdur.

Gəncə hərbi hospitallarında vətənpərvər həkimlər və tibb bacıları müharibə illərində minlərlə döyüşçünü sağaldıb ön cəbhəyə yola salmışdır. Badam Axundova - hospitalda cərrahiyyə şöbəsində işləyib, yaralıların sağalması üçün gecəsini gündüzünə qatmışdır.

"Florens Naytingeyl" medallı Səriyyə Talışxanova. Böyük Vətən Müharibəsində cəbhə xəttinə gətirilmiş, 11 uşağa analıq etmişdir. Eyni zamanda hospitalda çalışmış minlərlə yaralının sağlamlığına qovuşmasında əlindən gələni əsirgəməmişdir.

Əsmər Həsənova - VII hərbi dəniz piyada briqadasının tərkibində Sevastopolun müdafiəsində dayandı. O, yaralıların döyüş meydanından çıxarılmasında rəşadət göstərdi, 3 gün ərzində rəfiqəsi Keto Xomereki ilə birgə 750 yaralıya yardım etdi. 250 gün od-alov içərisində döyüşçü yoldaşları ilə birgə Sevastopolu müdafiə etdi və sonunda qələbə qazandılar.

Pakizə Manafova- Şimali Qafqaz, Kuban, Rostov vilayətləri uğrunda amansız döyüşlərdən şərəflə çıxdı, yaralı qardaşlarının sağalıb ayağa durmasında kömək etdi, cəbhə yoldaşlarına bacı qayğısı göstərdi.

Salyanda anadan olan Şəfiqə Əhmədova Qara dəniz donanmasında Odessadan Sevastopola yaralıları daşıyan gəmidə xidmət etdi. Döyüşlərin birində Qara dənizin mavi sularında itkin düşdü.

Şəkidə dünyaya gəlmiş Züleyxa Rzayeva. Qara Dəniz Donanmasında 30-cu Sahil Batareyasında xidmət etmişdir. Sevastopol uğrunda gedən döyüşlərdə düşmənə ağır zərbələr vurmuşdur. Züleyxa da döyüşlərdə itkin düşmüşdür.

1941-ci ilin 22 iyun. 3 rəfiqə- Kübra Məmmədova, Lətafət Məmmədova və Pakizə Vahabova əsgər paltarlarını geyinib ön cəbhəyə yola düşdülər. Onlar 44-cü diviziyanın tərkibində Sevastopol şəhəri uğrunda döyüşlərə qatıldılar. Vəzifələrinin öhdəsindən layiqincə gəlib qəhrəmanlıq göstərdilər.

Züleyxa İsmayılova, Sara Mirnağızadə, Zinət Manafova Krım cəbhəsində rəşadət göstərdilər.

Müharibə illərinin mətbuat səhifələrini, cəbhədən evlərə göndərilmiş məktubları, sağ qalmış veteranların xatirələrini dinləyəndə Novorossiysk, Gelincik, Kabardinka, Tuapse, Taman uğrunda gedən vuruşmalarda xalqımızın övladları-azərbaycanlı döyüşçülərin düşmənə mərdliklə sinə gərdiklərini görürük. Cəsur Azərbaycan qızları - Dürrə Məmmədova, Sakinə Məmmədova, Adilə Məmmədova, Səfiyyə Rüstəmbəyova, Lyudmila Kərimova, Şəfiqə Əhmədova, Aleksandra Pokalyavina, Naibə Əfəndiyeva, Suğra Paşayeva, Səkinə Əliyeva və onlarca başqaları vətən uğrunda bu döyüşlərdə irəli atılmışlar.

Şura Əlizadə: Xəzər və Qara dənizlərdə üzmüş, cəbhəyolu Sakit okean donanmasında tamamlanmış Sevastopol uğrunda gedən döyüşlərdə rəşadət göstərmişdir. Batan "Moldaviya" gəmisində yaralıları xilas etmişdir.

Səlimə Əlizadə anası Bəyim Əlizadə ilə birlikdə 1942-1944-cü illərdə Stalinqrad, Kiyev, Poltava, Mirqorod şəhərlərində gedən döyüşlərdə, 1944-1945-ci illərdə isə I Belarusiya cəbhəsində Jitomir, Viteviski, Poznan, Varşava, Karlxost və Berlin döyüş əməliyyatlarının iştirakçısı olmuşdur. Onların timsalında ana-övlad sevgisi müharibəyə qalib gəlmişdir.

Şəfiqə Səlimova: Xəzər Gəmiçilik idarəsində gəmi kapitanı işləmişdir. Müharibə illərində Aralıq, Mərmərə, Qara dənizlərində xidmət etmişdir. Gəmi ilə neft, silah, ərzaq daşınmasında böyük xidməti olmuşdur. O, II Dünya Müharibəsində iki qadın gəmi kapitanından biri idi.

416-cı Milli atıcı Diviziyanın qazandığı qələbələrdə kişilərlə yanaşı, Ədilə Abbasovanın, Səkinə Bayramovanın, Nəzakət Yəhyayevanın, Şükufə Əsgərovanın, Rəşidə Qasımzadənin, Zəhra Səlimovanın, Minə Hacıyevanın, Cənnət Kazımovanın, Səkinə Şəfiyevanın, Rübabə Rzayevanın, Minə Teymurovanın və onlarla başqalarının xidməti xüsusi vurğulanmalıdır.

Alman-faşist işğalçılarına qarşı fədakarlıqla vuruşduqlarına görə 416-cı diviziyanın 152 döyüşçü qadınından 45-i, o cümlədən hərbi feldşer B.Mircavadova "Qızıl Ulduz" ordeni, 42 nəfər "İgidliyə görə", "Döyüş xidmətlərinə görə" medalları ilə təlif olundu. 17 qadın zabit rütbəsi aldı.

Mozdokdan Taqanroqa kimi döyüş yolu keçən Tahirə Fəttahova çətinliklərə baxmayaraq, əsgərləri dava-dərmanla təchiz edir, Taqanroq uğrunda döyüşlərdə "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunur. O, həmçinin "Qırmızı Ulduz" ordeni, "Qafqazın müdafiəsinə görə", "Berlinin alınmasına görə", "1941-1945-ci illərin Böyük Vətən müharibəsi illərində Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilmişdir.

Rəşidə Qasımzadə 1941-ci ildə əvvəlcə 29-cu batalyonda qulluq etmiş, 1942-ci ilin əvvəlində 416-cı diviziyaya göndərilmişdir. Diviziya ilə böyük döyüş yolu keçən R.Qasımzadə "Qırmızı Ulduz" (1944), İkinci dərəcəli "Vətən müharibəsi" (1945) ordenləri, "Qafqazın müdafiəsinə görə", "Varşavanın azad edilməsinə görə" və digər medallarla təltif edilmişdir.

Cəbhə dostları Böyükxanım Mircavadovadan söz düşəndə onu cəsur əsgər kimi dəyərləndirirlər. O, Azərbaycan qadınları arasında ilk dəfə "Qırmızı Ulduz" ordeni ilə təltif edilmiş şəfqət bacısı idi. 1941-ci il iyun ayının 28-də cəbhəyə çağırılan B.Mircavadova 44-cü orduda xidmətə başlayır, 1942-ci ilin yazında 416-cı diviziyanın 68-ci atıcı polkuna göndərilir. Mozdok şəhəri yaxınlığındakı döyüşdə 87 yaralını ölümdən qurtardığı üçün "Qırmızı Ulduz" ordeni ilə təltif olunur. B.Mircavadova həmçinin "Qafqazın müdafiəsinə görə", Varşavanın və Berlinin alınmasına, Almaniya üzərində qələbəyə görə medalları ilə təltif edilmişdir.

Nəcibə Məmmədova da Taqanroq, Melitopol şəhərlərinin azad edilməsində iştirak edir. Berlinə qədər döyüş yolu keçir. 1945-ci ildə ordudan tərxis olunan N.Məmmədova həkimliyini davam etdirir.

Aliyə Tağızadə, Zərifə Camalbəyova, Səfurə Məlikyeqanova, Həlimə Rzayeva, Səlimə Xəlilova, Bikə Gözəlova, Sitarə Ağayeva, Sona Ağayeva, Anatolla Əbilova, Furfanda Cəmilova, Rəhimə Babayeva, Səlimə Hacıyeva, Adilə Dadaşova, Asiya Rəsulova, Lora Abdullayeva, Şərqiyyə Babayeva, Rübabə Əhmədova, Nəzakət Yəhyayeva, Cənnət Kazımova, Firuzə Seyidova, Tacirə Rzayeva, Ziba Qəniyeva, Aliyə Haşımova, Qədriyyə Səlimova, Məsumə Ağayeva, Qönçə Qaragözova, Nazxanım Səfərova, Anna İskəndərova, Şərqiyyə Məhərrəmova, Dilşad Rəhimova, Məryəm Bağırova və minlərlə qəhrəman Azərbaycan qadınları həyatlarının ən gözəl illərini ön və arxa cəbhədə qələbənin əldə olunmasına sərf etdilər.

1941-ci ilin yayında ictimai təşkilatların göndərişi ilə təkcə Bakının mədən və zavodlarında 3500-dən artıq qız işə başlamışdı. Bakının neft sənayesində işləməyə 13 mindən çox yeni işçi cəlb edildi. Səkkiz ayda 16 min qadın respublikanın sənaye müəssisələrində işləməyə gəldi. Onlardan 11 min nəfəri neft sənayesində çalışmağa başladı. 45 Fabrik və zavodlarda evdar qadınlara sənət öyrətmək üçün kurslar açıldı. 1942-ci ilin yayında neft sənayesində 25 minə qədər qadın işləyirdi. Dəmir yol nəqliyyatında çalışanların yarıdan çoxunu qadınlar təşkil edirdi. Yüzlərlə Azərbaycan qadını sovxoz və kolxozlarda fədakarlıqla çalışırdı. 1941-1942-ci illərdə respublikada kolxozların əkin sahələrində olan 10 min mexanizatorun yarıdan çoxu qadın idi. Cəbhə sifarişlərini yerinə yetirmək üçün qadınlar hər gün 18-20 saat işləyirdilər.











*Onlar əsl Azərbaycan qadınının əzmini, rəşadətini dünyaya nümayiş etdirdilər. Əhsən sizə Azərbaycan qadını!...*

# Faşizmə qarşı Avropa Müqavimət Hərəkatında igidlik və rəşadət göstərmiş cəsur azərbaycanlı partizanlar

Azərbaycan İkinci Dünya müharibəsində hərbi əməliyyat meydanına çevrilməsə də müharibənin əvvəlindən axırınadək fəal iştirak etdi. Azərbaycanın bütün maddi və mənəvi sərvətləri, insan qüvvəsi faşizmə qarşı müharibəyə cəlb edildi..

Müharibənin ən ağır illərində azərbaycanlı əsgər və zabitlər od, alov püskürən cəbhələrdə, o cümlədən Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarusiya, Pribaltika respublikaları uğrunda döyüşlərdə cəsarətlə vuruşmuş, faşist ordu hissələrinə mətanətlə müqavimət göstərmiş, onların hərbi texnikasını və canlı qüvvəsini məhv etmiş, işğal edilmiş yaşayış məntəqələrinin azad edilməsində, Berlinin süqutunda fəal iştirak etmiş, bu yolda çoxları ölümləri ilə ölümsüzlüyə, əbədiyyətə qovuşmuşlar.

Azərbaycanın oğul və qızları faşistlərin Buhenvald, Mauthauzen, Daxau, Zaksenhauzen, Ravensburyuk və bir sıra ölüm düşərgələrində Avropa ölkələrinin müqavimət qüvvələri ilə birlikdə hitlerçilərə qarşı mübarizə aparmış və azərbaycanlı adına layiq fəaliyyət göstərmişdilər.

1942-1944-cü illərdə azərbaycanlı hərbi əsirlər Polşanın Edlin, Almaniyanın Noyhammer-Ştranse, Fransanın Rodez, İtaliyanın Udine, Triyestin Opçina, Çexoslovakiyanın Brno və Bistritsa rayonlarında gizli antifaşist təşkilatları yarada bilmişdilər.

Təkcə Fransanın cənubunda gedən partizan hərəkatında 1000 nəfərdən çox, Yuqoslaviyadakı partizanların zərbə briqadasında 600 nəfərdən çox azərbaycanlı vuruşmuşdu.

1943-cü ilin yayında Krımda fəaliyyət göstərən partizan dəstələri içərisində Azərbaycan partizan dəstəsi də var idi. Sonrakı illərdə Belarusiya torpaqlarında və Baltikyanı Respublikalarda da azərbaycanlı partizanlar düşmənə qarşı mübarizədə geniş miqyasda iştirak etmişlər.

Azərbaycanlılardan Ukrayna torpaqlarında faşistlərə qarşı mübarizədə 5000 nəfərə qədər, Belarusiya torpaqlarında isə 1000 nəfərə qədər döyüşçü partizan dəstələrində fəal iştirak etmişlər.

Həmin illərdə qəhrəmanlıqlar göstərmiş həmyerlimiz İtaliyanın ali hərbi mükafatı olan qızıl "Haribaldi ulduzu" və "Şöhrət" ordenlərinin kavaleri Məmməd Bağırov, partizanlar arasında "Armed Mişel" adı ilə məşhurlaşmış "Xarqo" təxəllüslü, Fransanın "Fəxri legion" ordeni, müxtəlif orden və medallara layiq görülən Əhmədiyyə Cəbrayılov və yüzlərlə digər igid həmyerlilərimiz Avropa Antifaşist Müqavimət Hərəkatının ən tanınmış nümayəndələri hesab edilirlər. Qürurvericidir ki, qəhrəman azərbaycanlıların adları bu gün də həmin ölkələrdə hörmətlə xatırlanır və yad edilir.

1943-cü ildə faşistlərin Almaniyanın Stranse əsir düşərgəsindən İtaliyaya, Triyestə və Yuqoslaviyaya köçürdüyü sovet hərbi əsirləri içərisində də xeyli azərbaycanlı var idi. Onlar gizli antifaşist təşkilatı yaratmışdılar. Təşkilatın rəhbərliyinə Mehdi Hüseynzadə, Mirdamət Seyidov, Cavad Həkimli və başqaları daxil olmuşdular. 1944-cü ilin fevralında onların çoxu əsirlikdən qaçaraq partizanlara qoşulmuş, İ.Qradnik adına İtalyan — Yuqoslav partizan diviziyası tərkibində əlahiddə rota təşkil etmişdilər.

Yuqoslaviya Xalq Azadlıq Ordusunun 11-ci korpusu qərargahı yanında Haribaldi adına xüsusi kəşfiyyat — təxribat qrupuna M.Hüseynzadə, Mirdamət Seyidov, Ənvər Məmmədov, Tağı Əliyev və digər soydaşlarımız daxil idi. Faşistlərə qarşı döyüşlərdə fərqlənən 50-yə qədər Azərbaycan övladı Yuqoslaviyanın orden və medalları ilə təltif olunmuşdur.

1942-ci ilin yazında Polşadakı hərbi əsir düşərgələrindən birində azərbaycanlıların gizli antifaşist təşkilatı yaradılmışdı. Ona zabit H.Qiyasbəyov və M.Məmmədov başçılıq edirdilər. Bu təşkilatın köməyi ilə bir qrup əsir düşərgədən qaçaraq Polşa partizanlarına qoşulmuşdu.

Fransanın Rodez şəhərindəki əsir düşərgəsində xeyli azərbaycanlı vardı. Onların çoxu gizli antifaşist təşkilatının üzvü idi. Burada üsyan hazırlanması xəbərinin düşərgə rəhbərliyinə çatdırılmasına, onun qarşısını almaq üçün tədbir görülməsinə baxmayaraq, gizli təşkilatın üzvlərindən Həkim Əmirov son dəqiqədə fürsətdən istifadə edərək 29 nəfər əsirlə birlikdə meşəyə qaçıb fransız partizanlarına qoşulmuşdu.

Faşistlər xalqımızın qəhrəman oğulları Mirzəxan Məmmədov, Qulu Quliyev, Vəli Vəliyev, Mirzəli Məmmədli, Paşa Cəfərxanlı, Feyzulla Qurbanov, İsmayıl Heydərov, Həsən Əliyev, Qurban Məmmədov, Məmməd Axundov, Abbas Hüseynov və bir çox başqalarını həbs edib, böyük əzab və işgəncədən sonra ölüm cəzasına məhkum etmişdilər.

1944-cü il avqustun 17-də Rodez şəhəri fransız və azərbaycanlı partizanlar tərəfindən faşistlərdən azad edilmişdi. Bu əməliyyatda azərbaycanlılara gizli antifaşist təşkilatın üzvü Hüseynrza Məmmədov başçılıq edirdi. Rodez zəhmətkeşləri qəhrəmancasına həlak olmuş azərbaycanlı vətənpərvərlərin xatirəsini əziz tutaraq, onları böyük matəm mərasimi ilə Rodez qəbiristanlığında dəfn etdilər. Matəm mitinqində çıxış edən polkovnik Rişard fransız vətənpərvərlərinin sovet xalqına qarşı məhəbbətlə dolu olan fikir və duyğularını bu sözlərlə ifadə etmişdi: "Fransa, azərbaycanlı hərbi əsgərlərin igidliyini unutmayacaqdır. Övladlarımız, nəvə və nəticələrimiz də biləcəklər ki, uzaq Azərbaycandan olan dostlarımız da Fransanın faşizmdən azad edilməsi yolunda canlarını əsirgəməmişlər". Qardaşlıq məzarı üzərinə qoyulan baş daşına Azərbaycan xalqının qəhrəman oğullarının şanlı adları həkk edildi.

## İkinci Dünya müharibəsinin Qəhrəmanı - Mehdi Hüseynzadə



Ümummilli lider Heydər ƏLİYEV: "Azərbaycan xalqının igid oğlu, adı dillər əzbəri olan partizan-kəşfiyyatçı, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Bakıda ucaldılmış abidəsi Vətənimizi qorumaq üçün canından keçmiş qəhrəmanlara ümumxalq hörmət və məhəbbətinin parlaq ifadəsidir."

Mehdi Hüseynzadə 1941-1945-ci illər müharibəsində faşizmə qarşı mübarizədə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və nümayiş etdirdiyi misilsiz hərbi şücaətləri ilə böyük şöhrət qazanmış və Azərbaycan xalqının zəngin tarixi hünər salnaməsinə şanlı səhifələr yazmışdır. Yüksək əxlaqi keyfiyyətlərə malik cəsur kəşfiyyatçının rəşadət dolu şərəfli həyat yolu bu gün Vətənimizin sərhədlərini layiqincə qoruyan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan mətin Azərbaycan əsgəri üçün parlaq qəhrəmanlıq nümunəsidir.

İkinci Dünya müharibəsinin həlledici məqamlarından hesab olunan Qərbi Avropanın antifaşist müqavimət hərəkatında "Mixaylo" kimi tanınan qeyri-adi döyüş bacarığı nümayiş etdirən cəsur kəşfiyyatçı Mehdi Hüseynzadənin adı doğma Vətəni Azərbaycandan çox-çox uzaqlardakı ölkələri dolaşdı. O, Avstriyanın, Fransanın, İtaliyanın, Yuqoslaviyanın göylərində sönməyən əbədi parlaq ulduza döndü.

1941-ci il iyunun 22-si... İnsanlığa, bəşəriyyətə qənim kəsilən Hitler faşizminin Sovetlər İttifaqına xaincəsinə hücumunun başladığı gün. "Ana Vətən çağırır!", "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarları Mehdinin də qəlbini titrədir. Minlərlə həmyaşıdı kimi o da könüllü olaraq cəbhəyə yazılır. 1942-ci ilin yayında qvardiya leytenantı Mehdi Hənifə oğlu Hüseynzadə Stalinqrad cəbhəsinə göndərilir. O, Stalinqrad yaxınlığındakı Kalaç rayonunda vuruşurdu. Həmin döyüşlərdə ağır yaralanan Mehdi əsir alınır. ...Qəhrəman həmyerlimiz hiyləgər düşmənlə mübarizədə yeni, həm də fərqli döyüş bacarığı nümayiş etdirməli idi. Mehdi Hüseynzadə, Cavad Həkimli və digər hərbi əsirlərlə - Qasım Əmrahov, Sadiq Nadirli, Cabbar Quliyev, Mikayıl Qulubəyov, Əsəd Qurbanov və başqaları ilə birlikdə necə olursa-olsun, partizanlara qoşulmaq, əsirləri düşərgələrdən çıxartmaq üçün yollar axtarırdılar. 1944-cü ilin əvvəlində Mehdi Hüseynzadə bir qrup yoldaşı ilə İtaliyadakı düşərgədən qaçır və Yuqoslaviya Xalq Azadlıq Ordusunun Sloven Sahilyanı 9-cu korpusunda fəaliyyət göstərən partizanlara qoşulur. Burada İvan Qradnik adına 3-cü Sloveniya xalq-azadlıq briqadası 4-cü batalyonunda yaradılan azərbaycanlılardan ibarət rus bölüyünün komandiri Cavad Həkimli, komissarı Mehdi Hüseynzadə idi. Mixaylonun faşist işğalçılarına qarşı mübarizədə keçən iki ilinin hər günü, hər həftəsi, hər ayı qəhrəmanlıqla doludur.

Mehdi Hüseynzadə tapşırıqdan Çenovan yaşayış məntəqəsində yerləşən 9-cu korpusun qərargahına qayıdarkən Vitovlye kəndində qəhrəmancasına həlak olmuşdur. O, keçmiş Yuqoslaviyanın ərazisində yerləşən Çepovani kəndində dəfn edilir. Onun məzarı üzərində bu sözlər yazılıb: "Azərbaycan xalqının qəhrəman oğlu, əziz dostumuz Mehdi, rahat yat. Sənin azadlıq uğrunda göstərdiyin ölməz qəhrəmanlıq dostlarının qəlbində daim yaşayacaqdır."

Mehdi Hüseynzadənin qəhrəmanlığı haqqında, həlak olması barədə məlumatı ilk dəfə müharibədən sonra doğmalarına çatdıran onun yaxın silahdaşı, partizan dostu Cavad Həkimli olur.

1957-ci il aprelin 11-də Böyük Vətən müharibəsi illərində faşist işğalçılarına qarşı mübarizədə göstərdiyi qəhrəmanlığa görə Mehdi Hüseynzadəyə ölümündən sonra "Sovet İttifaqı Qəhrəmanı" adı verilir.

Bu gün məşhur azərbaycanlı qəhrəmanın adını daşıyan məktəb fəaliyyət göstərir, bundan başqa, qəsəbə, küçə və bir gəmi onun adınadır. 1973-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Qələbə meydanında unudulmaz qəhrəmanın heykəli qoyulmuş, haqqında kitablar, o cümlədən tanınmış yazıçılar H.Seyidbəyli və İ.Qasımov onun qəhrəmanlıqlarını əks etdirən «Uzaq sahillərdə» povestini yazmış və 1957-ci ildə eyni adlı film çəkilmişdir.

2006-cı ildə Prezident İlham Əliyevin Sloveniyaya rəsmi səfəri zamanı razılaşdırılmaya əsasən 2007-ci ildə M.Hüseynzadənin abidəsi açılmışdır.

Xalqımız qəhrəman, alovlu vətənpərvər oğlunun xatirəsini həmişə əziz tutub və adını əbədiləşdirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mehdi Hüseynzadənin 100 illik yubileyinin ölkəmizdə geniş qeyd olunmasına dair müvafiq sərəncam imzalamışdır. Bu sərəncam ölkə rəhbərliyi tərəfindən Mehdi Hüseynzadənin, ümumən İkinci dünya müharibəsində qəhrəmanlıq göstərmiş azərbaycanlıların fəaliyyətinə necə yüksək dəyər verilməsinin növbəti sübutudur. Azərbaycan öz qəhrəman oğlu ilə fəxr edir və onun adının əbədiləşdirilməsi üçün ölkə miqyasında görülmüş və gələcəkdə də görüləcək işlər bu minnətdarlığın nəticələridir.

## İtaliya Respublikası Müqavimət və Avropa Azadlıq Təşkilatının üzvü, İtaliya Respublikasının "Milli Qəhrəmanı", Haribaldi adına "Qızıl Ulduz" almış Eynal Söhbətov...

Söhbətov Eynal Bəyəli oğlu 1922-ci ildə Xızı rayonunun Qərbilik kəndində anadan olmuşdur. 1939-cu ilin yanvarında hərbi komissarlığın xətti ilə Zaqafqaziya hərbi məktəbinə - Gürcüstana Tiflis quru qoşunları və piyadalar orta-ali zabitlər məktəbinə göndərilib.1940-cı ilin may ayında leytenant rütbəsində həmin məktəbi bitirib. Xidmətlərinə görə 1941-ci ildə baş leytenant, 1942-ci ildə rota komandiri kapitan rütbəsinə yüksəlib. 1942-ci il yanvarın 3-də Ukrayna cəbhəsində Xarkov şəhəri uğrunda gedən döyüş əməliyyatlarında ağır yaralanmış Eynal Söhbətov alman ordusuna əsir düşmüşdür.



1942-ci il yanvarın 20-də Eynal Söhbətov və onun silahdaşları Almaniyanın Drevzden şəhərinə hərbi əsirlər üçün nəzərdə tutulmuş konslagerə gətirilir. Daha sonra isə Almaniyada 5-ci Azərbaycan batalyonunun legionerlər briqadasına keçirilir. Konslagerdə olduğu zaman ona alman və digər dillər öyrədilmişdir. 1944-cü ildə onu və silahdaşlarını İtaliyanın Pyançenitsa şəhərinə gətirirlər. Burada Eynal Söhbətov yerli italyan partizanlarla əlaqəyə girmiş və aldığı tapşırığa əsasən faşist qərargahını partlatmış, çoxlu sayda general, zabit əsgərləri, hərbi planşet və sənədləri ələ keçirmişdir.

Onun haqqında İtaliyanın "Unita" qəzeti çox böyük məqalə yazmışdır. Almanlar onu öldürənə və yaxud tutan şəxsə çox böyük məbləğdə pul vəd etmişlər. O, həmin gecə yerli partizanlarla birgə 80 nəfər azərbaycanlını hərbi əsirlər lagerindən qaçırtmış, Avropa Azadlıq və İtaliya Müqavimət Qərargahına təhvil vermişdir. E.Söhbətov 1944-cü idə Avropa Azadlıq və İtaliya müqavimət hərəkatında göstərdiyi igidliyə görə müttəfiq qoşunları Ali baş komandanlığı tərəfindən silahla, Mərkəzi Aralıq Dənizi Ali Baş Komandanı Marşal Aleksandr tərəfindən "Patriot" adı və Attesstatı ilə təltif olunur. İtaliya Respublikasının alman faşistlərində təmizlənməsi, onların hər vasitə ilə məhv edilməsinə, uğurlu döyüş əməliyyatlarına görə Eynal Söhbətova İtaliya Prezidenti tərəfindən İtaliya Respublikasının "Milli Qəhrəmanı" adı, Haribaldi adına "Qızıl ulduz" və xüsusi işlənmiş qılınc verilib.

Müharibə əlili və veteranı olan Eynal Söhbətov 1953-cü ildə vəfat edib.

## Pyetto (Piotto) ləqəbi ilə tanınmış Əli Babayev



Əli Baba oğlu Babayev 1914-cü ildə Naxçıvanda anadan olmuşdur (Bəzi sənədlərdə səhvən doğum tarixi 1910-cu il kimi qeyd edilmişdir). 1938-ci ildən Kommunist Partiyasının üzvü olmuşdur. 1940-cı ildə Sovet Ordusuna çağırılmışdır. 1942-ci ildə faşistlər tərəfindən əsir götürülmüşdür.

Əli Babayev faşistlərin İtaliyanın Udine şəhərindəki hərbi düşərgəsindən əsirlərin qaçmasında fəal iştirak etmişdir. 1944-cü ildən İtaliyan partizanlarına qoşulub, Pyetto (Piotto) ləqəbi ilə tanınmış Əli Babayev Sovet Ordusunun hərbi əsirlərindən ibarət Çapay batalyonunu yaratmış, komandiri olmuşdur.

Əli Babayev İkinci Dünya müharibəsi dövründə İtaliyadakı partizan hərəkatında fəal iştirak etmiş, Harribaldi adına batalyonun komandiri olmuş, döyüşlərdəki igidliyinə görə İtaliyanın "Hərbi şücaətə görə" gümüş medalı ilə təltif olunmuşdur.

## Əfsanəvi "Serafino" - İtaliyanın Milli Qəhrəmanı Tahir İsayev



Tahir İsayev Qazax rayonunun Şıxlı kəndində 1922-ci ildə dünyaya göz açıb. 1942-ci ildə müharibə cəbhəsində Mozdokun altındakı ağır döyüşlərdə yaralanaraq əsir düşüb. Avstriyadakı əsir düşərgəsindən böyük əziyyətlərlə İtaliyaya keçərək, Berqamo şəhəri yaxınlığında partizan dəstəsinə daxil olub.

Döyüş yoldaşları "Serafino" adını ona atası İsrafilin adına uyğun olaraq veriblər. O, "Fiamma Verdi" beynəlmiləl briqadasında italyanlar, fransızlar, ingilislər və ruslarla çiyin-çiyinə vuruşub. Həmyerlimiz leytenant Serafino 1945-ci ilin 25 aprelində Milan şəhərinin faşistlərdən təmizlənməsi üsyanında qəhrəmanlıq göstərib. O, Mehdi Hüseynzadə, Mirdamət Seyidov kimi Adriatik dənizi sahillərində qəhrəmanlıq, yenilməz şücaət nümayiş etdirib.

Onun döşünü İtaliyanın ən yüksək qəhrəmanlıq rəmzləri olan "Haribaldi ulduzu", "Antonio Qramşi", "Banderi Kalori" ordenləri, ümumən 36 orden və medal, o cümlədən İtaliyanın 12 dövlət mükafatı bəzəyib.

1945-ci ildən Milan şəhərinin fəxri vətəndaşı olan T.İsayev alman və italyan dillərini gözəl mənimsəyib.Əfsanəvi "Serafino" İtaliyanın Milli Qəhrəmanıdır. Tahir İsayev haqqında İtaliyada 1974-ci ildə "Onun adı Serafino idi" adlı film çəkilib. Şıxlı kəndində olan muzeydə onun haqqında geniş material var. Qəhrəman həmyerlimiz 2001-ci ildə dünyasını dəyişib.

## Hollandiyanın azərbaycanlı qəhrəmanı: "Medo" ləqəbli Məmməd

Hollandiyanın Osterveyk şəhərindəki park məşhur azərbaycanlı partizan, İkinci Dünya müharibəsi iştirakçısı, Niderland Kral ailəsinin şərəf qonağı olmuş, "Oranje Nastau" ordeninə, medallara layiq görülmüş Məmməd Məmmədovun adını daşıyır.

Bütün bunlar isə onun bu ölkənin azadlığı uğrundakı misilsiz xidmətləri ilə əlaqədardır. 1923-cü ildə Zaqatalada anadan olmuş Məmməd Məmmədov faşist Almaniyasının 1941-ci ilin iyununda SSRİ-yə hücumundan sonra cəbhəyə yollanıb. İki il ərzində bir sıra ağır döyüşlərdə iştirak etmiş soydaşımız Don ətrafındakı hərbi əməliyyatlarda ağır yaralanaraq 1943-cü ildə əsir düşüb. Faşistlər onu Hollandiyaya, Osterveyk şəhərindəki əsir düşərgəsinə göndəriblər.

İşğalçılara qarşı mübarizəni davam etdirmək qərarına gələn Məmməd əsir düşərgəsindən qaçmağın yollarını arayıb. Tezliklə buradan qaçan döyüşçü holland partizanlarına qoşularaq faşist bölmələrinə ağır zərbələr endirib.

Holland partizanlarının, sonradan isə bu xalqın sevimlisinə çevrilmiş azərbaycanlı qəhrəmana həmin vaxtdan bu ölkənin fəxri vətəndaşı adı verilib. O, döyüşlərdə göstərdiyi şəxsi şücaətlərə görə "Medo" ləqəbini alıb. Niderland Kral ailəsinin şərəf qonağı olmuş Məmməd Məmmədov "Oranje Nastau" ordeninə, müxtəlif medallara layiq görülüb.

1945-ci ilin mayında Avropada İkinci Dünya Müharibəsi başa çatsa da, bütün sovet döyüşçüləri kimi azərbaycanlı veteranların da ağır sınaqları başlayıb. SSRİ diktatoru İosif Stalinin göstərişinə əsasən, müharibə vaxtı almanlara əsir düşmüş sovet döyüşçülərini Vətəndə həbs, sürgün və digər ağır cəzalar, hətta güllələnmə gözləyirdi.



Vətəndə onu təzyiq və təqiblərin gözlədiyini çox yaxşı başa düşən Məmməd Məmmədov faşizmdən azad edilməsində şücaət göstərdiyi ölkədə qalmağa məcbur olub. O, Hollandiyanın Osterveyk şəhərində məskunlaşmağı qərara alıb. Yeri gəlmişkən, Məmməd bu şəhərin ilk fəxri vətəndaşı olub. Keçmiş döyüşçü əsirlikdə olduğu zaman sevdiyi holland qızı Mariya Sebreqtlə ailə qurub. Bu nikahdan onların bir övladı dünyaya gəlib.

Məmməd Məmmədov müharibədən sonra uğrunda döyüşdüyü Hollandiyada aparılan bərpa-quruculuq işlərində də yaxından iştirak edib. Daha sonra ayaqqabı fabrikində, kənd təsərrüfatında, polis bölməsində, hətta bir müddət Nevelo şəhərinin uşaq futbol klubunun məşqçisi kimi çalışıb.

2003-cü ildə 80 yaşında dünyasını dəyişmiş Məmməd Məmmədovun - "Medo"nun məzarı Hollandiyanın Osterveyk şəhərindəki qəbiristanlıqdadır. Əfsanəvi döyüşçünün şərəfinə adlandırılan park isə həmin şəhərdə onun şərəfinə salınıb, habelə onun xatirəsinə abidə ucaldılıb.

## Fransanın azadlığı uğrunda döyüşən Qulu Muxtarov

II Dünya müharibəsi illərində almanlara əsir düşən azərbaycanlı döyüşçülər müxtəlif yollarla yerli partizanlara qoşulurdular. Sovet tarixşünaslığında Avropada partizan hərəkatında iştirak edən azərbaycanlı döyüşçülərə aid tədqiqatlara az rast gəlinir. Müstəqillikdən sonra arxiv materialları əsasında yazılan əsərlərdə bu mövzuya geniş yer verilmişdir.

Qulu Əli oğlu Muxtarov 1916-cı ildə Ağcabədidə doğulub. Burada natamam orta təhsil aldıqdan sonra 1937-ci ildə oktyabr ayında Sovet ordusu sıralarına çağırılıb. 1939-cu ilin dekabrından 1940-cı ilin martına qədər Karel-fin müharibəsində iştirak edib. Döyüşlərin birində yaralandıqdan sonra geriyə qaytarılıb. II Dünya Müharibəsi başlayanadək Ağcabədidə hesabdar işləyib. 1941-ci ilin iyunundan Ağcabədi hərbi komissarlığından səfərbərliyə çağırılıb. Üç aylıq hərbi hazırlıq kursu keçdikdən sonra Q. Muxtarov cəbhəyə (Mozdok rayonu) göndərilərək 402-ci atıcı diviziyanın 883-cü atıcı alayında atıcı bölük komandiri təyin olunmuşdur. Sonra Q. Muxtarov 320-ci atıcı bölüyə köçürülmüşdür.

Mozdok ətrafında döyüşlərdə iki dəfə yaralanmış və yaxınlıqdakı kəndə geri çəkilmişdir. Bu zaman kənd almanlar tərəfindən mühasirəyə alındı və Q. Muxtarov əsir düşdü. İşğal olunmuş kəndin mülki sakinləri ilə birlikdə Q. Muxtarov Taman şəhərindəki hərbi əsirlər üçün düşərgəyə göndərildi. Buradan əsirləri Kerç şəhərinə yollayırdılar. Ağır yaralı Q. Muxtarov hospitala köçürüldü.

Müalicədən sonra onu Ukraynanın işğal olunmuş şəhər və kəndlərinin mülki əhalisi ilə birlikdə Almaniyaya yolladılar (almanlar onun keçmiş döyüşçü olduğunu bilmirdilər). Qulu Muxtarov 1944-cü ilin mayına qədər Qərbi Almaniyanın Verme şəhərinin hərbi əsirlər düşərgəsində saxlanıldı. Burada ondan ağac doğramaqda, küçə süpürməkdə və başqa işlərdə istifadə edirdilər. Sonra onu Fransanın Nansi şəhərindəki hərbi əsir düşərgəsinə aparırlar. İki fransız əsir və rus Q.D.Vasilyev ilə birgə qaçmaq fikrinə gəlir. 20 iyul 1944-cü ildə onlar razılaşdılar ki, meşəyə odun doğramağa gedərkən Nansi şəhərinin digər tərəfinə qaçsınlar. Danışdıqları kimi, buradan yerli vətənpərvərlər onları fransız şəhəri Belfora qədər ötürdülər. Gec olsa da fransız dostları Q. Muxtarovu və Q.D.Vasilyevi Fransanın Nim şəhərinə qədər ötürürlər və onlar Sovet Partizan Alayına qoşulurlar. Tezliklə Q. Muxtarov 2-ci batalyonun 2-ci bölüyün 4-cü taqımına komandir təyin olunur. O, öz partizanları ilə birlikdə Fransanın azadlığı uğrunda öz töhvəsini vermiş, hərbi əməliyyatlarda və çıxışlarda iştirak etmişdir.

1945-ci ilin oktyabrında 1-ci Sovet Partizan Alayı buraxıldı və keçmiş Sovet hərbi əsirləri Sovet Hərbi nümayəndəliyinə təhvil verildi. Almaniyanın Potsdam və Serbet şəhərlərində "NKVD"-nin yoxlama məntəqəsindən keçdikdən sonra onu Smolensk şəhəri yaxınlıqdakı dislokasiya olmuş 5-ci atıcı diviziyanın 55-ci ehtiyat atıcı alayına təhvil vermişlər. O, 1945-ci ilin dekabrında Sovet Ordusundan tərxis olunmuş və doğma Ağcabədi rayonuna qayıtmaq icazəsi almışdır.

O, dünyasını dəyişənə qədər Ağcabədi rayon Veteranlar Təşkilatının fəal üzvlərindən biri olmuşdur.

Şəfa Mövsümlü
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu

## Mussolinini həbs edən azərbaycanlı kim idi?



Qazax şəhərində anadan olan və 1941-ci ildə müharibəyə gedən Vilayət Hüseynov döyüşün ilk günlərində əsir düşür. Lakin İtaliyan Valter Audisin rəhbərlik etdiyi partizan dəstəsinə qoşulur. Onunla birgə Azərbaycandan bir neçə nəfər də olur. İkisinin adı Həmzə və Bəşirin adı da mənbədə qeyd edilir.

1945-ci il, aprelin son günləri almanlar və Mussolininin tərəfdaşları İsveçrə sərhədinə tərəf sıxışdırılırdı. Xəbər gəldi ki, Mussolini İtaliyanı tərk etməyib, buralarda gizlənir. Hər tərəfdə onu axtarırdılar. 1945-ci il, aprelin 27-si komandanlıqdan əmr gəldi ki, bu gecə Mussolinini sağ-salamat tutmaq üçün "Qara bəbir" adlı xüsusi bir əməliyyat keçiriləcək. Partizanlar Po çayından ayrılan, İtaliyanın bir hissəsini suvaran dərin kanalı mühasirəyə almışdı. Kanalın sol tərəfində partizanlar, sağ tərəfində isə italyanlar idi. Səhərə yaxın hava işıqlanmışdı. Birdən sağ tərəfdən kolun arxasından kimsə çıxıb bir göz qırpımında kanala tullandı. Mussolini idi...Bir elə millətdən heç kəs cəsarət edib onu tutmaq üçün çaya atılmadı. O, isə sürətlə üzə-üzə, ilan kimi şütüyüb uzaqlaşırdı.

Vilayət Hüseynov dərhal kanala tullandı və suyun altında yox oldu. Hamı diqqətlə baxırdı, amma Vilayət görünmürdü. Bir qədər sonra o, Mussolininin düz arxasında suyun altından çıxdı. Əli ilə Mussolininin boynundan yapışıb onu sahilə tərəf çəkməyə başladı. Sahilə çıxanda partizanlar Mussolinini tutdular. Orada Vilayətin bir ayağı suda, bir ayağı quruda şəklini çəkdilər. Vilayət Hüseynov döyüşlərin birində qəhrəmancasına həlak oldu.

Vilayət Hüseynov haqqında Fransa Prezidenti Şarl De Qoll Moskvada və Bakıda olanda danışıb. O, Əhməd Mişel (Əhmədiyyə Cəbrayılov) barədə danışan zaman Vilayətin də partizan hərəkatında rolunu xüsusi vurğulayıb.

# O dağda qələbə bayrağını da azərbaycanlı döyüşçü qaldırıb

Rusiya Dövlət Dumasının deputatı Pavel Şperov aprelin 13-də - Simferopolun alman-faşist işğalçılarından azad edilməsinin 75-ci ildönümündə 77-ci atıcı diviziyasının hərbçilərinin xatirəsini yad edib, Sapun-dağın ətəyində azərbaycanlı döyüşçülərin memorialına çiçək dəstələri düzüb. “Aprelin 13-ü Krım tarixinə əbədi yazılıb. Düz 75 il əvvəl bu gün sovet əsgərləri qanlarını axıdaraq günbəgün faşizm taununun caynaqlarını qırırdılar və bizim şəhərləri azad edirdilər. Bu gün bu yer təsadüfi seçilməyib. Simferopolun azad edilməsində məhz 77-ci atıcı diviziya əsas rol oynayıb.



SSRİ Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə hərbi birliyə “Simferopolski” fəxri adı verilib. Amma diviziya özünün başqa adı ilə də məşhurdur - Azərbaycan diviziyası. Çünki 1943-cü ildə yenidən təşkil ediləndən sonra onun sıralarına təxminən 1,5 min azərbaycanlı əsgər və zabit çağırılıb” - deyə RF Dövlət Dumasının deputatı, MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə Komitənin üzvü Pavel Şperov bildirib. “Keçmiş SSRİ üzvləri olan dövlətlərin hərbi-vətənpərvərlik sahəsində aktiv beynəlxalq əməkdaşlığı sovet qəhrəmanlarının igidliklərinin yaddaşlarda qorunmasının əsl təminatı olmalıdır. Ümid edirik ki, Rusiya və Azərbaycan arasında uzun illər davam edən dostluq ayrı-ayrı siyasi qüvvələrin ambisiyalarının qurbanı olmayacaq. Mən şəxsən buna kömək etməyə hazıram” - deyə Pavel Şperov əlavə edib.

Abidənin qoyulması təşəbbüsünü irəli sürən Ulu Öndər Heydər Əliyev 1974-cü ildə onun açılışını edib. O da maraqlıdır ki, 45 il əvvəl təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak edib.

Bu xatirə aksiyasında Sevastopolun azərbaycanlı icmasının sədri Elman Mustafa oğlu Mustafayevin başçılığı altında azərbaycanlılar da iştirak edib.

77-ci azərbaycanlı diviziyası ən birincilərdən Sevastopola girib, mayın 7-də sarsıdıcı zərbə ilə Sapun-dağını ələ keçirib. Bəzi tarixçilərə görə, ələ keçirilən yüksəklikdə qələbə bayrağını da azərbaycanlı döyüşçü qaldırıb.



Sapun-dağın ətəyindəki döyüş yerlərində qurulan abidə üzərindəki yazıda deyilir: “Qırmızı Bayraqlı Suvorov Ordenli Serqo Orconikidze adına 77-ci Simferopol atıcı diviziyasının döyüşçülərinə - Sapun-dağa hücumda iştirak edən Azərbaycanın mərd oğul və qızlarına (1944-cü ilin mayı).

## Fransa partizan hərəkatının əfsanəvi döyüşçüsü



Fransada Armed Mişel adı ilə tanınan Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov 1920-ci ildə Şəki rayonunun Oxud kəndində anadan olmuşdur. Gənc Əhmədiyyə müharibə başlamazdan əvvəl hərbi xidmətə çağırılır. Onu Nevinnomısk təyyarəçilik məktəbinə yollayırlar. Bir neçə ay hazırlıq kursu keçdikdən sonra kiçik leytenant rütbəsi alır. Hərbi xidmətinin bitməsinə az bir müddət qalmış II Dünya müharibəsi başlayır.

1942-ci ilin aprel ayında Əhmədiyyə Ukraynanın Donbas şəhərinə göndərilir və 350-ci alayda siyasi rəhbər köməkçisi təyin olunur. Döyüşlərdə fərqləndiyinə görə baş leytenant rütbəsi alır.

1942-ci ilin aprel-may aylarında Ukraynadakı əməliyyat zamanı Əhmədiyyə Cəbrayılovun təyyarəsi Kursk ətrafındakı döyüşlərdə vurulur. O, İzyum çayı yaxınlığında ağır yaralı vəziyyətdə almanlara əsir düşür, Barbinka və Lvovdakı həbs düşərgələrinə göndərilir.

Əhmədiyyəni yoldaşları ilə birgə vaqonlara mindirib əvvəlcə Polşaya, daha sonra isə Almaniyaya yola salırlar. Burada əsirlərin sayı həddən artıq olduğuna görə onların bir hissəsini Fransaya göndərmək məcburiyyətində qalırlar.

1943-cü ildə Əhmədiyyə bir qrup dustaqla birgə Daha ölüm düşərgəsinə göndərilir. Onlar qaz kamerasına salınırlar. Bir müddət sonra qarovulçular kameradan çıxaranda onlardan yalnız bir nəfər sağ qalır. Bu, Əhmədiyyə Cəbrayılov idi.

O, əvvəlcə fransız dilini öyrənir və tezliklə partizan hərəkatına qoşulur. Ona "Xarqo" ləqəbi verilir.

Əhmədiyyə cəbhədə bir neçə - "Armed Mişel", "Fraji", "Xarqo" və başqa adlarla Fransanın azadlığı uğrunda döyüşlərdə iştirak edir. İşğalçı alman faşistləri onun başına 10 min alman markası məbləğində mükafat təyin edirlər.

Qızğın döyüşlərdə partizan dəstəsi tərkibində vuruşan Əhmədiyyə Paris şəhərinin azad olunmasında da iştirak edir. Elə həmin gün general Şarl de Qolla görüşür. Bu görüşü bir fotoşəkil də təsdiqləyir. Müvəqqəti Fransa hökumətinin prezidenti olan Şarl de Qollun iştirak etdiyi banketə Əhmədiyyə də dəvət alır.

Müharibə başa çatanda hamının Armed Mişel kimi tanıdığı Əhmədiyyə əsl qəhrəmana çevrilir. Müharibə bitdikdən sonra Fransada onun hərbi şücaətlərini layiqincə qiymətləndirirlər və ona Fransanın Milli Qəhrəmanı adı verilir. O, "Fəxri legion" ordeni ilə təltif olunur. Bu orden hərbi paradlarda, rəsmi keçidlərdə ona generallardan qabaqda getmək hüququ verirdi.

1946-cı il noyabrın 25-də Fransa prezidenti Şarl de Qollun köməkliyi ilə Əhmədiyyə vətənə qayıdır.

1995- ci ildə faşizm üzərində qələbənin 50 illiyi münasibətilə Fransa hökuməti ona fəxri təqaüd, həmçinin medallar göndərir. Təəssüf ki, bu mükafatlar Əhmədiyyə Cəbrayılova ölümündən sonra gəlib çatır.

## *Əhmədiyyə Cəbrayılovun İkinci Dünya müharibəsində Fransa müqavimət hərəkatında iştirakına gəldikdə isə onun yaxın dostu, döyüş yoldaşı Rene Şambarın məktublarından*

...Fransaya sonuncu səfəri zamanı o, həmin hadisəni mənə danışmağa çalışdı.Onu bir qrup yoldaşı ilə birgə soyunmağa məcbur etmişdilər. Bu zaman ağlına gəlmişdi ki, dəsmalı ağzına qoysun. Sonra onları qaz testindən keçirmişdilər. Təcrübə bitdikdən sonra əsirləri çıxaran gözətçilər SS həkiminə bildirdilər ki, əsirlərdən biri ölməyib. Həkim isə demişdi ki, dəyməyin, onsuz da, öləcək. Bu hadisə SS həkimi üçün istisna hal idi. Amma Xarqo əməliyyatda iştirak edən bir gözətçi vasitəsilə özünə gələ bilmişdi.

Xarqo yenidən düşərgə həyatına qayıtdı və yoldaşları kimi, düşərgədən kənarda işlərə cəlb olundu. Çox ehtimal ki, Valrua şaxtalarında işləmişdi. Onun bir çox yoldaşı ağır iş şəraiti səbəbindən orada öz həyatını itirmişdi. Həmin yerin lap yaxınlığındakı məzarlıqda çoxlu əsirlər yatır. 1964-cü ildə Valruada çəkilmiş sənədli filmdə görürük ki, Əhmədiyyə Cəbrayılov ölkəsindən gətirdiyi dirəklə yoldaşlarının məzarlarını axtarır. 1943-cü ilin sonunda onun olduğu konvoy Rodezdəki kazarmaya göndərilir. Məhz orada o, Fransa müqavimət hərəkatı ilə əlaqəyə girməyə çalışır və çox ehtimal ki, həmin vaxt azərbaycanlı olmayan bir yoldaşla görüşür. Özünün dediyinə görə, müqavimət hərəkatının üzvlərindən fransızlarla, bir çexlə, bir polyakla, bir rusla əlaqə yaradır. Araşdırmalara əsasən, həmin rusun Qriqori Rumanyuk olduğunu söyləmək olar. Onun dediklərinə görə, onlar kiçik bir kilsədə toplaşırdılar. Müharibədən sonra - 1999-cu ildə cəbhə yoldaşlarıyla görüşdə belə məlum oldu ki, Rodezdə yerləşən kafelər, barlar müqavimət hərəkatına dəstək verib və həmin məkanlardan gizli toplantı yerləri kimi istifadə olunub. Bonafu, Diet və Kabriolun fikirlərini nəzərə alsaq, Rodezdəki Fransa müqavimət hərəkatında azərbaycanlılar təşkilati fəaliyyət göstərib və orada Lot departamentinin partizanlarının məsul nümayəndələri olublar. Əhmədiyyə, Besi adlı şəxsdən söhbət açır. Üstündən bu qədər vaxt keçəndən sonra həmin kazarmada azərbaycanlılarla bağlı baş verən o zamankı hadisələri anlamaq istəyirdik. Əhmədiyyə Mişel bunu bilirdi və bizə izah etməyə çalışırdı. Biz həmin dövrə kifayət qədər əhəmiyyət verməmişdik. Şahidlər təsdiqləyirlər ki, gestapo və SS üzvləri sayıq, amansız idilər. Kazarmada hər gün avtomat səsləri eşidilirdi. Nasistlərin kremasiya sobaları var idi. Bu səbəbdən də Rodez məzarlığında dəfn edilənlərin sayı ölənlərin sayından azdır.



Arxivlərdə belə bir rəsmi məlumat var ki, azərbaycanlıları daşıyan yük maşını güllələnmə məqsədilə Müqəddəs Radeqond səngərinə yola düşür. Yolda onlar müqavimət göstərirlər və yeddi nəfər qaçmağa nail olur. Bunu əminliklə demək olar ki, nasistlər Aveyron departamentində xeyli azərbaycanlı öldürmüşdü.

Əhmədiyyə Mişel Cəbrayılov Rodezdə baş verənlər haqqında çox şey bilirdi. O, bu barədə öz xatirələrində yazmışdı. Sənədli film çəkilişi üçün Fransaya səfəri zamanı onu anlaya bilmirdik. O, yaşadığı bu faciəni həyat yoldaşıma və mənə izah etməyə çalışırdı. Əhmədiyyə bizi birinci xiyabandan sol tərəfdə yerləşən məzarlığa apardı, orada böyük bir çəmənlik yerləşirdi. O, xanımımla birgə məzarlığın çıxışına qayıtdı və yola çıxıb məzarlığı fırlanaraq, buradan necə qaçdığını əyani göstərdi...

# Səftər Quliyev yaxınları tapılan ilk "Dulaq" qurbanlarındandır



1942-ci ildə Porxov yaxınlığındakı düşərgədə işgəncəyə məruz qalmış və həlak olmuş azərbaycanlı əsgər Səftər Quliyev...

Pskovsk bölgəsində, Porxovdan 3,2 kilometr şərqdə "Dulaq -100" alman-faşist düşərgəsində öldürülən və işgəncə görən 85 min nəfərin xatirəsinə həsr edilmiş memorial var.

“Dulaq”da həlak olan əsirlərin yaxınları axtarılmağa başlanmışdır. Bu ideya orada ucaldılan abidənin bərpa edilməsi işləri başlanan zaman yaranıb. Əvvəlcə heç kim nədən başlamaq lazım olduğunu, kimə və hara yazmaq lazım olduğunu bilməyib. Yerli etnoqraf mütəxəssis Sergey Yeqorovun sayəsində Porxov muzeyində 400 nəfər həlak olan şəxsə aid kartların ortaya çıxması ilə axtarışa başlanıb.

Bu düşərgədə həlak olanlardan biri həmyerlimiz Səftər Quliyevdir. O, “Dulaqda həlak olanların siyahısında Kuriyev kimi qeydə alınmışdır. Onun haqqında digər məlumatlar-yaşı, doğulduğu kənd və digər məlumatlar da üst-üstə düşür.

Səftər Quliyev yaxınları tərəfindən müharibədən sonra axtarılıb. Lakin həlak olması və ya yaşaması haqqında yaxınları heç bir informasiya əldə edə bilməyiblər. Son zamanlarda nəvəsi Kamal Quliyev babası Səftər Quliyev haqqında məlumat alıb.

Səftər Quliyev yaxınları tapılan ilk "Dulaq" qurbanıdır.

Qeyd edək ki “Dulaq” qurbanlarının xatirəsinə həsr edilmiş "Göz yaşları Gölü" abidəsi doğmaları müharibədən qayıtmayan və onların taleyindən illər sonra xəbər tutan insanların kədərinin simvoluna çevrilib.

1941 - 1945
AZƏRBAYCAN VETERANI

# Sizin göstərdiyiniz qəhrəmanlıq və şücaətlər gəncləri yeni qələbələrə səsləyir

***Kəngərlilər nəslinin nümayəndələrindən biri, Böyük Vətən müharibəsi iştirakçısı, əmək veteranı, texniki elmlər doktoru, professor, Azərbaycan Respublikası Prezidentinin Fərdi təqaüdçüsü Ulduz Kəngərli***

Ulduz Kəngərli 1924-cü ildə İrəvan şəhərində anadan olmuş, ilk təhsilini Qərbi Azəbaycanın İrəvan şəhə-



rində almışdır. 1941-ci ildə, Böyük Vətən müharibəsinin başladığı dövrdə, 17 yaşında 9-cu sinifi əla qiymətlərlə bitirmişdir. Daha sonra, hərbi komissarlığa müraciət edərək, onu Leninqrad cəbhəsində vuruşan qardaşı Nurəddin Kəngərlinskinin olduğu hərbi hissəyə göndərilməsini xahiş edir. Lakin 17 yaşı olduğu üçün geri qaytarılır və təhsilini davam etdirmək üçün onu, İrəvanda yeni yaradılmış artilleriya məktəbinə göndərirlər. Orta səviyyəli artilleriya məktəbini bitirdikdən və 18 yaşı tamam olduqdan sonra, Tbilisidəki mühüm artilleriya zabitlik məktəblərini bitirərək artilleriya zabiti kimi 3-cü Ukrayna cəbhəsində döyüşən, Baş Komandanlığın tabeçiliyindəki, 9-cu qırıcı artilleriya briqadasının tərkibində olan 1172-ci qvardiyaçı, Budapeşt adına alayda əvvəlcə vzvod komandiri, sonralar isə batareya komandirini əvəz edərək xidmət etmişdir.

Bir sıra döyüşlərdə fəal iştirak etmiş, Macarıstanda, Balaton uğrundakı döyüşlərdəki fəaliyyətinə görə Qırmızı Ulduz ordeninə layiq görülmüş, bundan əlavə o, 2-ci dərəcəli Böyük Vətən müharibəsi ordeni və bütün Böyük Vətən müharibəsi yubiley medalları ilə də təltif edilmişdir.

1945-ci il mayın 1 -də, Böyük Vətən müharibəsinin qələbəsi münasibəti ilə, 1172-ci Qvardiyaçı Budapeşt alayının rəhbərliyi bir neçə zabitin, o cümlədən Ulduz Kəgərlini də əla hərbi əməliyyatları, igidlik və döyüşdə cəsarətinə görə, alayın açıq döyüş bayrağı önündə foto şəklinin çəkilməsinə layiq görmüşdür və Ulduz Kəngərlinin anası Bülbül Xanım Kəngərlinskayaya tərif məktubu göndərmişdir.

Ulduz Kəngərli müharibədən sonrakı dövrdə gənc nəslin elmə, biliyə yiyələnməsi üçün əlindən gələni əsirgəməmişdir.

### *Veteran bombardımançı təyyarəçimiz -Damət Nəbiyev*

Damət Nəbiyev 1925-ci ildə Yevlax rayonunun Vərvərə kəndində anadan olub. 1943-cü ilin fevralında 17 yaşında müharibəyə yollanır. Qəhrəmanımız bombardımançı təyyarəçi kurslarına göndərilir.

"1943-cü ilin fevralın 15-də mən orduya yazıldım. Ölkə təhlükədə idi və hər birimiz Vətənin müdafiəsinə qalxmalıydıq. Bizi Sumqayıtın ehtiyat alayına gətirdilər. Heç bir ay keçməmişdi, iki zabit gəlib aramızdan iki nəfəri Gürcüstandakı Aviasiya məktəbində oxumaq üçün seçdi. Onlardan biri də mən idim", -deyə veteran xatirələrini danışır.

D. Nəbiyev Ukrayna, Polşa ətrafında döyüşlərdə iştirak edib və Berlinə qədər döyüş yolu keçib. "İndiyə kimi yadımdadır. Varşava üzərində yeddinci uçuşum idi, dostum yaralanmışdı, bizi atəşə tutmuşdular. Bir mühərrik zədələnəndən sonra, Visla şəhərinin ətrafında məcburi enməli olduq. Yaxşı ki, ərazi salamat idi və biz xilas olduq", -deyə Damət kişi xatırlayır.

Qəhrəmanımız Varşavanın azad olunmasında iştirak edib, sonuncu döyüş uçuşunu isə onlar 1945-ci il 2 may tarixində Berlin səmasında edib. "İlk uçuşum Polşanın Varşava şəhərinə olub. Çünki Varşavanı almaq, doğurdan da, çox çətin idi. Varşavanın müdafiəsi üçün almanlar üç cərgə zenit artilleriya qurğuları yerləşdirmişdilər. Bizim üçün ən qorxulu döyüş Varşava şəhərinin ətrafında baş verib. Ona görə də, bizi səkkizinci uçuşdan sonra vurmuşdular. Bunun ardınca Poznan şəhəri sovet orduları tərəfindən mühasirəyə alınmışdı. Həmin vaxt bizim aerodromumuz elə Poznan şəhərinin öz aerodromunda idi. Hətta Hitler həmin vaxt mühasirədə qalan qoşunlarına kömək üçün təyyarələrlə oraya desant, hərbi silah-sursat, yeyinti və geyim ləvazimatları tökürdü.

Ən nəhayətdə isə, Poznan şəhərində sovet ordularına təslim edildi. Sonuncu bizim ən gərgin döyüş uçuşumuz Berlin şəhərinə idi. 1945-ci ilin aprel ayının axırlarında bizim ordular artıq Berlin şəhərinin ətrafını zəbt etmişdi. Berlin şəhərinin ətrafında olan meşəlikdə alman ordularının çoxlu zirehli texnikaları yerləşdirilmişdi. Sovet orduları almanla-



rın bu bazalarını zərərsizləşdirmək üçün ardıcıl hərbi əməliyyatlar keçirirdi. Bizə əmr olunmuşdu ki, oranı tamamilə bombardıman edərək, piyada qoşunların Berlinə daxil olması üçün yolun açılmasını təmin edək.

Mən Qələbə gününədək döyüşmüşəm. Dostlarımın çoxu həlak olub, bir çoxu yaralanıb. Özüm sinəmdən və başımdan yaralanmışam, paraşutla tullananda, bilmirəm, necə sağ qalmışam. Biz həmişə qələbə çalacağımıza inanırdıq", -deyə müharibə veteranı sözünü bitirir.

Bundan başqa Damət Nəbiyev üç il Ağdamda, 1973-cü ilədək isə Gəncədə xidmət çəkib. O, uzun müddət cavanların hərbi hazırlığı ilə məşğul olub, müharizələr oxuyub. Müharibə veteranı Azərbaycan torpağında böyüyüb başa çatdığı ilə fəxr edir. Qəhrəman veteranımız yaşının bu dövründə də gənclərin arasında olur. Müxtəlif tədbirlərdə onlara vətənpərvərlikdən, eləcə də, keçdiyi şərəfli döyüş yolu haqqında maraqlı faktları danışır. Damət Nəbiyev tez-tez cəbhə bölgəsində olur, əsgər və zabitlərlə görüşür.

### *Yorulmaq bilməyən veteran*

Nəsirov Əli Surxay oğlu 1921-ci il İmişli rayonunda anadan olub.

Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar 1942-ci ilin fevral ayında Biləcəri hərbi kommissarlığına çağırılmışdır. Gürcüstanın Kutaisi şəhərinə 3 aylıq hərbi təlimlərdə iştirak etmiş, 1942-ci ilin may ayında Ukraynanın Qvardeyskiy şəhərində 117 saylı mexanizmləşdirilmiş korpusda, sonra isə 147-ci Qvardeyskiydə xidmət etmişdir. Bir müddətdən sonra Ukraynanın Xarkov şəhərində 13 saylı atıcı diviziyada tərkibində döyüşmüşdür. 1945-ci ildə Berlinin alınmasında iştirak etmişdir.

Müharibə bitdikdən sonra Ukraynanın Lvov şəhərinə qayıtmış, 1946-ci ildə isə Azərbaycana, İmişli rayonuna qayıdıb kolxozda işləməyə başlamışdır.1951-ci ildən isə İmişli rayon Dəmir Yolları idarəsində mexanik vəzifəsində çalışmış, 1959-cu ildə isə Bakı şəhərinə gəlib uzun müddət AzərNeftin nəzdindəki



Gəmi təmiri zavodunda matros-mexanik vəzifəsində çalışmışdır.

Böyük Vətən müharibəsi veteranı Əli Nəsirovun sinəsini orden və döş nişanları bəzəyir. Qocaman veteranın 3 övladı və 6 nəvəsi var.

### *Müharibənin hər anı dəhşət və ölüm idi....*

Nəsimi Rayon Veteranlar Təşkilatının sədri İsmayıl Mövsüm oğlu Fərəcov 1 iyul 1924-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda dünyaya göz açmışdır. 1942-ci ildə hərbi xidmətə çağırılan və Kazım İsmayılovun rəhbərlik etdiyi 77-ci Stavropol diviziyasında qulluq edən İsmayıl Fərəcov müharibənin ən alovlu vaxtlarında daim ön cəbhədə olmuş, eyni zamanda alman ordusunun dərinliklərində kəşfiyyatçı kimi böyük hünər göstərmiş qəhrəman döyüşçülərimizdəndir.

Mozdokdan başlamış Berlinə kimi, Moldoviya, Çexoslovakiya, Ruminiya, Polşa, Macarıstanda vuruşmuşdur. Müharibədə hər anı dünən kimi xatırlayır. İllər xatirələri daha da



möhkəmləndirib sanki: Tez-tez çətin vəziyyətlərlə üz-üzə qaldıqlarını deyən qəhrəman kəşfiyyatçı iki dəfə yaralanıb: "Alman ordusunun dərinliklərinə qədər gedib çıxmışdıq. Bir dəfə ot tayasının içərisində gizlənib müşahidə aparırdıq ki, Sovet ordusu oranı bombalamağa başladı. Almanlarla bərabər biz də yaralandıq. Gicgahıma qəlpə girib, indi də əziyyətini çəkirəm. Bir də kürəyimdən yara almışam. Yenə kəşfiyyat çıxışlarımızın birində, Dnepr çayını keçirdik ki, almanlar bizim gəldiyimizi anlayıb atəşə tutdular. Müdafiəmiz zəif olduğundan geri qayıtdıq. Orada itkilərimiz çox oldu. Buna baxmayaraq ruhdan düşmədik, növbəti dəfə yenə getdik və almanları yerlərinə oturtduq".

Müharibənin hər anı dəhşət və ölüm idi. "Öldürdüyüm almanların sayı-hesabı yox idi. Qeyri-təvazökar səslənsə də, şişirdir desələr də, and içirəm ki, bu, həqiqətdir. O müharibə ölüm-qalım müharibəsi idi. Heç kim sağ qayıdacağını düşünmürdü. Əgər gecə dəstəmizdə 60-70 nəfər var idisə, sabah xəbər çıxırdı ki, 20-25 nəfəri həlak olub. Gecəgündüz vuruşurduq. Qışda əziyyətimiz daha çox olurdu".

İsmayıl kişi Stavropoldan yadigar gətirdiyi saatını hələ də qolunda gəzdirir və işlədiyini deyir. Saatı kimi özü də sağlam və gümrahdır. 74 ildir ki, hər dəfə bu saata baxdıqda müharibəni və silahdaşlarını xatırlayır.

İsmayıl müəllim hal-hazırda Respublikanın ictimai həyatında fəallığı ilə seçilən veteranlarımızdandır. O, Nəsimi rayon Veteranlar Təşkilatının sədri olaraq daima öz ictimai işləri ilə seçilir, həmçinin rayon ərazisində olan veteranların fəallığına da hər zaman şərait yaradır.

### *Qocaman veteran-Quliyev Məcid Cavad oğlu*

Faşizm üzərində qələbədən 74 il ötür. Hər ilin 9 mayını Qələbə Günü kimi qeyd edirik. Qələbənin qazanılmasında əvəzsiz xidmətləri olan veteranlarımızın sayı isə ilbəil azalmaqdadır. Qocaman veteranlarımızdan biri də 1918-ci il təvəllüdlü Bərdə sakini Quliyev Məcid



Cavad oğludur. Döyüşçü veteranların içərisində demək olar ki, ən yaşlılardan biridir Məcid baba.... Bu ilin iyun ayının 7-də Mustafaağalı kənd sakini Məcid babanın 101 yaşı tamam olacaq.

Müharibə başlayan vaxt iyirmi iki yaşlı Məcid Quliyev Şimali Qafqazın Mozdok şəhərində hərbi xidmətə başlayır. Müharibə illərini Məcid baba belə xatırlayır: "Böyük Vətən müharibəsi çox zülmlü, əzablı, çox dəhşətli idi. Əzabəziyyətlə doluydu. Yaxşı geyimimiz, yeməyimiz yox idi. Bütün ordu çox ağır günlər keçirirdi".

Rəşadətli döyüş yolu keçən Məcid Quliyevin Mozdokda gedən döyüşdə yaralanır. Müalicə olunması üçün onu Tiflisə hərbi hospitala köçürürlər: "Tiflisdə ay yarımlıq müalicə və bərpa kursu keçəndən sonra məni "Avçala" adlandırılan təlim düşərgəsinə göndərdilər. Orada yenidən hərbi hazırlıqlardan keçəndən sonra isə döyüşə yolladılar".

Məcid Quliyev hərbi xidmət vaxtı rus dilini yaxşı bilmirmiş. Özünün də dediyi kimi, "da", "net"-lə çulunu sudan çıxarırmış. Bir sözlə, dil bilgisinin olmaması onun üçün heç bir çətinlik törətməyib. Müharibədə dilindən, dinindən asılı olmayaraq, bütün döyüşçülər bir-birinə qardaş kimi, doğma, əziz insan kimi bağlanıb. 416-cı azərbaycanlı diviziyası yarandıqdan sonra isə qəhrəman döyüşçümüz döyüş yolunu həmin diviziyanın tərkibində davam etdirib. Azərbaycanlıların milli atıcı diviziyasında keçirildikdən sonra isə bütün çətinlikləri aradan qalxıb.

Məcid baba Böyük Vətən müharibəsini xatırladıqca, bu haqda danışdıqca qəhərlənir. Müharibədə itirdiyi dostlarını, həmvətənlərini xatırladıqca, sözləri boğazında düyünlənir, gözləri uzaqlara zillənir.

Məcid baba və onun kimi minlərlə həmvətənlərimiz qürur duyulacaq addımlar atıblar. Böyük Vətən müharibəsinin qələbə ilə nəticələnməsində onların, əməyi, zəhməti olub. Biz Məcid Quliyevin timsalında bütün müharibə veteranlarımızla fəxr edirik.

### *Veteran tibb işçisi, Böyük Vətən müharibəsinin ağ xələtli şahidi*

Böyük Vətən müharibəsi iştirakçısı Səfər Musayev 1922-ci ildə anadan olub. Bərdə rayon Mustafaağalı kəndində yaşayan ağsaqqal veteranımız ixtisasca feldşerdir. O, 1938-1941-ci illərdə Bakı Feldşerlik Məktəbində təhsil alıb. 1943-cü ildə hərbi xidmətə onu elə tibb işçisi kimi çağırıblar. Müharibəyə gedən yolu Şimali Qafqazdan başlayıb. Ən məsuliyyətli yerlərə tibb işçisi kimi göndərilib. Cəbhə xəttinə yaxın yerdə yaralıları qəbul eləmək üçün təşkil olunan məntəqədə fəaliyyət göstərib. Bir müddət Gürcüstanın Orconikidze hospitalında daha sonralar Gürcüstanın səhiyyə naziri olmuş Aşot Quraşvili, dövlət vəzifəsinə yüksəlmiş Tamara Cuqaşvili ilə bir yerdə çalışıb. Oradan isə Qara dəniz sahillərinə doğru - müharibənin daha şiddətli, amansız döyüşlərinin getdiyi Tuapse şəhərinə aparılıb.



Rus dilində mükəmməl danışan Səfər Musayev hərbi xidmətdə bu dili bilməyən azərbaycanlılara da kömək edirmiş. Dediyinə görə, rus dilini bilməyən həmvətənlərimiz üçün baş verən dəyişikliklər barədə söhbətləri tərcümə edir, başa salırmış. Bir sözlə, müharibədə iştirak edən xalqlar arasında ünsiyyət qurmaq, tərcüməçilik eləmək vəzifəsini də yerinə yetirirmiş. Səfər kişi bütün bunlarla yanaşı milli və dünya musiqisinin də incəliklərinə bələddir.

Səfər Musayev Ukrayna cəbhəsində artilleriya batareyasında tibb işçisi olub. Zabit rütbəsi alıb xidməti davam etdirmək istəsə də, səhhətində yaranmış problem buna imkan verməyib. 1946-cı ildə ordudan tərxis olunaraq Azərbaycana, doğma Mustafaağalı kəndinə qayıdıb.

Dediyinə görə, veteran tibb işçisinə dövlət daim diqqətlə yanaşıb, dəfələrlə döş nişanları ilə təltif edilib. Qocaman veteranımız aldığı medalları, döş nişanlarını şərəflə yaxasında gəzdirir.

### *77-ci dağatıcı diviziyanın heyətində döyüş yolu keçən azərbaycanlı: Mir Məhəmməd Əliyev*

77-ci dağatıcı diviziyanın heyətində şərəfli döyüş yolu keçən azərbaycanlılardan biri Astara rayonunun Şiyəkəran kəndində dünyaya gəlmiş Mir Məhəmməd Əliyevdir. 99 yaşlı Böyük Vətən müharibəsi veteranımız Mir Məhəmməd baba 1941-ci ilin sentyabrında könüllü olaraq müharibəyə gedib.

Ağsaqqal veteran döyüşlərə Krım cəbhəsindən başlayıb. Savadlı olduğu üçün onu manqa komandiri təyin ediblər. Tabeliyinə bir Goranboy rayonundan olan pulemyotçu və 9 dağıstanlı əsgər verilib. 1941-ci ilin dekabrında, əsasən azərbaycanlılardan ibarət olan 77-ci dağatıcı diviziyasının 51-ci ordusunun tərkibində Kerç - Feodosiya desant əməlliyyatında iştirak edib. Krımdan başlayaraq, 11000 km məsafəyə yaxın döyüş yolunu qət edib.

Mir Məhəmməd Əliyev Krımdan sonra Ukraynada döyüşüb və döyüşlərin birində başından yaralanıb: "Hərbi hospitalda 3 ay qalıb, 1 ay intensiv müalicə aldıqdan sonra 2 ay müa-



licə ala-ala oradakı tibb bacılarına kömək edib. Sonra hospitalın rəisi başından kontuziya aldığını səbəb gətirərək onu yenidən döyüşə buraxmayıb.

Mir Məhəmməd baba sağaldıqdan sonra xidmətini hospitalda davam etdirib, 3 aylıq müalicə müddəti bitdikdən sonra ona hospitalın "starşinası" vəzifəsi verilib. Döyüşlərdə iştirak etməsə də, hospital işçisi kimi qələbə çalınan ərazilərlə irəliləyib.

Veteranımız müharibədən sonra Bakıya qayıdıb, Tibb İnstitutuna qəbul olunub. Daha sonra Özbəkistana köçüb uzun müddət orada yaşayıb.

Mir Məhəmməd baba hər il 9 May - Qələbə Günündə Böyük Vətən müharibəsi veteranları ilə birlikdə 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, həmyerlisi Həzi Aslanovun məzarını ziyarət etdiyini də qeyd edir. Ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşdüyünü xüsusi vurğulayan Mir Məhəmməd baba Qələbə Günü münasibətilə ona bir neçə ölkədən təbrik məktublarının gəldiyini bildirir.

### *Sonuncu süvarilərdən-Tofiq Hüseynov*

Dünyanın ən dəhşətli bəlalarından olan faşizm üzərində qələbədən 74 il ötür. Azərbaycan xalqı da istər ön cəbhədə, istər arxa cəbhədə qələbə üçün öz töhfəsini verib, Dünyanı faşizmdən qurtarmaq üçün canını, malını fəda edib.

Gəncə şəhər sakini Tofiq Hüseynov da gənc yaşlarından odunalovun içinə atılan və qələbədə öz payı olan veteranlarımızdandır. O, 1922-ci ildə Gəncə şəhərində ziyalı ailəsində anadan olub. Hələ məktəb yaşlarından hərbi təyyarəçi olmaq



istəsə də, səhhəti buna imkan verməyib.

Orta məktəbi bitirdikdən sonra, 1941-də hərbi xidmətə çağırılıb. 1942-ci ilə kimi Gürcüstan SSRİ-nin Qori şəhərində təlim keçib və ilk döyüşü olaraq Maykop yaxınlığında olub, Marixal aşırımının azad edilməsi əməliyyatlarında iştirak edib. Bu döyüşdən sonra Tofiq Hüseynov III Ukrayna ordusunun tərkibində 45-ci Qazax süvari qvardiyasının sıralarına qoşularaq, Avropanın içərilərinə kimi şərəfli döyüş yolu keçib. O, 3 dəfə Ali Baş Komandanın imzası ilə yazılı təşəkkürnamə, 1945-ci ildə rəşadətə görə medalı ilə təltif edilib.

Tofiq Hüseynov addım-addım, səngər-səngər Avropanın 5 dövlətində - Rumıniya, Çexoslovakiya, Yuqoslaviya, Macarıstan və Avstriyada mövqelərin ələ keçirilməsində iştirak edib. Qələbəni 1945-ci ilin mayında Avstriyanın paytaxtı Vyanada qeyd edib.

Veteran Tofiq Hüseynov Qələbənin qazanılmasında bir neçə səbəb sadalayır 97 yaşlı veteran: "Birinci növbədə bütün əsgərlərdə qələbəyə, rəhbərə inam, komandirlərə inam böyük idi. Komandir əsgərlə çiyin-çiyinə düşmən səngərinə şığıyanda əsgər daha da ruhlanırdı. Daha fədakarlıqla döyüşürdü. Stalinin "bir addım geri çəkilmək olmaz" əmri var idi. Qorxaqlar, fərarilər yerindəcə güllələnirdi. Azad edilən yerlərdə mülki əhalini incitmək, qarət, oğurluq qəti qadağan idi. Hər səhər düzülüşündə komanda verilirdi ki, əsgərlər çantaları yerə qoysun və iki addım geriyə çəkilsin. Yoxlayırdılar ki, qarət edən olub, ya yox. Bu nizam-intizamın sayəsiydi ki, ağır müharibədən qələbə ilə çıxmağı bacardı Sovet İttifaqı".

Uğurlu döyüşlərlə yanaşı, müharibənin çətinliklərindən də danışan Tofiq kişi bildirir ki, "Müharibə - qələbəsindən, məğlubiyyətindən asılı olmayaraq, bütün halı ilə dəhşətlidir. Aclıq, susuzluq, hər gün insan itkisi, hər gün dəyişən sıra yoldaşların..."

Tofiq Hüseynov ordudan tərxis olduqdan sonra mülki həyatında da çox nailiyyətlərə imza atıb. Uzun müddət Gəncə Şəhər Mərkəzi Mədəniyyət Evinin direktoru, Uşaq Yaradıcılıq Mərkəzinin rəhbəri işləyib. Hazırda 97 yaşının olmasına baxmayaraq, yenə ictimai fəaliyyətlə məşğuldur. O, Gəncə şəhər Nizami rayon Veteranlar Təşkilatının sədri vəzifəsində çalışır.

### *Müharibəni unutmaq olmur*

Fatma Səttarova 1922-ci ildə Bakıda dünyaya gəlib. Ailənin tək övladı olsa da, 19 yaşında könüllü



olaraq müharibəyə yollanıb. Müharibə illərindən heç bir şəkli qalmadığını deyir. Bir neçə il əvvəl mənzili qarət olunanda ordenləri ilə birgə şəkilləri, müharibədən ailəsinə göndərdiyi üçbucaq məktubları da oğurlanıb. İndi müharibə illəri dəhşətiylə birgə sadəcə onun xatirələrində qalıb.

Müharibə ilə bərabər Fatma Səttarova da böyümüşdü, artıq 19 yaşında deyildi. Təcrübəli tibb bacısı idi. Ayağında ağır çəkmələr, çiynində özündən ağır çanta bir səngərdən digərinə qaçırdı. Ordu getdikcə irəliləyirdi, Macarıstana çatanda Fatma Səttarova xəstələnir və bu səbəblə də ordudan tərxis olunur. 1945-ci ilin fevralında Fatma Səttarova Bakıya, ailəsinin yanına geri dönür. 3 ay sonra mayın 9-da sovet ordusu faşizmin üzərində qələbə çalır.

“Müharibədən danışmaq mənə əzab verir. O günləri xatırlamaq belə istəmirəm. Allah o dəhşətləri kimsəyə yaşatmasın! Müharibəni unutmaq da olmur. 74 ildir qurtarıb, hələ də ondan danışırıq. Müharibənin zülmünü yaşayan bilər ancaq”...

97 yaşlı II dünya müharibəsi veteranının 4 övlad, 11 nəvə, 25 nəticəsi var.

### *Oryol-Kursk qövsünün döyüşçüsü - veteranı Famil Əliyev*

Böyük Vətən müharibəsi veteranı Famil Əliyev 1918-ci ilin əvvəlində Cəbrayıl rayon Balyand kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Pedaqoji texnikumda təhsil alıb. Daha sonra 1939-cu ildə təyinatla indiki İmişli rayonunun ucqar bir kəndinə müəllim işləmək üçün göndərilib. II Dünya müharibəsi başlayan zaman digərləri kimi



o, Sovet ordusu sıralarına hərbi xidmətə çağırılmışdır. Famil Əliyev 1941 - 1944-cü illərdə Oryol-Kursk qövsündə piyada qoşunlarında 34- cü diviziyanın tərkibində xidmət etmişdir. Müharibədə PTR silahının (tank əleyhinə) nişançısı təyin edilmişdir. Qeyd edək ki, PTR-in çəkisi 17 kiloqram, patronlarının birinin çəkisi 250 qramdır.

Döyüşlərdə bir neçə faşist tankını vurub sıradan çıxarıb. 1944-cü ildə gedən döyüşlərdə hücüm zamanı ağır yaralanmışdır. Yarasının müalicəsi üçün onu arxa cəbhəyə göndərmişlər, daha sonra isə doğulduğu rayona yola salınmışdır.

Faşizm üzərindən Qələbədən sonra Famil Əliyev yenidən müəllimlik işinə qayıtmış, eyni zamanda da Azərbaycan Pedaqoji İnstitutunun Tarix fakültəsində qiyabi təhsil almağa başlamışdır.

1945-ci ildən 1980-ci ilə qədər rayon məktəblərində direktor vəzifəsində çalışmış, sonralar isə Üç para Kənd Soveti vəzifəsinə təyin olunmuşdur.

1993-cü ilin avqustunda erməni faşistləri torpaqlarımızı işğal edəndən sonra Famil kişi məcburi köçkün kimi Xətayi rayonunda müvəqqəti məskunlaşmışdır.

Onun 6 övladı - 3 oğlan, 3 qızı var, hamısı təhsil almışdır.

Famil Əliyev ilə söhbətimizdə ona dövlət tərəfindən diqqət və qayğı göstərildiyinə görə şəxsən cənab Prezidentimiz İlham Əliyevə, Respublika Veteranlar Təşkilatının rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

Famil Əliyev səbrsizliklə torpaqlarımızın işğaldan azad olacağı günü gözləyir. Qocaman veteranımız inanır ki, Prezidentimizin uğurlu siyasəti nəticəsində torpaqlarımız tezliklə işğaldan azad ediləcək və o, həmin günü 9 May Qələbə Günündən daha artıq sevinclə qarşılayacaq.

1941 - 1945
AZƏRBAYCAN VETERANI

# Heç kim unudulmur, heç nə yaddan çıxmır

## OD-ALOV İÇİNDƏN KEÇMİŞ DÖYÜŞÇÜ

... 1942-ci ilin məşəqqətli günləri idi. Bu o vaxtlar idi ki, qəfildən hücum edən alman-faşist qoşunları artıq Şimali Qafqazın ətəklərinə qədər gəlib çıxmışdılar. Mozdok şəhəri ətrafında qızğın döyüşlər gedirdi. Belə bir ağır zamanda Fətulla da Cəlilabad rayonunun Pakrovka (indiki Günəşli) kəndindən cəbhəyə yola salınır. Fətulla Niftullayev o qanlı-qadalı günləri belə xatırlayırdı:

-İlk döyüş yolum Stalinqrad cəbhəsindən başlayıb. 1942-ci ilin iyun ayı idi. Kotelnikov yaşayış məntəqəsi uğrunda ölüm-dirim mübarizəsi aparırdıq. Faşistlər şəhəri talan etmiş, taxıl anbarları olan yerləri yandırıb külə döndərmişdilər. Birdən komandirimiz Aleksandr Zolotnikovun və vzvod komandiri Baloğlan Şükürovun "İrəli, hücum!" sözlərini eşitdik. Mərmilər böyrümüzdə partlayır, güllələr qulaqlarımızın yanından keçirdi. Azğın faşistləri geri oturtmaq üçün sinəmizi qabağa vermişdik. Düşmən məğlub olmaq istəmirdi. Yoldaşlarımızla hücuma keçib düşməni məhv etmək qərarına gəldik. Elə düşündüyümüz kimi əməliyyatı da həyata keçirtdik. Ağır yaralandığım üçün huşumu itirmişdim. Hospitalda gözlərimi açıb özümə gələndə yanımda rayonumuzun Suluçeşmə kəndindən olan Qəhrəman Atayevi və general Həzi Aslanovu gördüm. Həzi Aslanov qayğıkeşlik göstərib dodaqlarımı su ilə islatdı, sifətimdəki qanı sildi. Sonra alnımdan öpərək ayrıldı...

Fətulla Niftullayev sağaldıqdan sonra o yenidən ön cəbhəyə, 77-ci atıcı diviziyasının döyüşdüyü cəbhəyə göndərilir. O, Krasnodar diyarının azad edilməsində, Ukraynanın Zaparojye, Xerson, Krım vilayətlərinin alman-faşist işğalçılarından təmizlənməsində fəal iştirak edir. Fətulla Stalinqradın, Rostov-Don, Novorossiysk, Simferopol, Sevastopol, Taqanroq və başqa yaşayış məntəqələrinin azad olunmasında və müdafiə edilməsində döyüş yoldaşları ilə birgə böyük rəşadət göstərir. 1944-cü ildə Fətulla Niftullayevin döyüş yolu Kensbirqdən keçir. Qızğın döyüşlərin birində ağır yaralandığı üçün əsir düşür. Onun uzaq yerlərdə - əsir düşərgəsində çətin və məşəqqətli günləri başlayır. Nəhayət, əsir düşərgəsindən qaçıb Fransa partizanlarına qoşulur. Fransa müqavimət hərəkatının fəal iştirakçısı olur. Alman faşizminə qarşı fransız partizanları ilə birgə mübarizə aparır. Partizanlar arasında böyük nüfuz qazana bilir. Fransa KP MK-nın rəhbəri olan Marsen Kaşen şəxsən özü onunla tanış olub igid qafqazlı balasına xeyir-dua verir. Fətulla Niftullayev alman faşistlərilə müharibənin bizim qələbəmizlə başa çatması xəbərini də elə Fransada olarkən eşidir...

Vətənin müdafiəsi naminə müharibəyə könüllü gedən Fətulla Niftullayev döyüş cəbhələrində rəşadətli əsgər kimi göstərdiyi şücaətlərinə görə "I dərəcəli Şərəf", "I dərəcəli Vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri ilə, "Qafqazın müdafiəsinə görə", "Stalinqradın müdafiəsinə görə", "Simferopolun alınmasına görə", "Varşavanın alınmasına görə, "Kensbirqin alınmasına görə" və "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunub.

Xatırladaq ki, Böyük Vətən müharibəsi illərində torpaqlarımızı düşmənlərdən qorumaq üçün təkcə Cəlilabad rayonundan 6440 nəfər müharibəyə yola salınmışdı. Faşistlərin şeytan yuvası olan Reyxstaq üzərinə Qələbə bayrağı sancılandan sonra



cəbhədən yaralılarla birlikdə cəmi 2800 nəfər cəlilabadlı geri dönə bilmişdi. Onlardan biri də Fətulla Niftullayev idi. O, böyük qələbədən xeyli sonra öz elinə qayıtdı. Ömrünün sonuna kimi müxtəlif sahələrdə çalışdı, döyüş cəbhəsində olduğu kimi əmək cəbhəsində də öz yoldaşlarına nümunə oldu, onların rəğbətini qazandı.

Hər il faşizm üzərində qələbənin ildönümünü qeyd edəndə Fətulla Niftullayev kimi igid oğulları bir daha ehtiramla yad edir, onların qəhrəmanlıqları ilə qürur duyuruq. Ümummilli liderimiz Heydər Əliyev 1995-ci ilin aprel ayının 7-də veteranlarla görüşündə haqlı olaraq demişdir: "1941-1945-ci illər Azərbaycan xalqının tarixində də görkəmli yer tutur, xalqımızın parlaq səhifəsidir. Biz bunları böyük hörmət və ehtiramla xatırlayırıq. Bu dövrün insanlarını - həm həmin dövrdə döyüşən və həlak olanları, cəbhədə yaralanları, həm də rəşadət göstərib bu gün yaşayanları, həyatlarını dəyişənləri həmişə xatırlamalı, onlara böyük hörmət və ehtiramımızı bildirməliyik".

Bəli, heç kim unudulmur, heç nə yaddan çıxmır. Bu gün Fətulla Niftullayevin də əziz xatirəsi qəlbimizdə yaşayır. Od-alov içindən keçmiş döyüşçünün adının əbədiləşdirilməsi üçün Cəlilabadın geniş küçələrindən birinə onun adı verilib. Fərəhli haldır ki, Sverdlovsk vilayətində yerləşən "Krasnıy kult" orta məktəbi də həmyerlimiz Fətulla Niftullayevin adını daşıyır.

Bu yaxınlarda isə Cəlilabad rayonunda Böyük Vətən müharibəsi iştirakçısı Fətulla Niftullayevin xatirəsinə həsr olunmuş şahmat turniri keçirilib. Tədbirdə rayon Veteranlar Təşkilatının sədri Əliheydər Əsədov, 20 Yanvar İctimai Birliyi rayon şöbəsinin sədri, şəhid atası Mirşamil Mürsəlov, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Cəlilabad Regional Mərkəzinin rəhbəri Ziya İsmayılov, rayon Gənclər və İdman idarəsinin rəisi Elçin Hüseynov, "Əməkdar Mədəniyyət işçisi" Cahangir Muradov, "Sözün işığı" jurnalının baş redaktoru Ədalət Salman və başqaları qəhrəman döyüşçünün şərəfli həyat yolundan danışdı, onunla bağlı xatirələrini söylədilər.

*Ədalət Salman,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## MASALLIDAN - QƏLƏBƏYƏDƏK

## BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇISI ATABALA HACIYEV

Həzi Atabala oğlu Hacıyev 15 mart 1924-cü ildə Masallı rayonunun Banbaşı -Binə Xocavar kəndində anadan olmuşdur. O, 1942-ci ilin avqust ayında həqiqi hərbi xidmətə çağırılmışdır. İlk hərbi təlimlərdən sonra 1943-cü ildə Atabala Hacıyev müharibəyə yola salınır və əfsanəvi 416-cı Taqanroq atıcı diviziyasının 1054-cü artilleriya alayının



rabitəçisi olur. Elə döyüşə girdiyi ilk günlərdən özünün çevikliyi, qorxmazlığı, cəsarəti ilə fərqlənən Atabala Hacıyev ən çətin tapşırıqları yerinə yetirməyə cəlb olunur. Qarabəniz, arıq cüssəli gənc Atabala döyüşlərdə göstərdiyi şücaətlərə görə 1944-cü ilin avqust ayında "İgidliyə görə" medalı, 1945-ci ilin martında isə "Qırmızı Ulduz " ordeni ilə təltif olunur.

Atabala Hacıyevin qəhrəmanlıq dolu döyüş yolunu daha ətraflı təsəvvür etmək üçün sabiq SSRİ Müdafiə Nazirliyi Mərkəzi Arxivi rəhbərliyinin ona ünvanladığı 19 noyabr 1990-cı il tarixli məktubuna nəzər yetirmək kifayətdir.

Berlin şəhərinin alınması uğrunda gedən döyüş əməliyyatlarında igidliyi ilə fərqlənən Atabala kişi həmin döyüşü belə xatırlayırdı: "Komandirimiz polkovnik Mehdi Mahmudov Naxçıvanlı idi. Berlinin alınması əməliyyatı zamanı Şpreya çayından o tayda yerləşən kəşfiyyatçılarımızla rabitə əlaqəsi yaratmaq lazım idi. Düşmən tərəf bizim mövqelərimizi yaxşı görürdü və buna görə də rabitə yaradılmasını ancaq qaranlıq vaxtlarında yerinə yetirmək olardı. Komandir məni və bir neçə rabitəçini Qərargaha çağırdı və tapşırığı izah etdi. Sonra dedi: "Atabala, Cənub bölgəsinin adamlarının çoxu seyidlərdir. Elə sən də seyid olarsan. Sənə düşmən güllləsi batmaz. Ona görə də bu çətin tapşırığı sənə həvalə edirik".

- Müharibənin qanunları çox sərtdir və komandirin əmri sözsüz-şərtsiz icra olunmalıdır. Belə də oldu. Mən bacardım. Biz qalib gəldik. Bu şücaətimə, bacarığıma, igidliyimə görə mənə Sovet İttifaqı Qəhrəmanı adı verilməsindən ötrü təqdimat göndərildi. Məni komandirim təbrik də etdi ki, mütləq Moskva təqdimata müsbət münasibət bildirəcək. Çünki, mənim rabitəçilik məharətim döyüşlərin taleyini həll etdi və döyüşdə uğur qazandıq. Mən Masallıdan Berlinə-Qələbəyədək döyüş yolu keçdim. Amma Moskvadan xəbər yox idi. Artıq Böyük Vətən müharibəsində qələbəmiz barədə xəbər gəldi. Döyüşdən sonra da bizi buraxmadılar. Berlində "qayda-qanuna" nəzarət edirdik. Mənfur qonşularımız hələ müharibə illərində də bizim millətdən olan döyüş qəhrəmanlarına qısqancıqla yanaşmışlar. Bu tarixdir ki, mən bu paxıllığı öz həyatımda gördüm. Moskvadan Ordunun Baş Qərargahından bizim hərbi hissəyə yüksək rütbəli hərbçi qrupu gəlmişdi. Onlar bildirdilər ki, guya mən alman ordusuna əsir düşmüşəm. Məni dəvət etdilər və məlum oldu ki, kimlərsə barəmdə belə bir yalan şaiyə yayıblar. Komandirim vəziyyətlə onları ətraflı məlumatlandırdı. Bəli, araşdırdılar və məlum oldu ki, mənim barəmdə mərkəzə qərəzli məlumat veriblər. Qələbəmizdən 1 il ötəndən sonra, 15 may 1946-cı ildə mən Lenin ordeni ilə təltif olundum."

Atabala Hacıyev 1947-ci ilin mart ayında ordu sıralarından tərxis olunub, doğma el-obasına qayıdıb, 35 ildən artıq baş aqronom vəzifəsində işləmişdir. Əldə etdiyi əmək nailiyyətlərinə görə dəfələrlə mükafatlandırılıb.

BVM veteranı Hacıyev Atabala Həzi oğlu təsərrüfatlarda ən məsul vəzifədə işləməsinə baxmayaraq, dövlətimizin müstəqillik əldə etdiyi ilk günlərdən başlayaraq ictimai işlərdə fəal iştirak edir. O, gənclər arasında vətənpərvərliyin təbliğ olunması, onlarda Vətənə sədaqətlik ruhunun formalaşmasında öz töhfəsini vermişdir.

II Dünya müharibəsi, Böyük Vətən müharibəsində Alman faşizmi üzərində parlaq qələbəmizin 74-cü ildönümünü qeyd ediləcək günə az qalmış, yəni 19



aprel 2019-cu ildə ömrünün 96-cı ilində Hacıyev Atabala Həzi oğlu dünyasını dəyişdi. Ürəyi Vətən eşqi ilə yanan, həm böyük ağsaqqal nüfuzu, həm də xeyriyyəçi əməlləri ilə rayonumuzun əhalisi arasında "bizim qəhrəman" kimi tanınan Atabala kişi son mənzilə adına layiq tərzdə, rayonun rəhbərliyinin, geniş ictimaiyyətin, gənclərin iştirakı ilə yola salındı. Ölüm haqqdır və bütün yaradılmışlar bu sınaqdan keçəcəklər. Lakin o da qəbul olunmuş deyimdir ki, "qəhrəmanlar ölməzdir."

***Məmmədağa Şiriyev,***
***Masallı rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, Qarabağ müharibəsi veteranı***

# Tarixin danışan səhifələri

Respublika Veteranlar Təşkilatı tariximizin və qəhrəmanlarımızın təbliğ edilməsi və gələcək nəsillərə çatdırılması üçün əməli işlər görməkdədir. Azərbaycan Respublikasının II Dünya müharibəsində-ki iştirakı ilə bağlı Respublika Veteranlar Təşkilatı respublika və beynəlxalq səviyyəli tədbirlər həyata keçirmişdir. Müharibənin canlı şahidləri olan veteranların xatirələri və tarixi faktlar əsasında Azərbaycanın II Dünya müharibəsində iştirakı haqqında kitablar çap olunmuş, sənədli və bədii filmlər çəkilmişdir. Son illərdə Qələbənin əldə edilməsində Azərbaycanın fəaliyyətindən bəhs edən kitablar - Azərbaycan Milli Elmlər Akademiyasının “Böyük Vətən müharibəsinin Qələbəsində alimlərin rolu”, Musa Bağırov “Sərkərdənin taleyi”, Azərbaycan İqtisadçılar İttifaqı və “İqtisadiyyat” qəzetinin xüsusi layihəsi əsasında hazırlanıb çap olunmuş “Bakı nefti Qələbənin açarı”, Sabir Gəncəlinin “İgid oğullarla bir cərgədə” ensiklopedik toplusu, Firdovsi Sadıqov və Rövşən Vəlizadənin müəllifi olduqları “Stalinqrad döyüşünün unudulmuş qəhrəmanı”, Qeorqiy Zapletin “Vətənə və elmə xidmət edirdilər”, Azərbaycan Respublikasının Moldova Respublikasındakı səfirliyinin dəstəyi ilə çap edilmiş “Книга памяти», Azər Hacıbəylinin “Mehdi Hüseynzadə”, Hüseynov A.A və Mirzəyev H.İ. “Azərbaycan 1941-1945 Aleksandr Nevski ordenli cəngavərlərimiz”, Aleksandr Qritçenko və Cəlil Xəlilov “Дружба народов и победа» və.s oxuculara çatdırılmışdır. Bu nəşrlərin tariximizin yaşadılması ilə yanaşı gənc nəslin vətənpərvərlik tərbiyəsi işində də müstəsna xidmətləri vardır.




Həmçinin Azərbaycan Respublikasında veteran hərəkatını özündə əks etdirən və Respublika Veteranlar Təşkilatının 30 illik fəaliyyətini və Təşkilatın sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilovun müəllifi olduğu “Azərbaycan veteranı: Böyük yolun 30 ili” kitabı da nəşr edilmişdir.

Bunlardan başqa Respublika Veteranlar Təşkilatı Azərbaycanın XX əsr tarixinin - Azərbaycanın I və II Dünya müharibələrindəki iştirakı, Azərbaycan Xalq Cumhuriyyəti, müharibə və münaqişələrdə Azərbaycanlıların iştirakı müstəqilliyimiz, Dağlıq Qarabağ münaqişəsi, Ordu quruculuğu və.s məsələlərin araşdırılmasına öz töhfələrini verir.

# Unutsaq - unudularıq

## *Canlı tariximiz*

*Zaman axıb gedir... İllər illəri, nəsillər nəsilləri əvəz edir, dünya təzələnir... Bəşər tarixinin ən qanlı savaşlarından biri olan İkinci Dünya müharibəsindən yetmiş dörd il keçir...*

**Yaddaşlarda yaşayır müharibə illəri, müharibə faciələri!..**

Hələ də ümidini üzməyib yollara baxa-baxa yar-yoldaşını, doğmalarını, yaxınlarını gözləyən, gözü yollarda qalan nə qədər insan var! Onlar hələ də möcüzəyə inanır və bu inamla da yaşayırlar.

Vətən uğrunda canından keçən, şəhidliyə qovuşan, qanlı cəbhələrdə itkin düşən insanların yalnız bircə şeyə ehtiyacı var - yada salınmaq, xatırlanmaq...

Onların ruhu yalnız xatirələrə güvənir, xatırlanmaqdan, anılmaqdan rahatlıq, dinclik tapır...

Respublika Xatirə Kitabı Redaksiyasının kollektivi məhz belə savab və xeyirxah bir işlə məşğuldur. Gördüyümüz işin məqsəd və məramını ikicə kəlmə ilə belə ifadə etmək olar: bu kitabın nəşri ilə şəhid kimi dünyadan getmiş nə qədər insanın ruhu şad olur, doğmaları, əzizlərini itirmiş insanlar isə "Xatirə Kitabı"ndan təsəlli tapırlar.

Bu möhtəşəm nəşrin mənası, dəyəri də elə bundadır. Odur ki, "Xatirə Kitabı"nı hazırlayıb ərsəyə gətirənlər öz nəcib, xeyirxah işlərinin nə qədər şərəfli olduğunu bilir, onun məsuliyyətini dərindən dərk edir və gördükləri bu xeyirxah işdən xüsusi fərəh duyurlar.

Respublika Xatirə Kitabı yarandığı gündən etibarən gərgin araşdırmalar və həyata keçirilən axtarışlarla vətən uğrunda canından keçən hər bir qəhrəmanın adının əbədiləşdirilməsinə çalışır. Məhz bu fəaliyyətin məntiqi nəticəsi kimi qeyd etmək olar ki, artıq 16 cildi işıq üzü görən Xatirə Kitabının səhifələrində yüz minlərlə soydaşımızın adları əbədiləşdirilib tarixin yaddaşına həkk olunmuşdur.Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin təzahürü olan Respublika Xatirə Kitabı vətənimiz Azərbaycanın tarixinə qızıl hərflərlə həkk olunan qəhrəmanlıq salnaməmizi gələcək nəsillərə ötürmək üçün var gücü ilə çalışmaqdadır. Respublika Xatirə Kitabı Redaksiyasının əməkdaşlarının apardığı araşdırmalar, vətən uğrunda canından keçən qəhrəmanların adlarının bu kitabın səhifələrində əks olunması istiqamətinə yönəlmişdir.

Müharibə tufanı sayı-hesabı bilinməyən Azərbaycan övladlarını Terek, Don, Volqa, Dnepr sahillərindən uzaq-uzaq diyarlara - Polşa, Macarıstan, Fransa, Avstriya, İtaliya və Yuqoslaviyaya, eləcə də dünyanın başqa-başqa ölkələrinə aparıb çıxarmışdır. Bu məmləkətlərin Qardaş qəbiristanlıqlarında saysız-hesabsız vətən övladları uyuyur. Ünvanı olanlar da, olmayanlar da, yeri bilinənlər də, bilinməyənlər də var.

Onların adını gələcək illərə, əsrlərə aparan təkcə qranit abidələr, tunc heykəllər, mərmər salnamələr deyil, həm də sətirləri, səhifələri şəhid qanı ilə yazılmış kitablardır.

Bəşər övladı həmişə öz keçmişinə, yaddaşına qırılmaz tellərlə bağlı olub. Bu indi də belədir, həmişə də belə olacaq. Yaddaşı olmayan xalqın heç vaxt gələcəyi ola bilməz. Yaddaş dünənlə bu gün, başqa sözlə desək, gedənlə gələn arasında körpüdür - mənəvi körpü!

Müdrik bir deyim var: "Unutsaq - unudularıq".

Müstəqil Dövlətlər Birliyində "Xatirə Kitabı"nın 1400 cilddə buraxılması nəzərdə tutulmuşdur. Bu monumental nəşrin 20 cildi Azərbaycanın payına düşür.

"Xatirə Kitabı" öz həcmi, səciyyəsi ilə seçilən unikal bir nəşrdir. Hər bir cilddə Vətən yolunda canından keçmiş soydaşlarımız haqqında yığcam bioqrafik məlumat verilir: döyüşçünün soyadı, adı, atasının adı, hansı hərbi komissarlıqdan orduya çağırıldığı tarix, hərbi rütbəsi, vəzifəsi, vuruşduğu, həlak olduğu, itkin düşdüyü yer və dəfn edildiyi məkan.

Həcmi 80-100 çap vərəqi olan və 2000 nüsxə ilə buraxılan "Xatirə Kitabı"nın hər cildində təxminən 15-16 min nəfər soydaşımız haqqında məlumat verilir. Burada "Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları", "İkinci Dünya müharibəsində həlak olmuş, itkin düşmüş və aldığı yaralardan vəfat etmiş Azərbaycan oğulları", "Əfqanıstan qurbanları", "Xocalı!.. , "20 Yanvar şəhidləri", "Azərbaycanın Milli Qəhrəmanları", "Bu Vətən, bu torpaq unutmaz sizi" başlıqları altında şəkil-dəftərçələr yer alır.

Respublika Xatirə Kitabı Redaksiyası apardığı araşdırmalarda müxtəlif təşkilatlarla əməkdaşlıq edir, qəhrəman döyüşçülərimizin keçdiyi şərəfli döyüş yollarında kəsişən müxtəlif ölkələrə ezamiyyətlər təşkil etməklə bir daha həmin vətən övladlarının yazdığı qəhrəmanlıq salnaməsini araşdırır. Azərbaycan Respublikasının şanlı qəhrəmanlıq tarixini özünün bu günə qədər çap olunmuş 16 cildində və bundan sonra işıq üzü görəcək digər cildlərində əbədiləşdirəcək Respublika Xatirə Kitabı Redaksiyasına bu müqəddəs işində ən çox yardımçı olan təşkilatlardan biri vətənimiz Azərbaycanın qəhrəmanlıq salnaməsinin canlı şahidi və iştirakçısı, müharibə veteranlarının müqəddəs ocağı olan Respublika Veteranlar Təşkilatıdır.

Gənc nəslin nümunə götürdüyü, keçdikləri şərəfli və müqəddəs döyüş yolunun iştirakçısı olan insanları - hər biri canlı tarix olan bu qəhrəman övladları öz sıralarında birləşdirən Respublika Veteranlar Təşkilatı yenə də vətənimiz Azərbaycanın həqiqətlərinin dünyaya çatdırılması uğrunda əzmlə, cəsarətlə, bütün gücünü səfərbər edərək çalışmaqdadır. Veteranlar Təşkilatının Vətən uğrunda canından keçən döyüş yoldaşlarının xatirəsinin əbədiləşdirilməsi işində böyük bir səbrlə apardığı araşdırmalar Respublika Xatirə Kitabında ayrı-ayrılıqda yer almışdır. Veteranlar Təşkilatının gərgin əməyi sayəsində dünyanın bir sıra ölkələrində İkinci Dünya Müharibəsində həlak olmuş və itkin düşmüş soydaşlarımızın bu günə kimi bilinməyən məzarlıqları aşkarlanaraq, onların məlumatları Xatirə Kitabı Redaksiyasına ötürülmüşdür. Belə ki, Krasnodar diyarından 960 nəfər, Moldovadan 206 nəfər, Avstriyadan isə 900 nəfərdən çox həmvətənimizin haqqında dolğun məlumatları dəqiqləşdirilərək “Xatirə Kitab”ında dərc edilmişdir.




Respublika Veteranlar Təşkilatı gənc nəslin maariflənməsi, tariximizin qan yaddaşına yazılmış hadisələri, vətən övladlarının göstərdiyi qəhrəmanlıqların gələcək nəsillərə ötürülməsində böyük iş görür. Təşkilat yorulmaq bilmədən öz fəaliyyətini davam etdirərək şanlı tariximizin abidəsi sayılan Respublika Xatirə Kitabının hər cildinin çap olunaraq işıq üzü görməsinə mənəvi dəstək olur.

”Xatirə Kitabı” nın fəaliyyəti təkcə sadaladıqlarımla məhdudlaşmır. Biz faşizm üzərində Qələbənin 74 illik yubileyinə hazırlaşırıq. Bu vaxta qədər “Xatirə Kitabı” redaksiyasının əməkdaşlarının gərgin araşdırmaları nəticəsində çoxlu sayda soydaşlarımızın adları və soyadları, keçdikləri döyüş yerləri aşkarlanmışdır. Bu məlumatlar toplanaraq 3 cilddə nəşr olunması nəzərdə tutulur.

Qeyd edək ki, əməkdaşlarımızın Respublikanın bölgələrində və xarici ölkələrdə araşdırmaları hələ də davam edir. Bu vaxta qədər əlavə kimi nəzərdə tutulan üç cilddən birinci cildi artıq redaksiyada yığılaraq hazır vəziyyətə gətirilməkdədir. Bundan əlavə redaksiyamız Gürcüstandan və Qərbi Azərbaycandan II Dünya Müharibəsində iştirak edib, həlak və itkin düşmüş soydaşlarımızı da unutmamışdır. Hazırda bu ölkələrdən olan soydaşlarımızın məlumatları redaksiyada toplanaraq araşdırılır. Dəqiqləşdirmələr bitdikdən sonra, əlavə iki kitab redaksiyamız tərəfindən nəşr edilərək xalqımızın ixtiyarına veriləcəkdir. Diqqətinizə çatdırıram ki, hazırda əməkdaşlarımızın gərgin əməyi sayəsində Gürcüstandan 500-dən artıq, Qərbi Azərbaycandan isə 700-ə qədər soydaşımızın məlumatı axtarılıb tapılmışdır.

Bundan başqa Azərbaycandan olan Sovet İttifaqı Qəhrəmanları haqqında nəfis tərtibatda kitab da yenidən işlənərək ayrıca dərc ediləcək.

Respublika Veteranlar Təşkilatı vətənimizin qəhrəmanlıq tarixinin canlı şahididir. Respublika Xatirə Kitabı Redaksiyası olaraq həyata keçirdiyimiz bütün araşdırmalar zamanı bizə böyük və əvəzsiz köməkliyini əsirgəməyən bu təşkilata, onun sıralarında əyilməz vüqarla birləşən veteranlarımıza cansağlığı arzulayır, daim mübariz və əyilməz iradələriylə gələcək nəsillərin yoluna işıq tutmalarını diləyirik.

Qarşıdan 9 may Qələbə günü yaxınlaşır. Bu münasibətlə bütün veteranları və onların ailə üzvlərini təbrik edirik.

***Nəzakət Məmmədova***
***Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru***

1941 - 1945
AZƏRBAYCAN VETERANI






**Baş redaktor**
Ülvi İBRAHİMLİ

Məsul katib
Şəhla QARAYEVA

Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.
**Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti

"Azərbaycan Veteranı" qəzeti.
**VÖEN:** 1701285981
verilmə tarixi - 23.11.2011

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34
**Əlaqə telefonu: 012** 440-21-08
**e-mail:** az.veteran@mail.ru
**Dövlət qeydiyyat nömrəsi** - 3486
**Dövlət qeydiyyat tarixi** - 19.10.2011

Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.

Qiyməti 1 manat 20 qəpik

Tiraj: 1500